# Milli Məclis

ANALİTİK İNFORMASİYA JURNALI

NOYABR-DEKABR, 2020 | WWW.MECLIS.AZ




PREZİDENT **İLHAM ƏLİYEV:**

***Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!***
***Eşq olsun Azərbaycan Ordusuna!***
***Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!***
***Yaşasın Azərbaycan əsgəri!***



**Milli Məclis**
*Analitik informasiya jurnalı*

**Təsisçi:**
Azərbaycan Respublikasının
Milli Məclisi

**Redaksiya Şurasının sədri:**
Sahibə Qafarova

**Redaksiya Şurasının üzvləri:**
Əli Hüseynli, Adil Əliyev,
Fəzail İbrahimli, Səfa Mirzəyev,
Ziyafət Əsgərov, Zahid Oruc,
Sadiq Qurbanov, Tahir Mirkişili,
Tahir Rzayev, Musa Quliyev,
Əhliman Əmiraslanov, Hicran
Hüseynova, Siyavuş Novruzov,
Bəxtiyar Əliyev, Qənirə Paşayeva,
Səməd Seyidov, Eldar İbrahimov,
Eldar Quliyev

**Baş redaktor:**
Ülviyyə Abdullayeva

**Baş redaktorun müavini:**
Mübariz Əsgərov

**Məsul redaktor:**
Aidə Əhmədova

**Dizayn:**
Vəfadar Əliyev

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq təsis edilib.

**Redaksiyanın ünvanı:**
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+99 412) 510 99 07
(+99 412) 510 67 01
(+99 412) 510 90 01

Milli Məclisin
rəsmi web səhifəsi:
**www.meclis.gov.az**

"Milli Məclis" jurnalının
web səhifəsi:
**www.jurnal.meclis.gov.az**

**Jurnal 2007-ci ilin may ayından nəşr olunur**

# BU SAYDA

**BURAXILIŞ:** NOYABR-DEKABR, 2020

Azərbaycanın yeni şanlı zəfər tarixi ........ 2
Müasir tariximizə qızıl hərflərlə yazılan qələbə ........ 8
Gənclərimiz istər ön cəbhədə, istərsə də arxa cəbhədə böyük qəhrəmanlıqlar göstərdi ........ 14
Parlament xəbərləri ........ 18
Rəsmi xronika ........ 22
Ulu öndəri xatırlayarkən ........ 26
Qarabağ münaqişəsinin həlli bütövlükdə region ölkələrinin hamısı üçün faydalıdır ........ 32
Azərbaycanın yaratdığı geostrateji reallıqlar yeni dünya nizamı kontekstində ........ 34
Biz gəlmişik, biz Qarabağdayıq! ........ 38
Şuşa uğrunda gedən döyüşlər Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı ........ 42
Azərbaycan tarixinin ən şanlı dövrlərindən birini yaşayır ........ 46
Prezident İlham Əliyev Qarabağı Qafqazın ən abad məkanına çevirəcək ........ 50
28 ildə bir an da olsa Laçını unutmadıq ........ 56
Ata ocağımı tez-tez yuxularımda görürdüm ........ 62
Azərbaycanın qala qapısı, gözəlliklər diyarı – Kəlbəcər ........ 66
Qələbəyə yol açdı mərd Ali Baş Komandan (şeir) ........ 70
Yubileylər ........ 72
Həmrəylik Azərbaycan dövlətinin tarixi zəfərinin rəhnidir ........ 74
Müzəffər Prezident: hərbi və diplomatik zəfər ........ 78
Müharibə cinayətləri törədənlərin cəzalandırılması qaçılmazdır ........ 84
Vüqar Gülməmmədov: "Dövlət qurumlarının nəzarət tədbirləri üzrə hesabatlılığı cəmiyyət qarşısında da təmin edilməlidir" ........ 88
44 günlük Vətən müharibəsi və yeni siyasi reallıqlar ........ 92
Ermənilər Cənubi Qafqazda necə məskunlaşdılar? ........ 96
Tədqiqat universitetləri: perspektivlər və imkanlar ........ 100
Azərbaycanda peyvəndlərin tətbiqi dövlət hesabına və könüllülük prinsipi əsasında həyata keçiriləcək ........ 104



# AZƏRBAYCANIN YENİ ŞANLI
# ZƏFƏR TARİXİ

**Prezident İlham Əliyev:** “Biz döyüş meydanında, siyasi müstəvidə qələbə qazanmışıq və bu qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır”.

2020-ci il Azərbaycan dövlətinin, xalqımızın tarixində möhtəşəm Vətən müharibəsində əldə olunmuş tarixi zəfərlə yadda qalacaq. 44 günlük Vətən müharibəsi 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələnmişdir. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olunmuş, düşmənin əksər texnikası məhv edilmiş, onun canlı qüvvəsinə ciddi zərbə vurulmuş, Ermənistan ordusu şanlı Azərbaycan Ordusu tərəfindən darmadağın edilmişdir. Bununla da Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azər-



**Sahibə Qafarova**
Azərbaycan Respublikası
Milli Məclisinin Sədri

baycan Ordusu Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi cəmi 44 günə dağıtmış, möhtəşəm qələbə əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazmış, məğlubedilməz ordu olduğunu sübuta yetirmişdir.

Şanlı ordumuz qarşısında duruş gətirə bilmədiyini, iflasa məhkum olduğunu dərk edən düşmən məğlubiyyətini etiraf edərək diz çökmüş, kapitulyasiya bəyanatı imzalamağa məcbur olmuşdur. Ermənistanın 44 günlük savaşının sonunda aldığı məğlubiyyəti və ağır dərsi biz tam ədalətli hesab edə bilərik. Çünki bir tərəfdə təcavüzkar erməni əsgəri, digər tərəfdə isə haqq uğrunda savaşan Azərbaycan əsgəri dayanmış, ordumuz təcavüzkara qarşı ədaləti bərpa etmişdir.

Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü siyasi müstəvidə qazanılan qələbə ilə başa çatmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat Azərbaycan torpaqlarının işğalına son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını təqdim etmişdir. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edilmiş, 2020-ci il dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarılmışdır. Bununla da ölkəmizin ərazi bütövlüyü təmin edilmiş, məcburi köçkünlərimizin doğma yurdlarına dönməsi reallığa çevrilmişdir. Prezident İlham Əliyev dekabrın 1-də xalqa müraciətində qeyd etmişdir ki, "Biz döyüş meydanında, siyasi müstəvidə qələbə qazanmışıq və bu qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır".

## Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev yorulmaz və məqsədyönlü fəaliyyəti ilə qələbəni təmin etmişdir

44 günlük Vətən müharibəsində Ermənistan və onun havadarları informasiya cəbhəsində də sarsıdıcı zərbələr almışdır. Möhtərəm Prezident İlham Əliyevin, demək olar, hər gün xarici ölkələrin mötəbər kütləvi informasiya vasitələrinə müsahibələr verməsi; bölgədə cərəyan edən hadisələr, dövlətimizin beynəlxalq hüquqa əsaslanan mövqeyi barədə məlumatları dünya ictimaiyyətinə çatdırması; ermənilərin mənfur və çirkin ideologiyasını ifşa etməsi bu baxımdan müstəsna və həlledici rol oynamışdır. Böyük qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarını ən yüksək səviyyədə qoruyan dövlətimizin başçısı yorulmaz və məqsədyönlü fəaliyyəti ilə hər kəsə nümunə göstərmişdir.

> Böyük qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarını ən yüksək səviyyədə qoruyan dövlətimizin başçısı yorulmaz və məqsədyönlü fəaliyyəti ilə hər kəsə nümunə göstərmişdir.

Beləliklə, həyata keçirilən məqsədyönlü addımlar nəticəsində Azərbaycan həm döyüş meydanında, həm də diplomatiya sahəsində bütün dünyaya sübut etdi ki, Qarabağ əzəli Azərbaycan torpağıdır, Qarabağ Azərbaycandır!

Əlbəttə, heç bir müharibə itkisiz ötüşmür. Xalqımızın igid oğulları Vətən müharibəsində əsl qəhrəmanlıq, şücaət göstərərək torpaqlarımızın azadlığı uğrunda öz canlarından keçmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz şəhid olmuş qəhrəman övladlarımızı heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə yaşayır və daim yaşayacaqdır!

## Milli birlik və həmrəylik tarixi qələbəmizi şərtləndirən mühüm amil olmuşdur

Vətən müharibəsində parlaq qələbəmizi şərtləndirən çox mühüm və həlledici amillərdən biri də, şübhəsiz ki, Azərbaycan xalqının sarsılmaz birliyi və milli həmrəyliyi olmuşdur. Xalqımız öz liderinin ətrafında birləşərək dəmir yumruğunu, birliyini və gücünü bütün dünyaya nümayiş etdirmişdir. Bu həmrəylik, cəmiyyətin bütün təbəqələrinin, eyni zamanda, dünya azərbaycanlılarının vahid cəbhədə birləşməsi, eyni amal uğrunda mübarizə aparması



tarixi zəfər qazanmağımızı təmin etmişdir. Bu dövrdə həmçinin Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər, çağırışlar və bəyanatlar milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfə olmuşdur.

Qeyd edim ki, Azərbaycan Respublikası Milli Məclisi olaraq, şanlı ordumuzun əks-hücum əməliyyatlarına başladığı ilk anlardan etibarən, beynəlxalq ictimaiyyəti məlumatlandırmaq, Ermənistanın dinc azərbaycanlı əhaliyə qarşı hərbi təxribatları, Gəncəni, digər şəhər və rayonlarımızı artilleriya və raketlərdən atəşə tutması ilə bağlı həqiqətləri çatdırmaq məqsədi ilə milli parlamentlərə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanlanmışdır. Parlament rəhbərliyinin və dostluq qruplarının adından 88 ölkənin parlamentlərinə və 11 beynəlxalq təşkilata 140-dan çox məktub göndərilmişdir. Bir sıra ölkələrin spikerləri və beynəlxalq təşkilatların rəhbərləri ilə telefon danışıqları aparılmış, bir çox ölkələrin səfirləri ilə görüşlər keçirilmiş, onlara Ermənistanın təcavüzü və təxribatları haqqında ətraflı məlumat verilmişdir. Milli Məclisin əksər deputatları müxtəlif xarici ölkələrin media orqanlarında erməni vandalizminin ifşa olunması istiqamətində çıxışlar etmiş, sosial şəbəkələrdə fəallıq nümayiş etdirmişlər. Bu dövrdə Azərbaycanın parlament diplomatiyasının bütün imkanları tam haqlı olaraq, Vətən müharibəsi ilə bağlı gerçəkliklər haqqında dünya ictimaiyyətini məlumatlandırmağa, Ermənistanın hərbi-siyasi rəhbərliyinin törətdiyi təxribatların beynəlxalq auditoriyaya çatdırılmasına səfərbər olunmuşdur.

> Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaqla regionda yeni təhlükəsizlik və əməkdaşlıq formatının yaranmasını şərtləndirmişdir. Bundan sonra görüləcək tədbirlər regional sabitliyin möhkəmlənməsinə, əməkdaşlıq mühitinin dərinləşməsinə xidmət etməlidir.

### Tarixi ədaləti bərpa edən Azərbaycan yeni reallıqlar yaratmışdır

Azərbaycan Vətən müharibəsində parlaq qələbə qazanaraq həm tarixi ədaləti bərpa etmiş, həm də yeni reallıqlar yaratmışdır. Yeni situasiya həm ölkəmizin, həm də bölgənin qarşısında yeni




perspektivlər açmışdır. Bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir və Azərbaycanın inkişafında yeni mərhələ başlayır. Baxmayaraq ki, 30 il ərzində düşmən işğal edilmiş bütün şəhər və kəndlərimizi dağıtmış, yerlə yeksan etmiş, bütün binalar, tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılmışdır, Azərbaycan öz gücü, qüdrəti hesabına həmin əraziləri yenidən dirçəldəcək, işğaldan azad edilən tarixi torpaqlarımızda bərpa və quruculuq işləri aparılacaq, azad edilmiş torpaqlara yeni həyat qayıdacaq. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik, güclü iradə göstərəcək, yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər milli iqtisadiyyatımızın da inkişafına təkan verəcəkdir. Çünki azad edilmiş bölgələrin iqtisadi potensialı kifayət qədər böyükdür və ölkəmiz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirəcəkdir.

Eyni zamanda, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaqla regionda yeni təhlükəsizlik və əməkdaşlıq formatının yaranmasını şərtləndirmişdir. Bundan sonra görüləcək tədbirlər regional sabitliyin möhkəmlənməsinə, əməkdaşlıq mühitinin dərinləşməsinə xidmət etməlidir. Regiona yeni canlanma gətirilməli və yeni inkişaf olmalıdır. Azərbaycan buna hazır olduğunu bəyan etmişdir. Digər regional dövlətlər və aktorlar da Azərbaycan qədər məsuliyyətli davranmalı, proseslərin yenidən gərginləşməsinə aparıb çıxara biləcək addımlara yol verməməlidirlər. Münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupu da regionda yeni fəaliyyət proqramı ortaya qoymalıdır. Artıq "status-kvo", Madrid prinsipləri kimi anlayışlar olmadığı bir dövrdə həmsədrlər regionda yeni reallığa uyğun olaraq etimad quruculuğu, yol və kommunikasiya xətlərinin açılması kimi məsələlərlə məşğul olmaq imkanına malikdirlər. Minsk qrupu bu imkanları düzgün dəyərləndirərək yeni reallığa uyğun davranmalı, məhz bu yolla regionda davamlı sülhün təmin olunmasına töhfə verməlidir.

### Möhtəşəm Zəfər paradı Azərbaycanın qüdrətini bütün dünyaya nümayiş etdirdi

Bəli, bu tarixi qələbə, həmçinin dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş möhtəşəm

Zəfər paradı dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bu parad Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycanın və Vətən müharibəsində ölkəmizə mənəvi-siyasi dəstək verən qardaş Türkiyənin prezidentlərinin qatıldıqları paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi ilə yanaşı, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də təqdim olundu. Möhtəşəm hərbi parad həm də onu göstərdi ki, bundan sonra heç kəs bir daha Azərbaycanla güc və təzyiq dili ilə danışa bilməz. Bizim rəşadətli ordumuz, peşəkar əsgər və zabitlərimiz, xalqımızın arxalandığı müdrik rəhbərimiz var.

Bir məqamı da xüsusi qeyd etmək lazımdır. Paradda Türkiyənin siyasi və dövlət xadimlərinin, əsgər və zabitlərinin iştirakı bayram əhval-ruhiyyəsini daha da artırdı. Qarabağ uğrunda qurtuluş savaşının ilk saatlarından Türkiyə qardaş ölkə olaraq siyasi-diplomatik və mənəvi dəstəyi ilə Azərbaycanın yanında yer almışdır. Türkiyənin bu möhtəşəm Zəfər paradında bizimlə birgə olmasının çox dərin mənası var. Azərbaycanla Türkiyə dost və qardaş ölkələrdir və onların arasında münasibətlər bir millətin iki dövləti arasındakı münasibətlərdir. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.

Məlumdur ki, bir neçə gündən sonra xalqımız 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edəcək. Bu günədək bütün dünya azərbaycanlıları həmişə bu bayramı bir müqəddəs arzu ilə qeyd edirdi ki, növbəti bayram sevinclərimizi Qarabağımızda yaşayaq. Bu gün çox xoşbəxt və qürurluyuq ki, xalqımızın arzuları çin oldu və 2020-ci il tariximizə Zəfər ili, Qələbə ili kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz tarixinin ən möhtəşəm səhifəsini yaşayır, ərazi bütövlüyünü, suverenliyini, tarixi ədaləti bərpa etmişdir. Azərbaycan xalqı bir daha bütün dünyaya sübut etdi ki, məğrur, yenilməz xalqdır. Bu gün hər bir azərbaycanlı böyük və qürurlu xalq kimi, dünyanın harasında yaşamasından asılı olmayaraq, zəngin tariximiz və mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz, güclü, müstəqil dövlətimizlə yanaşı, Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfərlə də haqlı olaraq fəxr edir. İşğaldan azad olunmuş ərazilərimizdə üçrəngli Azərbaycan bayrağının vüqarla dalğalanması bu bayram günlərində ən böyük hədiyyədir.

***Eşq olsun Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevə!***
***Eşq olsun müzəffər Azərbaycan Ordusuna!***
***Eşq olsun sarsılmaz birlik nümayiş etdirən Azərbaycan xalqına!***
***Yaşasın müstəqil, qüdrətli Azərbaycan!***










QARABAĞ
AZƏRBAYCANDIR!

# MÜASİR TARİXİMİZƏ QIZIL HƏRFLƏRLƏ YAZILAN QƏLƏBƏ




Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Ali Baş Komandanın qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırıldı və təqvimimizə Zəfər günü kimi şanlı bir tarix yazıldı.

Bununla biz bəşəriyyətə haqqın, ədalətin, böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu tarixi yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğrunda vuruşuruq. Müzəffər Azərbaycan Ordusu dünyaya həm də onu sübut etdi ki, döyüş meydanında zəfəri yalnız silahların gücü ilə qazanmaq mümkün deyil, bunun üçün daha çox vətən sevgisinin hopduğu döyüş əzminə, ağıl və zəkaya malik olmaq lazımdır.

Qarabağ torpaqlarının işğaldan azad edilməsi naminə həyata keçirilən "Dəmir yumruq" əməliyyatının qələbə ilə başa çatması münasibəti ilə dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər paradının bütün mənalarda böyük tarixi və siyasi əhəmiyyəti vardır. İlk növbədə bu təntənə Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu kimi, Ermənistan üçün isə məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşdi. Bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan əzəmətli xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun

öz xalqına və dövlətinə sədaqətində, vətən sevgisindədir.

Əlbəttə, bizi qələbəyə aparan yol heç də hamar olmayıb, çox böyük çətinliklərdən, maneələrdən keçib. Cəsur Azərbaycan əsgəri haqq və ədalət uğrundakı savaşda düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamları qısa müddətdə darmadağın etdi. Gərgin döyüşlər nəticəsində 5 şəhər, 4 qəsəbə, 300-dək kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Silahlı Qüvvələrimiz döyüş meydanında Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı.



**Əli Hüseynli**
Milli Məclis Sədrinin birinci müavini,
Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri

Nəhayət, alınmaz qala sayılan Şuşanın işğaldan azad olunması ilə müharibənin taleyinə tam aydınlıq gəldiyi bir məqamda Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq işğal altında qalmış digər ərazilər də əsl sahiblərinə qaytarıldı. Ölkə ictimaiyyəti bunu Azərbaycan diplomatiyasının böyük tarixi qələbəsi və mahiyyət etibarı ilə Ermənistanın kapitulyasiyasını təsdiq edən sənəd kimi dəyərləndirdi. Bu tarixi hadisəyə Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına 13 noyabr 2020-ci il tarixli müraciətində siyasi qiymət verilmişdir: “2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını təqdim etmişdir...Tarixi əhəmiyyət daşıyan bu bəyanat çoxillik münaqişə və müharibədə Azərbaycan xalqının şanlı qələbəsini təcəssüm etdirir. Tarixi ədalət öz yerini tutur, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunur”.

**Müzəffər Azərbaycan Ordusu dünyaya həm də onu sübut etdi ki, döyüş meydanında zəfəri yalnız silahların gücü ilə qazanmaq mümkün deyil, bunun üçün daha çox vətən sevgisinin hopduğu döyüş əzminə, ağıl və zəkaya malik olmaq lazımdır.**

Zəfər paradı Ali Baş Komandanımız, Prezident İlham Əliyevin həm siyasət, həm də döyüş meydanında diplomatik siyasətinin; müzəffər şanlı ordumuzun, igid əsgər və zabitlərimizin qanlarının töküldüyü müqəddəs Qarabağ torpağımızın həsrətinə son qoymuş Böyük Qələbənin dünyaya nümayişi idi. Azərbaycan xalqı bununla ilk növbədə bütün dünyaya bəyan etdi ki, biz bir qarış torpağımızı belə heç kəsə verməyəcəyik.

İşğaldan azad olunan torpaqlarda ucaldılan Zəfər bayrağını parada gətirərək və qalib ordumuzun bölmələrini, döyüş texnikalarımızı nümayiş etdirərək hərbi gücümüzü dünyaya göstərdik. 3000 nəfərdən artıq şəxsi heyətin, ordumuzda aparılan modernləşmə işlərinin nümunələri olan 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, ən müasir döyüş helikopterləri və təyyarələrin, müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarının (PUA), eləcə də hərbi gəmi və katerlərin yer aldığı paradda Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi və düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu.

Bu parad bir daha göstərdi ki, ordu quruculuğu prosesi dövlətimizin siyasi prioriteti kimi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ötən 17 ildə uğurla davam etdirilib. Bunun nəticəsində Azərbaycan Silahlı Qüvvələri bu gün regionun modern texnika ilə təchiz edilən, vətənin müdafiəsinə daim hazır olan, yüksək nizam-in-



tizama malik bir quruma çevrilib. “Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır” ifadəsinin müəllifi olan ölkə rəhbəri işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri zamanı bu fikri inkişaf etdirərək söyləmişdir ki, ölkəmizin kifayət qədər güclü iqtisadi potensialı və maliyyə resursları qələbənin əldə edilməsində xüsusi rol oynamışdır.

Həqiqətən də, cəmi 44 gün davam edən döyüşlər ordumuzun əldə etdiyi tarixi qələbənin heç də təsadüfi olmadığına, ölkə rəhbərliyinin həyata keçirdiyi inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi olduğuna sübutdur. Bu müddət ərzində Azərbaycan Silahlı Qüvvələri müasir standartlar səviyyəsinə yüksələrək dünyanın ən güclü 50 ordusundan biri olub. Bu istiqamətdə böyük uzaqgörənlik nümayiş etdirən Prezident İlham Əliyev 2003-cü ildən bəri ölkə büdcəsində müdafiə xərclərinin 15 dəfə artırılaraq 4 milyard manata yaxın bir səviyyəyə qalxmasını təmin edib ki, bu da Ermənistanın hərbi büdcəsindən qat-qat çoxdur.

Ölkəmizdə müasir hərbi-sənaye kompleksinin formalaşması və qısa zaman ərzində 20-dən çox hərbi zavodun işə salınması Azərbaycanın öz daxili imkanları hesabına arsenalını formalaşdırmaq üçün əhəmiyyətli baza rolunu oynayır. Dünyanın aparıcı silah ixracatçılarından ən müasir silahların alınması və bu sahədə də şaxələndirilmiş siyasətin verdiyi dividentlər əldə edilmiş qələbəni təmin edən mühüm faktordur. Bu, həm də siyasi amil olaraq digər dövlətləri və beynəlxalq gücləri qüdrətli Azərbaycanla hesablaşmağa sövq edir.

Ordumuzun qələbələri məhz dövlət başçısının apardığı uzaqgörən siyasət və islahatlarla bağlıdır. Son illər dünyada baş verən mürəkkəb siyasi kataklizmlər və hərbi münaqişələr fonunda Azərbaycan nəinki öz ordusunu gücləndirdi, həmçinin dünyada olan hərbi güclərin bir araya gəldiyi məkana çevrildi. 2017-2018-ci illərdə Bakıda ABŞ, NATO və Rusiya yüksək vəzifəli hərbi rəhbərlərinin bir araya gəlməsi, üçüncü dəfə 2019-cu ildə müdafiə rəhbərlərinin Avropada təhlükəsizlik məsələləri ilə bağlı Bakıda müəyyən razılıq əldə etməsi bir daha Azərbaycanın nəinki Cənubi Qafqazda, həmçinin Avropa məkanında təhlükəsizliyə böyük töhfə



inamını, qürur və fəxarətini qat-qat artırdı. Qələbənin əldə olunmasında bu qurumların hər birinin böyük rolu var. Müdafiə Nazirliyini, Dövlət Sərhəd Xidmətini, Daxili İşlər Nazirliyini təmsil edən qoşunlarımız bu müharibədə böyük qəhrəmanlıq göstərdilər. Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin bölmələri öz vəzifələrini uğurla yerinə yetirərək qələbəyə əvəzsiz töhfələrini verdilər.

Məmnunluq doğuran faktdır ki, qələbənin əldə olunmasında əməyi olan heç kim diqqətdən kənarda qalmamış, olkə Prezidentinin müvafiq sərəncamları əsasında bütün şəhidlərimiz (ölümündən sonra), habelə yüzlərlə əsgər və zabitlərimiz, həmçinin arxa cəbhədə fədakarlıqla çalışan mülki şəxslər bu qələbə münasibəti ilə təsis edilmiş yeni orden və medallara, fəxri adlara, daha yüksək hərbi rütbələrə və digər mükafatlara layiq görülmüşlər.

Zəfər paradının diqqət çəkən əsas məqamlarından biri də Prezident Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə Türkiyə nümayəndə heyətinin iştirakı və türk əsgərlərinin nümunəvi keçidi oldu ki, bunun da böyük siyasi və rəmzi mənası var idi. Bu, Türkiyə-Azərbaycan birliyinin yeni bir təqdimatı idi. Bütün dünya bir daha gördü ki, Azərbaycan və Türkiyə bundan sonra da bütün məsələlərdə bir-birinin yanında olacaqlar. Qardaş Türkiyə hərbçilərinin paraddan keçidi bütün xalqımız tərəfindən dərin coşqu və qürurla qarşılandı. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı Vətən müharibəsindəki qələbə ruhu üzərində daha da möhkəmləndi, daha sarsılmaz oldu.

Qardaş Türkiyə xalqının lideri də  geniş məzmunlu, qardaşlıq, birlik bağlarımıza əsaslanan çıxışında vurğuladı ki: “Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə Ulu öndər Heydər Əliyevin “iki dövlət, bir millət” şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik”.

Zəfər paradını izlədikdən sonra ölkələrimiz arasında müxtəlif sahələrə dair bir sıra mühüm sənədlərin imzalanması isə Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlığın əbədi olacağının daha bir əyani təzahürü idi.

Azərbaycan xalqı möhtəşəm Zəfər paradını keçirərkən Ermənistan hələ də daxili çaxnaşmalarla, etiraz mitinqləri ilə çalxalanırdı. Hadisələrin gedişatı göstərir ki, müharibədəki acı məğlubiyyət faktiki olaraq Ermənistanın və onun havadarlarının onilliklər boyunca yürütdükləri təcavüzkar siyasətin süqutuna gətirib çıxarmışdır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev qələbə bəyanatını fəxrlə, Ermənistanın baş naziri Nikol Paşinyan isə gizli şəkildə imzaladı. İndi Azərbaycan xalqı qüdrətli sərkərdə və müdrik lider İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşib bayram tədbirlərini keçirir, ermənilər isə Paşinyanın istefasını tələb edir. Məhz bu fərqli yaşananlar qalib Azərbaycanın üstünlüklərinin, məğlub Ermənistanın məhvinin aydın mənzərəsini təqdim edir.

Bu parad əvvəlkilərdən fərqli idi. Azadlıq meydanında təkcə Cənubi Qafqazın ən qüdrətli, modern, güclü ordusu deyil, həm də 27 il işğal altında olan tarixi torpaqlarını azad edən müzəffər bir ordu təqdim olundu. Məhz buna görə də bu hərbi parad “Zəfər paradı” adlanır. İndiyədək keçirilən təntənəli hərbi paradlar ölkəmizin müdafiə qüdrətini və xüsusən son dövrlər daha da vüsət alan hərbi modern-

**44 gün davam edən Vətən müharibəsində ordumuzun əldə etdiyi tarixi qələbə ölkə rəhbərliyinin həyata keçirdiyi inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsidir.**

verən bir ölkə kimi artan nüfuzundan və onun sülhsevər siyasətindən xəbər verir.

Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərinin, hərbi birləşmə və hərbi tədris müəssisələrinin şəxsi heyətlərinin, hərbi texnikaların iştirak etdiyi Zəfər paradında ölkə ictimaiyyəti bir daha dövlətimizin hərbi gücünün, ordumuzun döyüş və qələbə əzminin əyani şahidi oldu. Hərbi gücün nümayiş etdirildiyi parad hər bir azərbaycanlının öz ordusunun qüdrətinə olan

ləşmənin uğurla həyata keçirildiyini göstərmişdi. Zəfər paradı isə döyüşlərdən qalib çıxmış, düşməni dəmir yumruqla əzmiş əsgərlərimizin, zabitlərimizin, gizirlərimizin qalibiyyət yürüşü idi. Bu, hər bir azərbaycanlının sevincinin, səbirsizliklə gözlədiyi qələbəmizin paradı idi. Prezident İlham Əliyevin dediyi kimi: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir".

Hələ bir neçə ay əvvəl Ermənistanın məğlub olaraq vəzifəsindən istefa verən keçmiş müdafiə naziri D.Tonoyan Azərbaycanı işğalla hədələyirdi. Düşmən təbliğatı müharibə başlayacağı təqdirdə erməni tanklarının Bakıya gələcəyindən dəm vururdu. Bəli, erməni tankları Bakıya gəldilər, amma məğlub kimi, rəşadətli Azərbaycan Ordusunun hərbi qəniməti kimi.

Bu mənada Azərbaycan Ordusunun Zəfər paradı həm də dünya ermənilјiyinə, Ermənistanın havadarlarına verilən bir ismarıc idi. Artıq sağlam düşüncəli hər kəs anlayır ki, bundan sonra Ermənistanın bir daha Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə cürəti çatmayacaq. Prezident İlham Əliyevin dediyi kimi: "Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

Erməni əsgəri haqq uğrunda savaşan, Şuşanı əlbəyaxa döyüşlə düşmən tapdağından azad edən qəhrəman Azərbaycan əsgərinin döyüş ruhu və vətənpərvərlik hissi qarşısında duruş gətirə bilmədi. Təsadüfi deyil ki, həm də döyüşçülərimizin şücaətindən vahimələnərək depressiyaya düşmüş təcavüzkar Ermənistan ordusunda müharibə dövründə 10 mindən çox fərari olub.

Bu, bir reallıqdır ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, həm də diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Məhz onun rəhbərliyi altında uzun illər ərzində davam etdirilən diplomatik mübarizə hərbi uğurumuzu möhkəmlədən əsas amillərdən biridir və qələbənin əldə olunmasında bu işin səmərəsi şəksizdir.

Məqsədyönlü səylər nəticəsində bütün beynəlxalq tədbirlərdə və platformalarda Azərbaycan həqiqətlərini çatdırmaq istiqamətində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat verildi, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya anladı ki, Qarabağ əzəli tarixi torpağımızdır, Qarabağ - Azərbaycandır! Bununla bağlı cənab İlham Əliyev paraddakı çıxışında bu məsələyə də xüsusi diqqət ayırmışdır: "Baxmayaraq ki, biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə, münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır".

**Müasir tariximizə qızıl hərflərlə yazılan bu misilsiz hərbi nailiyyət haqqında hələ yüz illər sonra da iftixarla danışılacaq, yazılacaq, bu unudulmaz müjdə gələcək nəsillərə ərməğan kimi ötürüləcək.**

Bu qələbənin digər mühüm tərəfi Prezident İlham Əliyevin müharibə günlərində nümayiş etdirdiyi yüksək qətiyyət və beynəlxalq təzyiqlərə sinə gərməsi oldu. Haqlı olaraq Azərbaycan ictimaiyyəti İlham Əliyevin qətiyyətini zəfərimizin ən əsas şərtlərindən biri kimi qəbul edir. Döyüşlərin ilk günündən dünya erməniliyi Azərbaycana qarşı təzyiq rıçaqlarını işə saldı, BMT-də qətnamə qəbul etmək istədilər. Hətta Prezidentdən müsahibə alan bəzi xarici kütləvi informasiya vasitələri təxribatçı sualları ilə ermənipərəst dairələrə yarınmaq istədi. Lakin hər bir mərhələdə erməni təəssübkeşləri məğlubiyyətə uğradılar. Prezident İlham Əliyev onların hər birinə siyasət və diplomatiya dərsi keçdi. BMT-də Ermənistanın maraqlarına xidmət edən qətnamənin qəbul olunmasının qarşısı məhz İlham Əliyevin diplomatik müdrikliyi sayəsində alındı. Xarici KİV-in əməkdaşları İlham Əliyevin siyasi və diplomatik cavabları, tutarlı arqumentləri və ensiklopedik tarixi bilgiləri qarşısında heyranlıqlarını gizlədə bilmədilər.

Azərbaycan son 200 illik tarixində itirdiyi torpaqlarını qaytara bilmədiyi bir halda, Prezident, Ali Baş Komandan İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaqgörənliyi, vətəninə və torpağına olan böyük məhəbbəti, güclü ordumuzun, igid əsgər və zabitlərimizin şücaəti sayəsində torpaqlarımız işğaldan azad edildi. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Ordumuza, eləcə də möhkəm iradəli xalqına inanaraq zəfər qazandı. Bu müddət ərzində xalqımız da daim vətən həsrəti, sevgisini ürəyində daşıdı, cənab İlham Əliyevə arxalandı.

Bu qələbənin birinci qəhrəmanı, şübhəsiz, Azərbaycan xalqı və əsgə-

ridir. Cənab İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə müharibə dövründə yaralanmış qazilərə baş çəkməsi, ilk qələbə sevincini məhz onlarla bölüşməsi Azərbaycan Prezidentinin hərbçilərə xüsusi diqqətinin növbəti təcəssümüdür. Əlamətdar haldır ki, Şuşanın azad edilməsi xəbərini Ali Baş Komandan xalqa məhz Şəhidlər xiyabanında çatdırmışdı. Bu xəbəri ilk eşitməyə şəhidlərin haqqı kimi yanaşmışdı. Prezident İlham Əliyevin sərəncamı ilə sentyabrın 27-nin Anım Günü kimi təsis olunması şəhidlərin xatirəsinə göstərilən böyük ehtiramın nümunəsidir.




Dövlət başçısının Zəfər paradında Vətən müharibəsində əldə edilən parlaq qələbədə hərbçilərin qəhrəmanlığını və fədakarlığını xüsusi qeyd etməsi Ali Baş Komandan kimi İlham Əliyevin belə vətənpərvər övladlar yetişdirən xalqa olan dərin hörmətini, həssas və səmimi münasibətini göstərir: "Mən bir daha Azərbaycan xalqının qəhrəmanlığını dilə gətirmək istəyirəm… Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

Bu böyük qələbə Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir", - deyən Prezidentimizə olan etimadı daha da möhkəmləndirdi. Ulu öndərin: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - fikirləri tarixin sınaq süzgəcindən keçərək öz təsdiqini tapdı. Çünki qələbəni al qanı ilə yazmış şəhidlərimizin intiqamının alınması ilə əldə edilən qələbəni Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", - deyən Ulu öndərin arzusunu reallaşdırdı, onun vəsiyyətinə əməl etdi.

Beləliklə, Azərbaycan dövləti bu möhkəm, qırılmaz tellərlə bağlı olan iqtidar-ordu-xalq birliyi ilə, vətəndaş həmrəyliyinin və Böyük Qələbənin rəmzi olan Zəfər paradı ilə həm də Qarabağ probleminin sülhdən başqa həll yolunun olmadığını israr edən beynəlxalq siyasi güclər qarşısında rəsmi olaraq öz müstəqil və əzəmətli sözünü demiş oldu. Biz bütün dünyaya bəyan etdik ki, artıq Azərbaycan xalqının Qarabağ dərdi yoxdur, Şuşa kimi qanayan yarası yoxdur. İllər boyu yurd yerlərindən, ev-eşiklərindən didərgin düşən soydaşlarımız ürəklərini sızladan vətən ağrısına birdəfəlik şəfa tapdılar. Artıq güclü dövlət, bütöv Azərbaycan var.

Hər bir tarixi gün onun mahiyyətinin açıqlanmasında, bu günümüz və gələcəyimiz üçün önəminin düzgün dəyərləndirilməsində ən zəngin mənbədir. Bu baxımdan, illər keçdikcə Zəfər gününün, eyni zamanda, onun sevincini paylaşmaq üçün keçirilən tədbirlərin əhəmiyyəti daha aydın görünəcək. Əminəm ki, müasir tariximizə qızıl hərflərlə yazılan bu misilsiz hərbi nailiyyət haqqında hələ yüz illər sonra da iftixarla danışılacaq, yazılacaq, bu unudulmaz müjdə gələcək nəsillərə ərməğan kimi ötürüləcək.

# Gənclərimiz istər ön cəbhədə, istərsə də arxa cəbhədə böyük qəhrəmanlıqlar göstərdi




**Adil Əliyev**
Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri

2020-ci ilin yay aylarında Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş Ermənistanın Azərbaycana qarşı təxribatları intensivləşməyə başladı. Bu təxribatların miqyasca ciddilərindən ilki - bu ilin iyul ayında Azərbaycanla Ermənistan sərhədinin Tovuz istiqamətində törədilən təxribat onu deməyə əsas verirdi ki, Ermənistan yeni işğalçılıq planı üzərində var gücü ilə işləyir. Sonradan saxlanılan erməni diversant dəstəsinin komandirinin etiraflarına əsasən onların sərhədi pozaraq bu tərəfə keçmələrinin əsas səbəbi ölkəmizdə yeni təxribatların törədilməsi idi.

Bütün göstərilənlər onu deməyə əsas verirdi ki, uzun illər təcavüzkarlıq siyasətini əsas xəttə çevirmiş Ermənistan tərəfi yenə də bu siyasəti fasiləsiz davam etmək niyyətindədir. Hətta Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Assambleyasında çıxış edərək Ermənistanın yeni təxribatlara əl atmasını, habelə uzun illərdir davam edən işğalçılıq siyasətinə son qoymağın zəruriliyini bildirdi. Lakin  Ermənistan qeyd olunanlardan nəticə çıxarmaq əvəzinə, əksinə, öz təcavüzkar fəaliyyətini davam etdirdi.

Ermənistanın Azərbaycana qarşı təxribatlara əl atmasının əsas səbəblərindən biri də mövcud Ermənistan hakimiyyətinin öz ölkəsində olan böhranı, iqtisadi tənəzzülü gizlətmək istəməsi idi.

Ermənistanın sentyabrın 27-də başladığı növbəti təxribatı zamanı da Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. Düşmənin törətdiyi təxribatların qarşısının birdəfəlik alınması, vətən torpaqlarının işğaldan azad edilməsi məqsədi ilə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin "İrəli!" əmri ilə rəşadətli Azərbaycan Ordusu cari il sentyabrın 27-də əks-hücum əməliyyatlarına başladı.

44 gün sürən Vətən müharibəsində daim qələbədən-qələbəyə irəliləyən qoşunlarımızın düşmənin böyük sayda texnikası və şəxsi heyətini məhv etməsi, salamat qalan hərbi texnikanı isə qənimət kimi götürməsi onu deməyə əsas verir ki, Ermənistan bundan sonra da öz istifadəsində olmayan və ya məhv edilmiş texnikaların pulunu uzun müddət ödəməli olacaq. Təbii ki, heç bir Ermənistan vətəndaşı Azərbaycan Ordusunun sərəncamında olan və ya ordumuz tərəfindən məhv edilmiş texnikanın pulunu ödəmək istəmir. Müharibədə verdiyi itkilər isə hələ Ermənistanın uzun müddət özünə gəlməsini mümkünsüz edir.

Şanlı ordumuza qatılan minlərlə gəncimiz döyüş meydanında misli görünməmiş şücaət göstərirdi. Sevindirici məqamlardan biri də ondan ibarətdir ki, ölkə başçısının göstərişinə əsasən qismən səfərbərlik edilməsinə baxmayaraq, hər gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qarşısında uzun növbələr yaranırdı. Ləyaqətli Azərbaycan gəncliyi öz üzərinə düşən şərəfli missiyanın yerinə yetirilməsinə səfərbər olmuşdu. Hətta vəziyyət o yerə çatdı ki, çağırış xidmətinin yerli şöbələri vətəndaşlara müraciət edərək, zərurət yaranarsa, dəvət ediləcəklərini bildirirdilər.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, uzun illər Azərbaycan Respublikasının Prezi-




denti cənab İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilən gənclər siyasəti Vətən müharibəsi dövründə də öz uğurlu faydasını verdi. Gənclərimiz istər ön cəbhədə, istərsə də arxa cəbhədə böyük qəhrəmanlıqlar göstərdi. Bu gənclərimizin ruhu vətənpərvərliklə yoğrulmuşdu, məhz illərlə onlara aşılanan yurd, vətən sevgisi hər bir gəncimizin həyat və fəaliyyətində müstəsna rol oynadı.

Azərbaycan xalqı öz Prezidentinin "Biz birlikdə güclüyük!" şüarını rəhbər tutaraq, Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşdi. Azərbaycan gəncliyi iş yerindən, yaşayış səviyyəsindən, təhsilindən asılı olmayaraq, hamı bir nəfər kimi səfərbər olmuşdu. Belə ki, Milli Ordumuzun hər cür maddi-texniki təminatının yüksək səviyyədə qurulmasına baxmayaraq, bütün ölkə cəbhə üçün səfərbər olmuşdu.

Burada yalnız gənclərimizin göstərdiyi şücaətlərdən başqa, eyni zamanda, gənc qızlarımızın öz cehiz əşyalarını ön xəttə onları qoruyan əsgər qardaşlarına göndərmələri xalqımızın misli görünməmiş qəhrəmanlıq salnaməsidir.

**Ümummilli lider Heydər Əliyevin "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" vəsiyyətini gənclərimiz döyüş meydanında öz fədakarlıqları ilə yerinə yetirirdilər.**

Gənclərimizin və bütün hərbçilərimizin yalnız bir hədəfi var idi, işğal altında qalmış torpaqlarımız düşməndən azad edilsin. Ermənistan münaqişənin həll edilməsinin tarixini uzatmaqla sanki onun unudulmasını istəyirdi, lakin Azərbaycan gəncliyi bu münaqişəni unutmadı, Ermənistanın bizə qarşı törətdiyi qırğınlar, etnik təmizləmə siyasəti, Xocalı soyqırımı və digər hadisələr bütün Azərbaycan xalqına yaxşı bələd idi. Baş verənlərin unudulmağa qoymaması, gənc nəslə Ermənistan hakimiyyətinin törətdikləri qırğınların açıqlanması, eyni zamanda, onların vətənpərvər ruhda tərbiyə edilməsi apardığımız müharibədə mühüm yer tutdu. Müharibədə Azərbaycan Ordusunun əsgər və zabitləri qəhrəmanlıq göstərmək üçün sanki bir-biri ilə yarışırdılar. Onların qəlbində olan vətən sevgisi düşmənə amansız zərbələrin vurulmasını qaçılmaz edir, düşməni bütün cəbhə boyu geri çəkilməyə məcbur edirdi. Düşmən sağ və ya yaralı halda ələ keçirilər-



kən onlara qarşı rəhmli davranırdılar. Bu isə Azərbaycan hərbçisinin döyüş meydanında son damla qanına qədər vuruşmasına baxmayaraq, yaralı və əsir düşənlərə qarşı necə rəhmli olmasını göstərirdi.

Ordudan tərxis olunan gənclərimizin yenidən könüllü olaraq ordu sıralarına qayıtması, xüsusilə gənclərimizin bəzilərinin evdən xəbərsiz könüllü yazılmaları onların qəlbindəki vətən sevgisinin əyani təcəssümüdür. Müharibə dövründə yayılmış bir videoda Həkəri çayında əlini yuyan hərbi qulluqçumuz öz əsgər yoldaşı tərəfindən telefona çəkildiyini görərək onu çəkməməyi xahiş edir. Açıqlaması isə ondan ibarətdir ki, anası onun döyüş bölgəsində yox, Bakı şəhərində ezamiyyətdə olduğunu sanırmış. Yəni gəncimiz öz anasını nigaran qoymamaq üçün ona Bakı şəhərinə getməsini bildirsə də, əslində, döyüşlərin ən qızğın davam etdiyi bölgədə imiş.

Həmçinin döyüş müddətində qəhrəmanlarımızın vətəni qorumaqla, düşmənin işğalına son qoymaqla yanaşı bir-birini fədakarlıqla qoruması, öz döyüş yoldaşlarını təhlükədən çıxarmaqla özlərinin şəhid olması, habelə partlayıcı qurğulara qarşı özlərini sipər etməklə, döyüş yoldaşlarını xilas etməsi tarixin yaddaşında qalacaqdır. Onları döyüş meydanında yalnız bir amal birləşdirirdi, nə olursa olsun, düşmən işğalına birdəfəlik son qoyulsun, ölkəmizin ərazi bütövlüyü tam şəkildə bərpa edilsin. Ümummilli lider Heydər Əliyevin "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" vəsiyyətini gənclərimiz döyüş meydanında öz fədakarlıqları ilə yerinə yetirirdilər.

Habelə gənclərimiz düşmənə qarşı mübarizəni yalnız döyüş meydanında deyil, eyni zamanda, sosial şəbəkələr və kütləvi informasiya vasitələri ilə də aktiv şəkildə həyata keçirirdilər, Azərbaycanın haqlı mübarizəsini və ədalətli müharibəsini dünya ictimaiyyətinin diqqətinə çatdırırdılar. Onlar Ermənistanın mövqeyini birmənalı şəkildə müdafiə edən, yalan, həqiqətə uyğun olmayan, müəyyən maraqlar müqabilində hazırlanmış xəbərlərin qarşısının alınmasında xüsusilə böyük əmək sərf etdilər. Gənclərimizin "Facebook", "Twitter" və digər sosial şəbəkələrdə başlatdıqları kampaniyalar Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, nəticədə milyonlarla insanın baş verən hadisələrin səbəbkarının məhz Ermənistan olması barədə məlumatlandırılmasında mühüm yer tuturdu. Ermə-

nistanın Bərdə, Gəncə, Mingəçevir və digər şəhər və rayonlarımıza təcavüz faktları, qadağan olunmuş silahlardan kütləvi şəkildə istifadə edilməsi barədə məlumatlar geniş auditoriyaya çatdırılırdı.

Müharibə dövründə ölkə başçımızın yerli və xarici kanallara verdiyi müsahibələr zamanı Ermənistanın təcavüzkar siyasətini bir daha dünyanın diqqətinə çatdırmasının fonunda apardığı siyasətə gənclərimiz də öz növbəsində çox ciddi dəstək olurdu. Eyni zamanda, xaricdə yaşayan və ürəyi ölkəmizlə döyünən Azərbaycan gənclərinin baş verənləri daha böyük auditoriyalara çatdırması, ətrafında olanları Ermənistanın təcavüzkar siyasəti barədə məlumatlandırması, düşmənin faşist hakimiyyətinin əsl simasını bir daha göstərməsi və Ermənistanın təkcə ölkəmizə deyil, eyni zamanda, sülhün qarşısında ən ciddi təhdid olması barədə məlumatlandırması düşmənin informasiya cəbhəsində də uduzmasını qaçılmaz etdi.

Artıq müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu tərəfindən həyata keçirilən 44 günlük “Dəmir yumruq” əməliyyatı düşmənin tam məğlubiyyəti ilə başa çatdı. Ermənistan döyüş meydanında çox ciddi itkilər verərək geri çəkilməyə məcbur oldu. Ermənistan ordusu bu müharibədə yalnız böyük canlı qüvvəsini deyil, demək olar ki, bütün silah və texnikasını itirdi. Nəticədə, Ermənistan məğlub tərəf olaraq kapitulyasiya aktını imzalamağa məcbur oldu. Döyüş meydanında qazandığımız qələbələr diplomatik müstəvidə də çox böyük uğurla davam etdirildi. İmzalanmış kapitulyasiya aktının tələblərinə uyğun olaraq, Ermənistan Ağdam, Laçın və Kəlbəcər rayonlarından çıxdı və həmin rayonları Azərbaycana təhvil verdi. Qeyd olunan bu üç rayonun heç bir hərbi əməliyyat keçirilmədən, itki vermədən işğaldan azad edilməsi sevindirici məqamdır.

Müharibə zamanı Azərbaycan gəncliyi öz qarşılarına qoyulmuş bütün vəzifələrin öhdəsindən layiqincə gəldi, özünün milli-mənəvi dəyərlərini, mayasında vətən sevgisinin üstün olduğunu bütün dünyaya nümayiş etdirdi.

Gənclərimizin, hərbi qulluqçularımızın göstərdikləri qəhrəmanlıqlar dövlət tərəfindən yüksək qiymətləndirilir və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlarla göstərdikləri şücaətlərə görə onlara orden və medallar verilir.



Uzun illərdir aparılan gənclər siyasətinin uğurlu nəticəsinin bir daha hamımız əyani şahidi oluruq. Gənclərimizə istər ön cəbhədə, istərsə də arxa cəbhədə göstərdikləri qəhrəmanlıqlara görə Azərbaycan xalqı daim minnətdar olacaqdır. Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması zamanı şəhid olmuş vətəndaşlarımıza Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə isə şəfa diləyirəm.





# Milli Məclisdə Ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilib

Dekabrın 12-də Milli Məclisin inzibati binasının foyesində ucaldılmış Ümummilli lider Heydər Əliyevin abidəsi qarşısında anım mərasimi keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova, Sədrin birinci müavini Əli Hüseynli, Sədr müavinləri Fəzail İbrahimli və Adil Əliyev Ulu öndərin abidəsi önünə əklil qoyaraq Ümummilli liderə dərin ehtiramlarını ifadə ediblər.

Sonra parlamentin komitə sədrləri, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və İşlər İdarəsinin müdiri abidənin qarşısına qızıl güllər düzüb, Ulu öndərin xatirəsini yad edibər.

---

# MDB PAA-nın Şura iclası və 51-ci Plenar iclası keçirilib



Noyabrın 27-də Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurasının iclası və MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının 51-ci plenar iclası keçirilib.

Videokonfrans formatında keçirilən tədbirə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya Federasiyası, Tacikistan, Özbəkistan nümayəndə heyətləri və bir sıra beynəlxalq təşkilatların təmsilçiləri qatılıblar.

İclasda Milli Məclisin Sədri, MDB PAA-da nümayəndə heyətimizin rəhbəri Sahibə Qafarova iştirak edib.

İclasda təşkilatı məsələyə baxılıb, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Sədri Valentina Matviyenko yenidən MDB PAA Şurasının Sədri seçilib.

Sonra iclasda COVID-19 pandemiyası ilə əlaqədar MDB iştirakçısı olan dövlətlərdə qanunvericilik sahəsində görülmüş tədbirlər, Avrasiya məkanında iqtisadi inteqrasiyanın vəziyyəti, perspektivləri və onun normativ hüquqi təminatı, 2021-ci ildə MDB ölkələrinin dövlət orqanlarına keçiriləcək seçkilərin müşahidəsinə hazırlıq, MDB PAA-nın AŞPA ilə əməkdaşlığının istiqamətləri, MDB PAA-nın 2021-ci il üçün fəaliyyət planı, bir sıra təşkilati və maliyyə məsələləri müzakirə olunaraq müvafiq qərarlar qəbul edilib.

# Milli Məclisin Sədri TBMM və AŞPA-nın təşəbbüsü ilə keçirilən beynəlxalq konfransa qatılıb

**Sahibə Qafarova:** “Beynəlxalq ictimaiyyətin səssizliyi və cəza tədbirləri görməməsi Ermənistanın 30 il boyunca işğalı davam etdirməsinə gətirib çıxarmışdır”.

Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisi (TBMM) və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Miqrasiya, Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinin birgə təşəbbüsü ilə 2020-ci il noyabrın 24-də keçirilən “Miqrant uşaqların qorunması və itkin düşən uşaqların xilas edilməsi” adlı beynəlxalq konfransında iştirak edib.

TBMM Sədri cənab Mustafa Şentop və AŞPA Prezidenti Rik Daemsin də qatıldığı konfransda Milli Məclisin Sədri müzakirə edilən mövzunun beynəlxalq ictimaiyyət üçün əhəmiyyətindən və aktuallığından söz açıb. Sahibə Qafarova AŞPA-nın Miqrasiya, Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinə sədrlik etdiyi 2016-2018-ci illərdə də miqrant uşaqların problemlərini diqqət mərkəzində saxladığını, beynəlxalq ictimaiyyətin bu məsələyə daha çox diqqət ayırmasına çalışdığını xatırladıb. Spiker sözügedən problemin ciddiliyini ifadə edən bəzi rəqəmləri tədbir iştirakçılarının diqqətinə çatdıraraq bildirib ki, 2018-ci ilin sonu etibarı ilə qlobal miqyasda 31 milyon uşaq öz doğma yurd-yuvalarından didərgin düşmüş, təkcə 2014-2018-ci illər ərzində 1600 miqrant uşaq həyatını itirmişdir.

Milli Məclisin Sədri daha sonra BMT-nin 2020-ci ilin may ayında açıqladığı hesabatına diqqət çəkib və bildirib ki, təkcə 2019-cu ildə 19 milyon uşaq öz evlərini tərk etmək məcburiyyətində qalmışdır. Bu isə ona gətirib çıxarmışdır ki, bu gün dünyada olan miqrantların 12 faizi uşaqlardır. Başqa sözlə, hər 8 miqrantdan biri uşaqdır: “Bu rəqəmlər qorxuncdur, həyəcan təbili çalır. Son dövrlər COVID-19 pandemiyasının geniş vüsət alması isə vəziyyəti daha da qorxunc etmişdir”.



Spiker Sahibə Qafarova AŞPA və digər beynəlxalq təşkilatların miqrant uşaqlarla bağlı problemə daha çox diqqət ayırmasından məmnun olduğunu ifadə etsə də, vəziyyətin yaxşıya doğru dəyişməməsindən təəssüfləndiyini bildirib. 2017-ci ilin oktyabr ayında “Avropada itkin düşmüş qaçqınlar və miqrant uşaqlar” adlı qətnamə layihəsinə imza atan 22 AŞPA üzvündən birinin özü olduğunu xatırladan spiker bu sahədə görülən işlərin az effektiv olmasının səbəbini “nəticə ilə mübarizə”də gördüyünü diqqətə çatdırıb. Səbəblər isə müharibələr, hərbi münaqişələr, iqlimlə bağlı çağırışlar, yoxsulluq və digər qlobal problemlərdir. Bunlara qarşı isə effektiv mübarizə aparılmır.

Milli Məclis Sədri Azərbaycanın da çoxsaylı qaçqın və məcburi köçkünlərə sahib olan və illər boyunca bu problemdən əziyyət çəkən bir ölkə olduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, 1990-cı illərin əvvəllərində Azərbaycan Ermənistanın işğalçılıq siyasətinə məruz qalmış və nəticədə 1 milyon qaçqın və məcburi köçkünün problemi ilə üzləşmişdir və bu, əhalinin hər 8 nəfərdən 1-nin qaçqın və məcburi köçkün olması deməkdir: “Lakin bütün bunlara baxmayaraq, beynəlxalq ictimaiyyətin səssizliyi və Ermənistanın cəzasız qalması 30 il boyunca - Azərbaycan 44 günlük Vətən müharibəsində öz ərazilərini işğaldan azad edənə qədər -Azərbaycanın 20 faiz torpaqları üzərində Ermənistan işğalının davam etməsi ilə nəticələndi”.

Sahibə Qafarova Suriya, İraq, Liviya, Yəmən kimi ölkələrdə mövcud olan qeyri-sabitliyin və bunun Türkiyə üçün yaratdığı çətinliklərin də beynəlxalq təşkilatların fəaliyyətinin effektsizliyinin nəticəsi olduğunu dilə gətirib. Hazırda Türkiyənin təkcə Suriyadan olan 3,6 milyon qaçqına evsahibliyi etdiyini xatırladan Milli Məclisin Sədri buna görə Türkiyənin ən böyük təşəkkürə layiq olduğunu, lakin beynəlxalq ictimaiyyətin oturub düşünməli olduğunu vurğulayıb.




# MİLLİ MƏCLİSİN İCLASINDA ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVƏ VƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT QƏBUL OLUNUB

Noyabrın 13-də Milli Məclisin payız sessiyasının növbəti iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan xalqı 30 ildən bəri həsrətlə gözlədiyi böyük qələbənin sevincini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində xalqımızın qurtuluş savaşı zəfərlə başa çatmış, işğalçı Ermənistan təslim olmağa məcbur edilmiş və ölkəmizin ərazi bütövlüyü təmin olunmuşdur.

Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Təəssüf ki, müharibə itkisiz olmur. Biz də bu müharibədə itkilər verdik.

İclasda Milli Məclisin Sədrinin təklifi ilə döyüş meydanında, dinc şəhər və kəndlərimizdə şəhid olmuş insanlarımızın xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Sədr Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyib.

Sonra spiker bildirib ki, Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın işğaldan azad edildiyi gün oldu. Sədr Şuşanı, digər şəhər və kəndlərimizi düşməndən təmizləyən əsgər və zabitlərimizin qəhrəmanlığının dillərdə dastan olacağına əminliyini bildirib. O vurğulayıb ki, bu tarixi günlərin bizim üçün ən mühüm nəticələrindən biri də xalqımızın Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi və bütövləşməsi oldu. Azərbaycan xalqının birliyinin rəmzinə çevrilən bu yumruq düşmənə endirilən ağır zərbələrin ifadəsi idi. Çətin sınaq qarşısında Azərbaycan xalqının yenilməz gücə çevrildiyini hər kəs görüb yəqin etdi.

Spiker xatırladıb ki, noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulmuşdur.

Bu bəyanatla ölkəmizin ərazi bütövlüyü təmin ediləcək, məcburi

köçkünlərimiz doğma yurdlarına dönə biləcəklər.

Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpası da milli maraqlarımızın təmin edilməsi baxımından vacib məsələdir.

Sədr bir məqamı da xüsusi qeyd edib ki, bu müharibədə Ermənistan elə ağır zərbə aldı ki, onun özünə gəlməsi üçün uzun illər lazım olacaq və bu gün Yerevanda baş verən antidemokratik proseslərə, qanunsuz əməllərə nə Qərb dövlətlərinin rəhbərləri, nə də onların dırnaqarası "informasiya vasitələri" münasibət bildirmir: "Güman edirəm, hər şey aydındır. Hər kəs öz simasını göstərir. Doğrudan da, möhtərəm Prezidentimizin dediyi kimi, bizə demokratiya dərsi keçməyə çalışanlar əvvəl güzgüdə özlərinə baxsınlar".

Sədr diqqətə çatdırıb ki, erməni vandalları işğal altında saxladıqları ərazilərdə infrastruktur tam sıradan çıxarılmışdır, ancaq cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bütün dağıdılmış yaşayış məntəqələrini bərpa edəcək və Qarabağ sakinləri ata-baba yurdlarında yenidən qurub yaradacaqlar.

Sədr vurğulayıb ki, müharibənin davam etdiyi dövrdə dövlət başçısı nə qədər böyük təzyiqlərə məruz qalsa da, geri çəkilməmiş, ordumuzun zəfər yürüşünü qələbə ilə başa çatdırmağa nail olmuşdur: " Bu isə düşmən üzərində böyük qələbədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nə qədər böyük rol oynadığını bir daha təsdiq edir".

Daha sonra spiker bildirib ki, 6 ay bundan əvvəl onun dəvəti ilə şuşalı gənc qız Əsra Məmmədli bu salonda çıxış etmişdir: "O zaman Şuşa şəhəri işğal altında idi və gənc qızımızın çıxışı da o vaxtın ovqatına uyğun idi. Onun çıxışı yadımdadı ki, hamımızı duyğulandırdı və böyük təsir bağışladı. Mən bu gün yenə də Əsra Məmmədlini bu zala dəvət etmək istəyirəm. Düşünürəm ki, onun nə hiss etdiklərini dinləmək maraqlı olar.

İclasda çıxış edən şuşalı Əsra Məmmədli bildirib ki, bir neçə ay əvvəl burada çıxış edərkən təsəvvür belə etməzdi ki, vətənə qovuşmaq və Şuşanı görmək bu qədər yaxın olacaq. Artıq işğala son qoyuldu. Azərbaycan əsgəri, Azərbaycan xalqı qanı və canı bahasına öz torpağına sahib çıxdı. Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla müzəffər Azərbaycan Ordusu bizi doğma torpaqlarımıza qovuşdurdu. Bizim ailəmiz babalarımın evinə qayıdır.

Əsra Məmmədlinin çıxışı alqışlarla qarşılanıb. Sədr bildirib ki, Əsranın sözləri bütün millət vəkillərinin fikirlərini əhatə edir.

Sonra Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin böyük qələbə münasibəti ilə hazırladığı videoçarx nümayiş etdirilib.

Daha sonra Sədrin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin mətninin hazırlanması üçün Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynlinin başçılığı ilə komissiya yaradılıb. Komissiyaya Milli Məclisin deputatları Nizami Cəfərov, Tural Gəncəliyev, Nigar Arpadarai və Erkin Qədirli daxil edilib.

İclasda Milli Məclisin deputatları böyük qələbə münasibəti ilə ürək sözlərini bildiriblər. Qeyd ediblər ki, bu qələbə daxili həmrəyliyimizin, milli birliyimizin və Ali Baş Komandanımızın dediyi kimi, yumruq kimi birləşməyimizin parlaq nəticəsi oldu. 44 gün davam edən müharibədə Prezident İlham Əliyev Azərbaycanın haqqını ən yüksək səviyyədə qorudu və qəbul etdirdi.



Sonra Milli Məclisin deputatı Nigar Arpadarai Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin mətnini oxuyub.

Müraciət alqışlarla qarşılanıb və səsə qoyularaq təsdiqlənib. Bununla da Milli Məclisin iclası başa çatıb.

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**



Dekabrın 7-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İtaliya parlamentinin Deputatlar Palatası Sədrinin müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Spiker bildirib ki, yaxın dost və strateji tərəfdaş olan Azərbaycan və İtaliya arasında əlaqələrin bu səviyyəyə çatmasında ölkə prezidentlərinin qarşılıqlı səfərləri, aparılan danışıqlar əhəmiyyətli rol oynayıb və ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin möhkəm hüquqi bazasını təşkil edir.

Sədr qeyd edib ki, siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrimiz yüksələn xətlə inkişaf etməkdədir. Bildirilib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun  xoşməramlı səfiri kimi İtaliyada həyata keçirdiyi layihələr geniş ictimaiyyətə yaxşı məlumdur.

Söhbətdə Sədr deyib ki, münasibətlərimizin inkişafında parlamentlər yaxından iştirak edirlər. Son illər Milli Məclislə İtaliya parlamentinin hər iki palatası arasında sıx əməkdaşlıq yaranıb. Spiker qonaqların ölkəmizə səfərləri çərçivəsində Azərbaycanın Gəncə və Ağdam şəhərlərinə getmələrini, Ermənistan tərəfindən törədilən hərbi cinayətlərlə yaxından tanış olmalarını yüksək qiymətləndirib.

Öz növbəsində İtaliya Deputatlar Palatası Sədrinin müavini Ettore Rosato Azərbaycanın dostu kimi bölgə həqiqətlərini, burada gördüklərini İtaliya və dünya ictimaiyyətinə çatdırmaq üçün səylərini əsirgəməyəcəklərini söyləyib. Ettore Rosato vurğulayıb ki, onlar Avropa institutlarında Azərbaycanın mövqeyinin güclənməsinə hərtərəfli dəstək verəcəklər.

Görüşdə çıxış edən İtaliya Deputatlar Palatasının üzvü, İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının rəhbəri Rossana Boldi, italiyalı senatorlar Maria Rizzotti, Adolfo Urso, Deputatlar Palatasının üzvü Pino Kabras, Milli Məclisin İtaliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli hər iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin inkişaf perspektivləri, digər sahələrdə münasibətlərin daha da dərinləşməsi barədə öz fikirlərini bölüşüblər.

Noyabrın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova TÜRKPA-nın baş katibi Altınbek Mamayusupov, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə görüşüb.

Spiker qonaqları salamlayıb, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi qələbə haqqında məlumat verərək deyib ki, bu qələbə nəticəsində torpaqlarımız işğaldan azad olundu. Spikerin sözlərinə görə, bu zəfər tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq.

Sədr Sahibə Qafarova qeyd edib ki, qonaqların rəhbərlik etdiyi qurumlar bu gün türk dünyası ölkələri arasında əlaqələrin möhkəmlənməsi işinə böyük töhfələr verir. TÜRKPA bu istiqamətdə parlament əməkdaşlığının genişləndirilməsində əhəmiyyətli rol oynayır. Hazırda bu təşkilata sədrliyi Azərbaycan Milli Məclisi həyata keçirir. Qurumun sədri kimi biz Milli Məclis olaraq TÜRKPA-nın fəaliyyətinə lazımi dəstəyi bundan sonra da göstərmək niyyətindəyik. Çünki bu qurum təşkilata üzv ölkələrin xalqları arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmlənməsində böyük rola malikdir.

Görüşdə Sədr Türk Akademiyasının fəaliyyətindən söz açaraq qurumun türk dünyasında müxtəlif sahələr üzrə apardığı tədqiqatları, görülən işləri, əldə edilən uğurlu nəticələri təqdir edib.

Spiker Türk Mədəniyyəti və İrsi Fondu haqqında da danışaraq bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış bu qurum türk xalqlarının mədəniyyətinin və irsinin qorunması, öyrənilməsi və təbliğində əhəmiyyətli rol oynayır.

Görüşdə çıxış edən Altınbek Mamayusupov, Darxan Kıdırəli, Günay Əfəndiyeva Milli Məclisin Sədrini, Azərbaycan xalqını Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun Vətən müharibəsində əldə etdiyi möhtəşəm zəfər və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması münasibəti ilə təbrik ediblər.

Sonra qonaqlar təmsil etdikləri təşkilatların fəaliyyəti və gələcək planları haqqında məlumat verərək, işğaldan azad olunmuş Azərbaycan torpaqlarında, o cümlədən Şuşada beynəlxalq səviyyəli tədbirlər keçirmək niyyətində olduqlarını söyləyərək, bu məsələ ilə əlaqədar fikirlərini bölüşüblər.

Noyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri Salima Abdelhak ilə görüşüb.

Spiker ölkəmizin dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi Əlcəzairlə əlaqələrin inkişafına Azərbaycanın böyük önəm verdiyini bildirib. Sədr bu görüşün Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyi bir vaxtda gerçəkləşdiyini diqqətə çatdırıb və qarşı tərəfə erməni işğalçılarına qarşı mübarizədə tutduğu mövqeyə görə öz minnətdarlığını bildirib.

Sahibə Qafarova qeyd edib ki, ortaq maraqların olduğu beynəlxalq və regional məsələlərin həllində, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığımız davam etdirilir. Siyasi dialoqun inkişafı həyatın digər sahələrinə də öz təsirini göstərir və parlamentlər səviyyəsində də müsbət inkişaf dinamikası mövcuddur.

Səmimi qəbul üçün minnətdarlığını bildirən səfir Salima Abdelhak ölkəsinin Azərbaycanla siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələrin inkişafında maraqlı olduğunu söyləyib. O qeyd edib ki, parlamentlər səviyyəsində münasibətlərin dərinləşməsi deputatlar tərəfindən müxtəlif platformalarda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir.

Noyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Fransa parlamentinin Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamberin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Sədr bildirib ki, əlaqələrin qurulmasında Ulu öndər Heydər Əliyevin böyük xidmətləri olub. Bu siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva əlaqələrimizin hərtərəfli inkişafına böyük töhfələr verib, vaxtı ilə Milli Məclisdə Fransa ilə dostluq qrupunun sədri kimi parlamentlərarası münasibətlərimizin dərinləşməsində mühüm rol oynayıb. Təsadüfi deyil ki, məhz bu sahədəki fəaliyyətinə görə Mehriban xanım Əliyeva Fransa Respublikasının “Şərəf Legionunun Zabiti” dövlət ordeni ilə təltif edilib.

Azərbaycanın erməni işğalçılara qarşı apardığı Vətən müharibəsindən söz açan spiker bildirib ki, Ermənistanın cari ilin sentyabrın 27-də törətdiyi növbəti təxribatından sonra Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb və nəticədə öz ərazi bütövlüyünü bərpa edib. Sədr təəssüf hissi ilə qeyd edib ki, müxtəlif səviyyələrdə əlaqələrimizin mövcudluğuna baxmayaraq, Fransa tərəfi, o cümlədən parlamentin Azərbaycanla dostluq qrupunun sədri bu məsələdə Azərbaycanın haqlı mövqeyinə dəstək ifadə etməyib.

Spiker nümayəndə heyəti üzvlərinin ölkəmizə səfəri zamanı keçirilən görüşlərdə söylənən fikirlərin Fransa Milli Assambleyasında səsləndiriləcəyinə inamını bildirib.

Fransa-Azərbaycan dostluq qrupunun vitse-prezidenti Jerom Lamber qeyd edib ki, ölkəmizə dost kimi səfər ediblər və müstəqil Azərbaycanın fransalı dostları Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinə sevinirlər.

Qonaq parlamentlər səviyyəsində münasibətlərin bundan sonra da inkişaf etdirilməsini önəmli hesab etdiyini və bu əlaqələrə mühüm əhəmiyyət verdiyini vurğulayıb. Bildirilib ki, dostluq qrupunun üzvləri burada gördüklərini və Azərbaycan tərəfinin fikirlərini Fransa ictimaiyyətinə və öz həmkarlarına çatdıracaqlar.

Görüşdə çıxış edən Fransa-Azərbaycan dostluq qrupunun üzvləri parlamentlərarası əlaqələrin inkişafı, Cənubi Qafqazda baş verən proseslərlə bağlı fikirlərini bölüşüblər.

Noyabrın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova Çex Respublikasının ölkəmizdəki səfiri Milan Ekert ilə görüşüb. Görüşdə Sədr bildirib ki, Azərbaycanla Çexiya arasında siyasi və iqtisadi münasibətlərin yüksək səviyyəyə çatmasında dövlət və hökumət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin rolu böyükdür. Qeyd edilib ki, Çexiya da Avropa İttifaqı ölkələri arasında enerji sahəsində əməkdaşlıq üzrə Azərbaycanın əsas tərəfdaşlarından biridir. Vurğulanıb ki, rabitə, ticarət, nəqliyyat, tikinti, maşınqayırma, elektronika kimi sahələrdə də qarşılıqlı-faydalı əməkdaşlıq üçün geniş imkanlar var.

Spiker bildirib ki, iki ölkənin qanunverici orqanları arasında da müsbət münasibətlər mövcuddur. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, deputatlarımızın nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşləri

təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir.

Söhbətdə Azərbaycanın öz ərazi bütövlüyünün bərpası üçün apardığı Vətən müharibəsindən danışan Milli Məclisin Sədri səfirə cəbhədəki son vəziyyət, həmçinin Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı törətdiyi təcavüz aktları haqqında məlumat verib.

Çex Respublikasının ölkəmizdəki səfiri Milan Ekert Çexiyanın respublikamızla əməkdaşlığın inkişafına böyük önəm verdiyini söyləyərək deyib ki, Azərbaycan Çexiya üçün vacib strateji tərəfdaşdır.

Söhbətdə parlamentlərarası əlaqələrin inkişafı, regional münaqişələrin həlli yolları, COVID-19 pandemiyasına qarşı mübarizə ilə bağlı məsələlər və tərəfləri maraqlandıran digər mövzularda fikir mübadiləsi aparılıb.

Noyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Latviya Respublikasının ölkəmizdəki səfiri Daynis Qarançs ilə görüşüb. Sədr qeyd edib ki, hər iki ölkə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ikitərəfli münasibətlərimizin tarixində yeni bir dövr başlayıb; siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığımızın uğurlu inkişafı yoluna qədəm qoyulub.

Əlaqələrimizin inkişafında dövlət başçılarının rolundan danışan spiker ölkə liderlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini xüsusi qeyd edib.

Görüşdə Sədr hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulayıb, millət vəkillərinin qarşılıqlı səfərlərinin pandemiyadan sonra da davam etdirilməsinin təcrübə və informasiya mübadiləsi baxımından vacibliyini qeyd edib.

Söhbətdə səfir bildirib ki, Cənubi Qafqazın bu bölgəsində baş verən proseslər onların da diqqət mərkəzindədir. O, regional münaqişələrin həllində beynəlxalq hüququn norma və prinsiplərinə əməl olunması barədə öz dövlətinin mövqeyini bir daha səsləndirib.

Noyabrın 4-də Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Quo Minlə görüşüb. Sədr bildirib ki, Azərbaycan dost Çin Xalq Respublikası ilə müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinə böyük önəm verir.

İki ölkə arasında münasibətlərin inkişafında dövlət başçılarının rolundan danışan Milli Məclisin Sədri ölkə liderlərinin qarşılıqlı səfərlərini xüsusi olaraq vurğulayıb. Spiker ölkələrimiz arasında bu günə qədər 81 sənədin imzalandığını və bu sənədlərin əlaqələrimizin gələcək inkişafı üçün etibarlı hüquqi əsas formalaşdırdığını diqqətə çatdırıb. Sədr həmçinin qeyd edib ki, Azərbaycanda 100-dən çox Çin şirkəti qeydiyyatdan keçib və uğurla fəaliyyət göstərir.

Milli Məclisin Sədri bildirib ki, ölkələrimizin ali qanunvericilik orqanları arasında münasibətlər yüksək səviyyədədir və bu münasibətlərin inkişafında parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rolu böyükdür. Sədr iki ölkə parlamentlərinin deputatlarının beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirib, pandemiyadan sonra qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Söhbət zamanı Sahibə Qafarova Azərbaycan torpaqlarının Ermənistanın işğalından qurtarılması uğrunda aparılan Vətən müharibəsindən danışaraq cəbhə bölgəsindəki vəziyyət haqqında ətraflı məlumat verib.

Öz növbəsində Çinin Azərbaycandakı səfiri xanım Quo Min iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün parlamentlərarası əlaqələrin xüsusi rolunu qeyd edib. Bildirib ki, Çin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ən qısa müddətdə həllinə, regionda sülhün və sabitliyin bərqərar olunmasına ümid edir.

Noyabrın 3-də Milli Məclisin Sədri Sahibə Qafarova Qətərin ölkəmizdəki səfiri Feysəl Bin Abdullah Əl-Hinzabla görüşüb. Sədr vurğulayıb ki, Azərbaycan dost Qətər dövləti ilə müxtəlif sahələrdə əlaqələrin inkişafına böyük önəm verir. Dövlət başçılarımızın qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar və ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin möhkəm hüquqi bazasını təşkil edir. Qeyd olunub ki, bugünədək iki ölkə arasında 32 sənəd imzalanıb. Azərbaycanla Qətər arasında mövcud siyasi dialoq iqtisadi münasibətlərimizə də öz müsbət təsirini göstərir.

Milli Məclisin Sədri deyib ki, ölkələrimizin ali qanunvericilik orqanları arasında xoş münasibətlər mövcuddur. Bu gün Milli Məclisdə Qətərlə parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Deputatlarımız nüfuzlu beynəlxalq parlament təşkilatlarında fəal iştirak edir, mühüm məsələlərin müzakirəsində bir-birilərinə dəstəklərini əsirgəmirlər.

Görüşdə spiker Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin düşmən əsarətindən azad edilməsi üçün aparılan əks-hücum əməliyyatlarından söz açaraq, cəbhə bölgəsindəki mövcud durumdan danışıb.

Səfir Feysəl Bin Abdullah Əl-Hinzab ölkəsinin Qafqazın bu bölgəsinə böyük maraq göstərdiyini söyləyib. Bildirilib ki, yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri zamanı aparılan danışıqlar münasibətlərimizin daha da dərinləşməsi üçün yaxşı zəmin yaradıb.

Qonaq parlamentlər səviyyəsində əməkdaşlığın daha da dərinləşdi-

rilməsinin dostluq və strateji tərəfdaşlıq münasibətlərimizin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib. Bildirilib ki, Qətər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində və digər prinsipial məsələlərdə dost və qardaş Azərbaycanın mövqeyini dəstəkləyir.

Noyabrın 2-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının keçmiş Baş naziri, Türkiyə Böyük Millət Məclisinin sabiq sədri, millət vəkili Binali Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Sədr ölkəmiz üçün belə həssas bir dönəmdə Azərbaycana səfər etdikləri üçün nümayəndə heyətinin hər bir üzvünə öz dərin təşəkkürünü bildirib. Qeyd edilib ki, bir millət, iki dövlət kimi ölkələrimiz arasındakı münasibətlərin dünyada bənzəri yoxdur. Dilimiz, dinimiz, mədəniyyətimiz, bölüşdüyümüz dəyərlər, o cümlədən uğurlarımız və kədərlərimiz də birdir.

Görüşdə Milli Məclisin Sədri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində sentyabrın 27-də Ermənistanın növbəti təxribatından sonra həyata keçirilən əks-hücum əməliyyatları barədə söz açıb. Spiker qeyd edib ki, torpaqlarımızın 20%-ni 30 il işğal altında saxlayan Ermənistan bu illər ərzində münaqişə ilə bağlı BMT-nin qətnamələrini, nüfuzlu beynəlxalq qurumların qərarlarını yerinə yetirməkdən boyun qaçırıb. Problemin həlli ilə məşğul olan Minsk qrupunun fəaliyyəti isə heç bir nəticə verməyib. İndi Azərbaycan öz torpaqlarını özü işğalçılardan azad edir. Biz bu məsələdə göstərdiyi siyasi və mənəvi dəstəyə görə qardaş Türkiyənin hökumətinə və xalqına təşəkkür edirik.

Sədr dövlətlərarası münasibətlərdə parlamentlərin rolunu vurğulayaraq, hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin; deputatların qarşılıqlı səfərlərinin, beynəlxalq təşkilatlarda əməkdaşlığının ümumi məqsədlərə xidmət etdiyini söyləyib.



Sahibə Qafarova bildirib ki, təkcə siyasi deyil, iqtisadi sahədə də əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Bugünədək ölkələrimiz arasında 249 sənəd imzalanıb. Ötən il Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcmi 4,5 milyard ABŞ dolları həcmində olub. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, cari ilin 8 ayında bu göstərici 3 milyard dollara çatıb.

Spiker həmçinin qeyd edib ki, bu gün Azərbaycan və Türkiyə bölgədə qlobal layihələrin həyata keçirilməsini təmin edən dövlətlərdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi enerji, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri dövlətlərimizin birgə iradəsinin məhsuludur.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Türkiyə Böyük Millət Məclisinin sabiq sədri, millət vəkili Binali Yıldırım ölkəmizə növbəti səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. O, Azərbaycanın öz ərazilərini azad etmək üçün erməni işğalçılarına qarşı apardığı mübarizədə xalqımıza dəstək vermək üçün respublikamıza səfər etdiklərini qeyd edib. Qonaq vurğulayıb ki, problemlə əlaqədar BMT-nin qəbul etdiyi qətnamələr uzun illər ərzində yerinə yetirilmədiyindən bu gün müstəqil Azərbaycan "öz işini özü görür". Azərbaycanın bu haqlı mübarizəsində 83 milyonluq Türkiyə xalqı öz qardaşının yanındadır.

Binali Yıldırım Türkiyə parlamentində təmsil olunan 4 partiyanın Azərbaycana birmənalı dəstək verdiyini, TBMM-in Sədri Mustafa Şentopun ölkəmizə və Gəncəyə səfərinin məhz Azərbaycana dəstək baxımından önəmli olduğunu vurğulayıb. O qeyd edib ki, Türkiyənin yüksək rəsmilərinin ölkəmizə səfərləri yaxın günlərdə də davam edəcək.

Görüşdə Türkiyə ilə dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, deputat Məlahət İbrahimqızı, TBMM-in Azərbaycanla dostluq qrupunun başçısı Şamil Ayrım, türkiyəli millət vəkili Cəlal Adan, Türkiyə nümayəndə heyətinin üzvü Gürşad Zorlu çıxış edərək Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin bu günü və gələcək inkişaf perspektivləri barədə fikirlərini səsləndiriblər.



*Xalqımızın Ümummilli lideri Heydər Əliyevin dünyasını dəyişməsindən 17 il ötdü. Azərbaycan xalqı Ulu öndərin unudulmaz xatirəsini dərin hüznlə, eyni zamanda, minnətdarlıq hissi ilə yad etdi. Ümummilli lider Heydər Əliyev 30 ildən artıq müddətdə respublikaya rəhbərlik etməklə yanaşı, müasir Azərbaycan dövlətinin qurucusu və memarı kimi yaddaşlara həkk olunmuşdur.*

1920-ci il aprelin 28-də bolşevik qoşunları tərəfindən işğal edilən Azərbaycan müstəqil respublika statusu ilə keçmiş Sovet İttifaqının tərkibinə daxil edilsə də, Moskvadan idarə olunan ölkə kimi fəaliyyət göstərirdi.

Sovet İttifaqının tərkibində olduğu illərdə Kreml rəhbərləri Azərbaycanı Rusiyanın ucqar bir əyaləti kimi saxlamağa çalışmış, neft-qaz sahəsi istisna olmaqla sənayenin digər sahələrinin inkişafına imkan verməmiş, ondan Rusiyanın mərkəzi şəhərlərini meyvə-tərəvəzlə təmin edən aqrar respublika kimi istifadə etmişlər.

Yalnız 1969-cu ildə Heydər Əliyev birinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələndən sonra müstəqil siyasət yürütmək istiqamətində addımlar atılmağa başlandı. Heydər Əliyevin əzmi, siyasi iradəsi o dövrün stereotiplərini qırmasına, Kremlin respublika liderinin istəkləri ilə hesablaşmasına səbəb oldu. Sənayenin müxtəlif sahələrinin təməli qoyuldu, aqrar sahə yüksək sürətlə inkişaf etməyə başladı. İqtisadiyyatda əldə olunan uğurlara görə respublikamız ardıcıl olaraq 14 dəfə keçici "Qırmızı Bayraq" ordeni ilə təltif edildi. Heydər Əliyevin korrupsiyaya qarşı açdığı savaş bütün sovet respublikaları üçün örnək oldu. Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunması, çox sayda gənclərin başqa respublikaların ali təhsil müəssisələrində təhsil almağa göndərilməsi, ölkəmizdə hərbi məktəbin yaradılması və digərləri gələcək müstəqilliyə hesablanan addımlar idi.

Heydər Əliyevin rəhbərlik istedadı, təşkilatçılıq bacarığı diqqətdən yayınmadı və o, 1982-ci ildə Moskvaya dəvət olunaraq nəhəng imperiyanın rəhbərlərindən biri oldu, SSRİ-nin ən yüksək siyasi orqanı olan Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, eyni za-

# Ulu öndəri xatırlayarkən

manda, Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olundu. Bu vəzifələrdə Heydər Əliyev öz parlaq istedadını, idarəetmə qabiliyyətini əzmlə nümayiş etdirdi, xalqın dərin rəğbətini qazandı.

Lakin onun nüfuzunun get-gedə artması Kreml funksionerlərini narahat edirdi. Xüsusən 1985-ci ildə hakimiyyətə gələn Mixail Qorbaçov Heydər Əliyevi özünün əsas rəqibi kimi görürdü və hər vəchlə onu vəzifədən uzaqlaşdırmağa çalışırdı. Qorbaçovun intriqalarını qəbul etməyən Heydər Əliyev 1987-ci ildə həm Siyasi Büro üzvlüyündən, həm də Nazirlər Sovetindəki vəzifəsindən istefa verdi.

Moskvada çalışdığı illərdə də Heydər Əliyev heç vaxt Azərbaycanı diqqətdən kənarda qoymamış, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdi. Xüsusən Ermənistan rəhbərlərinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək kimi məkrli niyyətlərinin qarşısında daim sipər olmuş, onların dəfələrlə etdiyi müraciətlərə sərt şəkildə rədd cavabları verilməsinə nail olmuşdur.

Heydər Əliyevin istefasından sonra ermənilərin əl-qolu açıldı, Kreml rəhbərləri onların separatçılıq meyillərinin qarşısını almaq əvəzinə hərəkətlərinə göz yumdular və bununla da həm Azərbaycan, həm də Ermənistan üçün fəlakətlərə səbəb olan hadisələrə rəvac verdilər. SSRİ rəhbərlərinin hadisələrə seyrçi münasibəti və qətiyyətsizliyi ölkəmizin müstəqilliyi yolunda milli-azadlıq hərəkatının genişlənməsinə səbəb oldu, lakin qanlı imperiya öz çirkin xislətini göstərməkdən, dinc nümayişçilərə qarşı qoşun yeridərək qırğın törətməkdən çəkinmədi. 1990-cı il yanvarın 20-də Bakıya və digər şəhərlərə yeridilən sovet qoşunları 600-dən artıq əliyalın dinc insanın ölümünə, yüzlərlə insanın yaralanmasına və itkin düşməsinə səbəb oldu.

20 Yanvar hadisələri zamanı Heydər Əliyev öz xalqı ilə birlikdə olduğunu bir daha nümayiş etdirdi. O, özünün və oğlu İlhamın həyatı ilə risk edərək onunla birlikdə qırğının səhəri günü Azərbaycanın Moskvadakı səfirliyinə gəldi, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə geniş mətbuat konfransı keçirərək sovet rəhbərlərinin hərəkətini qətiyyətlə pisləyən kəskin bəyanat verdi, uzun illər üzvü olduğu Kommunist Partiyası sıralarından istefa verdiyini bəyan etdi və ilk imkan yaranan kimi Azərbaycana qayıtdı.

Milli-azadlıq hərəkatının daha da genişlənməsindən və SSRİ-nin süqutundan sonra 1991-ci ilin oktyabrında Azərbaycan öz müstəqilliyini elan etdi. Lakin dövlət müstəqilliyinin ilk illəri ölkəmiz üçün son dərəcə ağır keçdi. Səriştəsiz, qətiyyətsiz və bəzi hallarda təsadüfi adamların rəhbər vəzifələrdə yer alması ilk addımlarını atan respublikanı ciddi problemlər qarşısında qoydu. İqtisadiyyatda tənəzzül hökm sürürdü. İşsizliyin, yoxsulluğun, inflyasiyanın səviyyəsi artırdı. Ermənistanla müharibədə ciddi gərginlik yaşanırdı. Belə bir vəziyyətdə qiyamçı, xəyanətkar polkovnik Surət Hüseynovun dövlət çevrilişi etmək iddiasına düşməsi vətəndaş müharibəsi təhlükəsi yaratmışdı. Çıxılmaz vəziyyətdə qalan hakimiyyət xalqın təkidli tələblərini nəzərə alaraq Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etmək məcburiyyətində qaldı. Ulu öndər xalqın ona ehtiyacı olduğunu çox gözəl başa düşdüyündən ağır dönəmdə ölkəyə rəhbərlik missiyasını öz üzərinə götürməyə razılıq verdi,



**Eldar Quliyev**
Milli Məclisin Hesablayıcı komissiyasının sədri



Ali Sovetin Sədri seçildi, Prezident vəzifələrini icra etməyə başladı.

Hamının xatirindədir ki, indi Qurtuluş Günü kimi qeyd etdiyimiz 1993-cü il iyunun 15-də Heydər Əliyev xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gəlməsə idi, Azərbaycanın bir dövlət kimi mövcudluğuna son qoyulması ehtimalı çox yüksək idi. Ölkə vətəndaş müharibəsi astanasında dayanmışdı. Separatçılar Azərbaycanı parçalamağı qarşılarına məqsəd qoymuşdular. Digər tərəfdən isə mənfur qonşumuz olan Ermənistanın təcavüzü davam edir, Dağlıq Qarabağ ətrafındakı rayonlarımız işğal olunur, əhali ata-baba yurdlarını tərk etməyə məcbur edilirdi.

Ölkəni fəlakətli vəziyyətdən qurtarmaq, əhalinin yaşayış səviyyəsinin daha da pisləşməsinin qarşısını almaq üçün sabitliyə nail olmaq və iqtisadiyyatın dirçəldilməsinə başlamaq zəruri idi. Qətiyyətli tədbirləri və müdrik siyasəti ilə separatçıların hərəkətlərinə son qoyduqdan sonra Heydər Əliyev 1994-cü ilin may ayında Ermənistanla atəşkəs müqaviləsi imzalanmasını təmin edib diqqəti daxili problemlərin həllinə yönəltdi. Bununla yanaşı, xarici siyasəti fəallaşdıraraq ölkəyə investisiya cəlb olunması istiqamətində gərgin iş apardı. Azərbaycanın etibarlı əllərdə olduğunu dəyərləndirən nüfuzlu xarici şirkətlər ölkəmizə sərmayə yatırmağa başladılar. 1994-cü il sentyabrın 20-də dünyanın tanınmış neft şirkətləri ilə “Əsrin müqaviləsi” imzalandı. Bu müqavilə əsasında ilk mərhələdə ölkəmizə 5 milyard dollardan artıq xarici sərmayə yatırıldı.

Həmin dövrdə Heydər Əliyevin ölkənin və xalqın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün necə gərgin işlədiyinin canlı şahidiyəm. Onun hakimiyyətə gəlişinin ilk günlərində əhalinin zəruri ərzaq məhsulları ilə, xüsusən çörəklə təminatında hansı çətinliklər olduğunu yaxşı xatırlayıram. Ölkədə taxıl ehtiyatının kəskin azaldığı belə bir gündə Ulu öndər axşamdan xeyli keçmiş əlaqədar nazirlik, komitə və digər qurumların rəhbərləri ilə müşavirə keçirdi. Azərittifaqın İdarə Heyətinin sədri kimi müşavirəyə mən də dəvət olunmuşdum. Heydər Əliyev mövcud vəziyyəti ətraflı diqqətə çatdırdıqdan sonra çıxış yolu tapmaq üçün iştirakçılarla fikir mübadiləsi apardı. Növbə mənə çatanda “sən nə kömək edə bilərsən?” - deyə soruşdu. Mən Rusiyada müəyyən təşkilatlarla müqavilələm olduğunu, üç günə ölkəyə xeyli taxıl gətirə biləcəyimi dedim. Ulu öndər “üç gün gecdir, təcili işə başla” - deyə tapşırıq verdi. Mən elə müşavirədən çıxan kimi lazımi adamlarla əlaqə yaratdım. Rusiyadan taxılın ölkəmizə təcili çatdırılması üçün Həştərxan limanından gəmi vasitəsilə gətirilməsi qərara alındı. Təcili Həştərxana getdim, qısa müddətdə 3 min ton buğda gəmiyə yüklənərək Bakıya gətiril-

di. Məhsulun çatdırıldığı barədə rəhbərliyə məlumat verdim.

Çoxlarının əlçatmaz əfsanə kimi qiymətləndirdiyi Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin inşasını uğurla başa çatdıraraq Azərbaycan neftinin dünya bazarlarına çıxarılması Heydər Əliyev dühasının parlaq təntənəsi idi. Bu layihənin həyata keçməsi iqtisadiyyatımız üçün son dərəcə zəruri olan milyardlarla dollar vəsaitin ölkəmizə gətirilməsinə imkan verdi.

Bununla yanaşı, Ulu öndər çox haqlı olaraq iqtisadiyyatın yalnız neft-qaz sektoru üzərində qurulmasını düzgün hesab etmir, digər sahələrin inkişafını da diqqətdə saxlayırdı. Qeyri-neft sektorunun iqtisadi islahatlar vasitəsi ilə inkişafı üçün ilk növbədə hüquqi baza yaratmağın zəruriliyini önə çəkən Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi “Aqrar islahatın əsasları haqqında”, “Torpaq islahatı haqqında”, “Kolxoz və sovxozların islahatı haqqında”, “Torpaq icarəsi haqqında” və digər qanunları qəbul etdi. Lazımi hüquqi baza yaradıldıqdan sonra həyata keçirilən genişmiqyaslı islahatlar ölkədə bazar iqtisadiyyatını tam bərqərar edərək iqtisadi göstəricilərin yaxşılaşdırılmasına, əhalinin məşğulluğunun təmin olunmasına, işsizliyin azaldılmasına, yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə aşağı salınmasına imkan verdi.

Azərbaycanın dünyaya inteqrasiyası, dünya dövlətləri sırasında layiqli yer tutması, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində Heydər Əliyevin gördüyü heyrətamiz işləri sadalamaqla bitməz. Mənim nəzərimdə bütün bunlarla yanaşı, Ulu öndərin Azərbaycan xalqına və dövlətinə ən önəmli xidmətlərindən biri onun ölkəyə İlham Əliyev kimi layiqli varis töhfə etməsidir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində “Mən ona özüm qədər inanıram” - deyib İlham Əliyevin namizədliyini irəli sürməsi və seçkilərdə onu dəstəkləməsi, partiyadaşlarına, tərəfdarlarına və xalqına tövsiyə etməsi İlham Əliyevi layiqli varis kimi gördüyünün sübutu idi. Ona görə də ölkə əhalisinin çox böyük hissəsi İlham Əliyevin namizədliyini dəstəklədi və o, ölkə başçısı postunda gördüyü möhtəşəm işlərlə bu etimada tamamilə layiq olduğunu inamla sübut etdi.

Heydər Əliyevin təməlini qoyduğu iqtisadi islahatları İlham Əliyev çox uğurla dərinləşdirib, daha da genişləndirdi. İqtisadiyyatı şaxələndirilərək qeyri-neft sektorunun prioritet inkişafına diqqət artırılmaqla xarici və yerli investorlar bu sahəyə vəsait qoymağa stimullaşdırıldı, sahibkarlığın inkişafına münbit şərait yaradıldı, ardıcıl olaraq qəbul olunan dövlət proqramları sayəsində regionların sürətli inkişafı təmin edildi, sosialyönümlü, çoxsaylı layihələr həyata keçirildi. Görülən işlər iqtisadiyyatın ilbəil sıçrayışlı yüksəlməsini təmin etdi, yaradılan bir milyondan artıq yeni iş yerləri işsizliyi kəskin azaltmağa, yoxsulluq səviyyəsini on dəfədən artıq aşağı salmağa imkan verdi. Aqrar sahənin yüksək templi inkişafı ərzaq təhlükəsizliyini qorumaqla ölkəmizin xarici bazardan asılılığını minimuma endirdi. “İqtisadiyyatın inkişafının Azərbaycan modeli” kimi dəyərləndirilən bu yanaşma bir çox ölkələrin diqqətini cəlb etdi və səmərəli iqtisadiyyat qurmaq üçün bu modeldən nümunə kimi istifadə etməyə başladılar.

İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uzun illərdir ki, nəhəng regional və beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsinin təşəbbüskarı və birbaşa iştirakçısı kimi çıxış edir. İstifadəyə verilən Bakı-Tbilisi-Ərzurum qaz kəməri qardaş Türkiyənin və bəzi Avropa ölkələrinin qaz təchizatında mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu Çin Xalq Respublikasından başlayaraq Orta Asiya respublikaları və Qazaxıstandan yükləri qısa müddətdə və sərfəli şəkildə Türkiyəyə və Avropa ölkələrinə çatdırmağa imkan verir. Tezliklə istismara veriləcək TANAP və TAP qaz kəmərləri ölkəmizlə yanaşı, Qazaxıstan və Türkmənistan respublikalarında istehsal olunan təbii qazı Avropa ölkələrinə çatdırmaqla bu ölkələrin enerji təhlükəsizliyinə böyük töhfə verəcəkdir.

Çoxlarının əlçatmaz əfsanə kimi qiymətləndirdiyi Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin inşasını uğurla başa çatdıraraq Azərbaycan neftinin dünya bazarlarına çıxarılması Heydər Əliyev dühasının parlaq təntənəsi idi.

İlham Əliyev beynəlxalq aləmdə də dərin nüfuz qazanmışdır. Onun sayəsində dünyanın aparıcı ölkələri Azərbaycanla hesablaşır, regiona aid bütün məsələlər respublikamızla razılaşmaqla həll olunur. Təsadüfi deyildir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, reqlamentlə müəyyən olunmuş müddətdə bu mötəbər təşkilata sədrlik etmişdir. Hazırda ölkəmiz BMT-dən sonra ən çox dövlətin üzv olduğu Qoşulmama Hərəkatına rəhbərlik edir. Ermənistan istisna olmaqla Azərbaycan bütün region ölkələri ilə, eləcə də Avropa, Amerika və Asiyanın bir çox ölkələri ilə sıx qarşılıqlı-faydalı əməkdaşlıq edir.

Son dərəcə uğurlu daxili və xarici siyasət apararaq bütün səviyyələrdə ölkəmizin maraqlarını müdafiə edən, iqtisadiyyatı hərtərəfli inkişaf etdirən, əhalinin rifah halının yaxşılaşdırılmasını hami-

şə ön plana çəkən İlham Əliyev bütün bunlarla yanaşı, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını ən vacib məsələ kimi qiymətləndirir.

İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün daim gərgin iş aparırdı. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə, keçirdiyi rəsmi görüşlərdə müntəzəm olaraq BMT-nin bu münaqişə ilə bağlı 4 qətnaməsinin icrası barədə məsələ qaldıraraq dünya ictimaiyyətinin diqqətini münaqişənin uzun illər boyu həll olunmamasına yönəldir, dəfələrlə ən yüksək tribunalardan ölkəmizin haqq səsini dünyaya çatdırır, münaqişənin nizamlanmasını öhdəsinə götürmüş Minsk qrupu həmsədrləri ilə ardıcıl müzakirələr aparırdı. Təəssüf ki, dünyanın aparıcı ölkə başçılarının məsələyə ikili standartlarla yanaşması, Minsk qrupu həmsədrlərinin laqeyd davranışı, Ermənistanın tez-tez dəyişən rəhbərlərinin qeyri-konstruktiv münasibəti üzündən illər keçsə də, münaqişə həllini tapmırdı.

Xarici havadarlarına güvənərək get-gedə azğınlaşan Ermənistanın siyasi və hərbi rəhbərliyi işğal olunmuş əraziləri boşaltmaq əvəzinə yeni ərazilər işğal etmək xəyalına düşür, atəşkəs rejimini müntəzəm olaraq pozaraq müdafiə mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutur, ölkəmizə qarşı təxribatlar törədirdi. 2016-cı ilin aprel ayında belə növbəti təxribat zamanı ordumuz düşmənə layiqli cavab verərək xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etdi. Yalnız Rusiya rəhbərliyinin xahişi ilə əks-hücum əməliyyatlarını dayandıran Azərbaycan Ordusu 44 günlük savaşda düşmənin özünün yaratdığı "məğlubedilməz ordu" mifini darmadağın etdi.

Müharibənin ağır itkilərlə başa gələcəyini gözəl bilən İlham Əliyev danışıqlar yolu ilə həll yoluna nə qədər üstünlük versə də, hərb variantını heç vaxt diqqətdən kənara qoymurdu. Ona görə də ordu quruculuğu istiqamətində ardıcıl iş aparır, hərbçilərimizin döyüş qabiliyyətinin yüksəldilməsi, ordunun ən müasir hərbi texnika və sursatla təmin olunması üçün tədbirlər görürdü. Həyata keçirilən tədbirlər ordumuzu dünyanın ən güclü 50 ordusu sırasına çıxarmaqla lazım gəldiyi təqdirdə hərb yolu ilə torpaqlarımızın işğaldan azad ediləcəyinə xalqımızda dərin inam yaratmışdı və xalq müharibəyə hazır idi. Xüsusən cari ilin iyul ayında düşmənin Tovuz rayonu istiqamətində təxribatlarına layiqli cavab verildikdən sonra avqust ayında ölkəmizə göndərdiyi kəşfiyyat-diversiya qrupu rəhbərinin əsir götürülməsi, baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı, müdafiə naziri David Tonoyanın "yeni müharibə ölkəmiz üçün yeni ərazilər deməkdir" sərsəmləməsi hamının səbrini daşırmışdı. Lakin cənab İlham Əliyev "mən nəyi, nə vaxt və necə etmək lazım olduğunu hamıdan yaxşı bilirəm" deyərək yenə də təmkin nümayiş etdirdi, eyni zamanda, Ermənistanın yeni müharibəyə hazırlaşmaq niyyətini ən yüksək tribunalardan, o cümlədən BMT Təhlükəsizlik Şurasının növbəti sessiyasında çıxışında bir daha dünya ictimaiyyətinin və dövlət başçılarının diqqətinə çatdırdı.

> Ulu öndərin Azərbaycan xalqına və dövlətinə ən önəmli xidmətlərindən biri onun ölkəyə İlham Əliyev kimi layiqli varis töhfə etməsidir. 2003-cü ildə Prezident seçkiləri ərəfəsində "Mən ona özüm qədər inanıram" deyib İlham Əliyevin namizədliyini irəli sürməsi və seçkilərdə onu dəstəkləməsi, partiyadaşlarına, tərəfdarlarına və xalqına tövsiyə etməsi İlham Əliyevi layiqli varis kimi gördüyünün sübutu idi.

Cari il sentyabrın 27-də Ermənistanın yenidən ərazilərimizi atəşə tutması isə kəskin cavab tədbirləri görülməsinə səbəb oldu. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı əsl qətiyyət nümayiş etdirərək ordumuza əks-hücum əməliyyatları həyata keçirmək barədə əmr verdi. Bu əmri səbirsizliklə gözləyən hərbçilərimiz elə ilk günlərdən düşmən istehkamlarını bir-birinin ardınca dağıtmağa, canlı qüvvələrini məhv etməyə, hərbi texnikaları sıradan çıxarmağa, yaşayış məntəqələri və strateji yüksəklikləri ələ keçirməyə başladılar. Bir neçə istiqamətdən həyata keçirilən əks-hücum əməliyyatları Ali Baş Komandanımızın müdrik siyasətçi, dərin bilikli iqtisadçı olmaqla yanaşı, hərbi strategiyanı çox gözəl bilən sərkərdə olduğunu həm xalqımıza, həm də bütün dünyaya nümayiş etdirdi.

Müzəffər ordumuzun zərbələri qarşısında aciz qalan düşmən böyük itkilər verir, hərbi texnikanı da ataraq döyüş mövqelərini tərk edirdi. Məğlubiyyəti həzm edə bilməyən Ermənistanın hərbi-siyasi rəhbərliyi öz mənfur xislətlərinə sadiq qalaraq itkilərinin əvəzini döyüş bölgəsindən uzaq yaşayış məntəqələrimizə zərbə vurmaqla çıxmağa çalışırdı. Gecə saatlarında Gəncə şəhərinə ballistik raketlər ataraq çox sayda mülki əhalinin qətlə yetirilməsi və yaralanması, Bərdə və Tərtər şəhərlərinə kasseti və fosfor bombaların atılması, Mingəçevir su anbarını dağıtmağa cəhd göstərilməsi, hətta Abşeron və Xızı rayonlarına raketlər atılması ermənilərin ən ağır hərbi cinayətlər törətməkdən çəkinmədiyini göstərirdi.

44 gün davam edən bu savaş zamanı xalqımız Ali Baş Komandanın  gecə-gündüz fədakarlıq göstərməsinin, hərbi əməliyyat-



ların hər bir detalını diqqətdə saxlayaraq əsgər və zabitlərin bütün tələbatlarının vaxtında ödənilməsini təmin etməsinin şahidi oldu. Bununla yanaşı, cənab İlham Əliyev güclü diplomatik iş aparırdı. Həmin günlərdə o, ABŞ, Fransa, İngiltərə, Rusiya, Yaponiya və digər dövlətlərin 30-dan artıq nüfuzlu televiziyalarına geniş müsahibələr verərək ölkəmizin ədalət savaşı apardığını, tarixi ərazilərimizi işğaldan azad edərək BMT qətnamələrini öz gücü ilə yerinə yetirməyə məcbur olduğunu dünya ictimaiyyətinə çatdırdı. Bu müsahibələri dinləyərkən İlham Əliyevin təmkini, hərtərəfli biliyə malik olması, bəzi jurnalistlərin təxribatçı suallarını tutarlı dəlillərlə cavablandıraraq onları gülünc vəziyyətdə qoyması heyrətamiz təəssürat yaradırdı. Bütün bu işlərlə yanaşı, Ali Baş Komandanımız hərbi əməliyyatların gedişi barədə xalqımızı məlumatlandırmağı da unutmurdu. Onun bu barədə gündəlik olaraq televiziya vasitəsi ilə məlumat verməsini hamımız səbirsizliklə gözləyirdik. Hər belə çıxışında möhtərəm Prezidentimiz müjdə dolu xəbərlər çatdırırdı. Suqovuşan və Talış yüksəkliyi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut qəsəbəsi və ən nəhayət də Şuşa şəhəri rəşadətli hərbçilərimiz tərəfindən azad edildikdən sonra düşmən müqavimət göstərməyin mənasız olduğunu anladı, daha ağır itkilərə yol verməmək üçün minnətçilərini ölkə başçımıza yönəltdi. Cənab İlham Əliyev yenə də iradə nümayiş etdirərək hərbi əməliyyatların dayandırılması üçün vasitəçilik edən Rusiya Prezidentinə yalnız Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğalda qalan kəndlərindən erməni qoşunlarının çıxarılması şərti ilə əməliyyatlara son qoymağa razılıq verdi. Təslim olmaqdan (kapitulyasiyadan) başqa çıxış yolu qalmayan Ermənistanın baş naziri Ali Baş Komandanımızın şərtini qəbul etdi və noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistan baş nazirinin imzaladığı üçtərəfli bəyanatla Ermənistan təslim oldu, müharibə parlaq qələbəmizlə başa çatdı. Bu qələbə əsgər və zabitlərimizin fədakarlığının, hərbi texnikamızın mükəmməlliyinin, qardaş Türkiyə xalqının və onun möhtərəm Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın hərtərəfli dəstəyinin, Ali Baş Komandanımızın möhtəşəm siyasi, diplomatik, strateji qabiliyyətinin təntənəsi idi.

Müharibənin davam etdiyi günlərdə xalqımızın bir yumruq kimi Prezidentin ətrafında birləşməsi, siyasi baxışlarındakı fərqləri bir kənara qoyaraq ölkədə fəaliyyət göstərən 52 siyasi partiyadan 51-nin bəyanat verərək iqtidarı dəstəkləməsi İlham Əliyevə olan dərin inamı sübut etdi. Bu inama söykənən ölkə başçısı sona qədər müxtəlif təzyiqlərə sinə gərdi, savaşı zəfərlə başa çatdırdı, məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmaq barədə 30 il davam edən arzularını gerçəkləşdirdi. Ali Baş Komandanımız Ulu öndərin vəsiyyətini yerinə yetirərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, dövlətçiliyimizin xilaskarı kimi adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırdı.

# Qarabağ münaqişəsinin həlli bütövlükdə region ölkələrinin hamısı üçün faydalıdır



**Tahir Mirkişili**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri

Qarabağ münaqişəsinin mövcudluğu, ərazilərimizin Ermənistan tərəfindən işğal altında olması və Qarabağda qanunsuz rejimin mövcud olması region üçün həm də böyük iqtisadi təhlükə yaradırdı və bu, iqtisadi bir risk idi. Eyni zamanda, regionda mövcud böyük iqtisadi layihələrin icrası, investisiyaların cəlb edilməsi potensialı, "Şərq-Qərb" tranzit koridorunun uğurlu fəaliyyəti baxımından da münaqişə böyük maneə idi.

Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub" qaz dəhlizi Qarabağda olan münaqişə ocağından elə də uzaqda yerləşməyib. Ona görə də belə bir münaqişənin qalması mövcud riskləri daha da artırırdı. Bu isə nəhəng layihələrin dəyərinin və zərərə uğrama təhlükəsinin daha da yüksəlməsinə səbəb olurdu. Təbii ki, bunlar bölgədə inteqrasiya prosesləri üçün bir maneə idi. Münaqişənin artıq həll edilməsi bu cür riskləri aradan qaldırdı. Bundan sonra bölgəyə daha çox uzunmüddətli investisiyanın cəlb edilməsi, yeni əməkdaşlıq formatlarının yaranması Qafqaz regionunun sabit bölgə kimi rol almasına böyük imkan yarada biləcəkdir.

Geosiyasi imkanlar sonda iqtisadi faydalara çevrilir. Çünki geosiyasətin əsas hədəflərindən biri də iqtisadi fayda və əlaqələrin inkişafıdır. Əlaqələrin inkişafı Şərq-Qərb, Şimal-Cənub arasında iqtisadi dövriyyələrin daha çox artmasına imkan yaradacaq. İndiki halda mövcud pandemiyaya görə iqtisadi böhranların, azalmaların baş verməsi də qarşıdakı illərdə iqtisadi dövriyyələrin və ölkələrarası ticari əlaqələrin daha da artmasını proqnozlaşdırmağa əsas yaradır. İqtisadi əlaqələrin bu gözlənilən sürətli inkişafından faydalanmaq çox vacibdir.

Ümumiyyətlə, Qarabağ münaqişəsinin həlli bütövlükdə region ölkələrinin hamısı üçün faydalıdır. Türkiyənin, Gürcüstanın, Rusiyanın, İranın, hətta Ermənistanın iq-



Suqovuşan su anbarı

tisadi inkişafı üçün yeni imkanlar yaranmaqdadır.

Bu regionda yeganə zəif bənd Ermənistandır. Hazırda Ermənistanın xarici dövlət borcu təqribən 8,1 milyard dollar, valyuta ehtiyatlarının toplam həcmi isə 0,95 milyard dollardır. Ölkənin xarici dövlət borcu ümumi daxili məhsulun (ÜDM) 60,32%-nə çatıb. Bu ilin yanvar-sentyabr aylarında Ermənistan iqtisadiyyatında geriləmə 6,6% olub. İqtisadiyyata sərmayə qoyuluşu cəmi 99 milyon dollar təşkil edib. Milli valyuta olan dram sürətlə qiymətdən düşür: hazırda 1 dollar 525 dramdır. Qarşıda isə nağd pul çatışmazlığı, hiperinflyasiya, vergi ödənişlərinin kəskin azalması, işsizlik və yoxsulluq səviyyəsinin artımı gözlənilir. Ehtiyatda olan 500 milyon dollar isə savaş günlərində dramın çökməsinin qarşısını almaq üçün valyuta intervensiyalarına sərf olunub.

İkinci Qarabağ müharibəsinin nəticələri Ermənistan üçün, ümumiyyətlə, fəlakətlidir. Belə ki, Ermənistanda 10 ən iri vergiödəyici arasında “GeoMining Gold”, “İnternational Masis Tobacco”, “Alex Holding” var. Bu şirkətlərin üçü də Zod, Vejnəli və s. yataqların istismarı, Hadrut, Füzuli və Qubadlı rayonlarındakı tütün plantasiyaları, habelə Kəlbəcər rayonunun təbii ehtiyatlarının istismarı hesabına fəaliyyət göstərirdi.

Ermənistanın elektrik enerjisi tələbatının 11,3%-i Azərbaycan torpaqlarındakı 6 elektrostansiya hesabına ödənirdi. Həmin stansiyaların 3-ü Kəlbəcərdə, 1-i Suqovuşanda, 2-si Laçındadır. Yəni Ermənistan 5 hidroelektrostansiyadan aldığı elektrik enerjisini birdəfəlik itirib.

Ermənistan taxıla olan ehtiyacının 25%-ni işğal etdiyi Azərbaycan torpaqları hesabına ödəyirdi. Artıq bu, mümkün deyil, çünki ermənilər Hadrut, Füzuli, Kəlbəcər, Zəngilan və Qubadlı rayonlarındakı tarlalardan məhrum oldular. Ən nəhayət, Ermənistan dünya bazarına çıxardığı, 8 ölkədə satdığı “Kataro” şərab brendini də itirdi, çünki “Kataro” şərabları Hadrutun Tuğ kəndində istehsal olunur. Həmin kənd isə erməni işğalından qurtulub.

Ermənistanı çox ciddi iqtisadi fəlakət gözləyir. Bu ölkə mövcud imkanları anlayarsa, apardığı yanlış siyasətdən əl çəkərsə, münasibətlərdə yeni bir dönəmin başlama ehtimalı yaranar. İqtisadi əlaqələrin qurulması və inkişafı, sözsüz ki, hamının mənafeyinə uyğundur. Bu, arzuolunandır. Cənubi Qafqaz iqtisadiyyatının 75%-nə sahib Azərbaycan bölgədə ən aktiv iqtisadi oyunçudur. Həm resurslarına, mövcud infrastruktur layihələrinə, eyni zamanda, geniş əlaqələrə görə ölkəmiz lider mövqedədir.

Azərbaycanın iqtisadi imkanları hər kəsin faydalanması üçün münbit şərait yaradır. Münaqişəni həll etmiş ölkə kimi Azərbaycan bu qələbəni iqtisadi faydalara çevirməyi bacaracaq. Bunun üçün də mühüm imkanlar var.



**Kəlbəcərin Söyüdlü (Zod) qızıl yatağı**



**Zəngilanda salınan üzüm sahələrindən biri**

# Azərbaycanın yaratdığı geostrateji reallıqlar yeni dünya nizamı kontekstində

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olduqca mürəkkəb regionda çox mürəkkəb bir hərbi-siyasi prosesi diplomatiyanın və siyasətin mümkün etdiyi ən mahir incəliklərlə idarə etməyi bacardı, döyüş meydanında qazandığımız tarixi qələbəmizi diplomatik siyasi müstəvidə də möhkəmləndirdi.



**Hikmət Məmmədov**
Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini

Vətən müharibəsində möhtəşəm tarixi qələbə qazanan Azərbaycan həm öz ərazi bütövlüyünün, həm tarixi ədalətin, həm də beynəlxalq hüququn bərpasına müvəffəq oldu. Sentyabrın 27-dən başlayaraq dekabrın 1-nə qədər davam edən bu mərhələ cəmi 64 gün çəksə də, əslində, nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqazda tamamilə fərqli və yeni bir eranın başlanğıcını yaratdı. Ona görə də 44 günlük aktiv müharibə fazası və sonrakı 20 gündə 3 rayonumuzun bir güllə atılmadan azad edilməsi elə bir mühüm hadisədir ki, xalqımızın tarixinə qızıl hərflərlə yazıldı. Yəni uzun illərdir davam edən və "Dağlıq Qarabağ" problemi adlandırılan məsələ birdəfəlik həll edildi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Azərbaycan xalqı məğlub edilmiş xalq statusunda təqdim edilməkdən qurtularaq qalib xalq statusu əldə etdi, milli birliyin və bərabərliyin simvoluna çevrildi.

## Bütün cəbhələrdə möhtəşəm qələbəmizin memarı müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir

Əlbəttə, çox mürəkkəb tarixi mərhələdən keçdik. 44 günlük müharibə tarixində hər hansı kiçik bir səhv böyük faciələrə səbəb ola bilərdi. 30 ilə qədər davam edən danışıqlar prosesində Azərbaycan xalqının səbri, dəyanəti, dözümü sınağa çəkildi. Ancaq müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olduqca mürəkkəb regionda çox mürəkkəb bir hərbi-siyasi prosesi diplomatiyanın və siyasətin mümkün etdiyi ən mahir incəliklərlə idarə etməyi bacardı, döyüş meydanında qazandığımız tarixi qələbəmizi diplomatik siyasi müstəvidə də möhkəmləndirdi.

Müharibəni başlatmaq heç vaxt və heç bir halda asan qərar sayıla bilməz. Ancaq onu bitirmək və müharibədə qazandığını axıra qədər əldə saxlamaq ondan da çətin olur. 44 günlük prosesdə bizə böyük qələbəni gətirəcək bütün komponentlərin hamısının necə ustalıqla təmin edildiyini gördük. Azərbaycan Ordusu döyüş meydanında tarixi zəfər qazandı və bu qələbə siyasi, diplomatik müstəvidə qorundu. Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı, qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa məcbur etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan xalqı bu prosesdə bir daha sübut etdi ki, ölkəmizdə xalq-iqtidar birliyi olduğu təqdirdə ən çətin və mürəkkəb məsələlər belə həll edilir.

Bu gün də Azərbaycan xalqı bu qələbə əhval-ruhiyyəsini böyük coşqu ilə yaşayır. Bu qələbə Azərbaycan xalqına, xalq da bu möhtəşəm qələbəyə layiqdir. Çünki bu illər ərzində Azərbaycan dövlətçiliyi böyük imtahanlardan keçdi. Azərbaycan Prezidenti ən doğru zamanda ən doğru qərarı qəbul etməklə, xalqımızın tarixi qələbəsini təmin etdi, diplomatik, siyasi və hərbi müstəvidə qazanılan qələbə-

lərlə qalibiyyətimizin simvoluna çevrildi. İlham Əliyev ərazi bütövlüyümüzü bərpa edən böyük dövlət xadimi kimi adını hərbi-siyasi tariximizə qızıl hərflərlə yazdırdı. Son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən müzəffər sərkərdə oldu.

### Tarixi zəfərin siyasi xronologiyası

Xalqımızın Vətən müharibəsinin, istiqlal savaşının sonu bizə qalibiyyət və yeni geostrateji status qazandırdı. Qısaca olaraq bu tarixi qələbəyə necə gəldiyimizin siyasi xronologiyası isə belədir: problemin 70 illik fasilədən sonra yenidən aktiv fazaya keçməsi dövrü, yəni 1920-ci ildən 1988-ci ilədək davam edən nisbi dinc dövrün 1988-ci ildən başayaraq 1994-cü ilədək asimmetrik müharibə mərhələsinə qədəm qoyması və döyüşlərdə Azərbaycanın uduzdurulması, Dağlıq Qarabağ və onun ətrafında 7 rayonumuzun işğal altına düşməsi; 1994-1997-ci illər fəal sülh axtarışları mərhələsi; 1997-2001-ci illər problemin həllinə yaxınlaşmaq mərhələsi; 2001-ci ildə Ki-Uestdə danışıqların pozulması və sonrakı 2001-2003-cü illər danışıqların imitasiyası dövrü; 2003-2016-cı illər strateji sükut, yaxud səssiz müharibə dövrü, yəni davam edən danışıqlara paralel olaraq ordu quruculuğu, hərbi sənayenin yaradılması, peşəkar kadrların komplektləşdirilməsi, XXI əsrin müharibəsinə hazırlaşma dövrü; 2016-2018-ci illər strateji sükut və səssiz müharibə dövründə Azərbaycanın müharibəyə hazırlığının test edilməsi mərhələsi: Aprel və Günnüt döyüşləri; 2018-2020-ci il iyul tarixləri arasındakı vaxt nəticələrin təhlil edilməsi, çatışmazlıqların qısa müddətdə aradan qaldırılması, hərbi-siyasi və geostrateji zamanın zərgər dəqiqliyi ilə seçilməsi; 2020-ci ilin sentyabrın 27-dən noyabrın 9-na qədər davam edən 44 günlük müharibə dövrü və tam qələbə, işğalçı Ermənistanın kapitulyasiya aktına qol çəkməsi.

### Azərbaycan hərb və diplomatiya tarixində bütün dünyada heyrətlə qarşılanan yeniliklərə imza atdı

Ən mühüm məqamlardan biri budur ki, parlaq qalibiyyət qazanaraq Dağlıq Qarabağ münaqişəsinin hərbi-siyasi yolla həllinə nail olan Azərbaycan regionda yeni geostrateji reallıqlar yaratdı. Bu kontekstdə bir sıra məqamlara xüsusi olaraq diqqət yetirmək lazımdır. Əvvəla, Azərbaycan hərb və diplomatiya tarixində bütün dünyada heyrətlə qarşılanan yeniliklərə imza atdı. Sovet İttifaqının dağılması prosesində etnik separatçılıqla müşahidə edilən müharibələr tarixində dönüş yaratmaqla yeni nümunə ortaya qoydu. Vaxtilə dünya siyasətinin fərqli qütblərində yer alan qonşu dövlətlərin maraqlarını qarşılıqlı şəkildə bir araya gətirərək və milli maraqlarımızla uzlaşdıraraq regionda Türkiyə-Rusiya əməkdaşlığının fundamental əsaslarını formalaşdırdı.

### Azərbaycan yeni reallıq formalaşdırmaqla özünə mühüm strateji perspektiv təmin etdi

Ölkəmiz böyük bir strateji regionda yeni güc balansı yaratmaqla bu yeni geosiyasi tarazlıqda özünün mühüm yerini və rolunu



müəyyən etdi. Bütün bunlar isə o qədər sürətlə baş verdi ki, dünya siyasətini müəyyən edən güc mərkəzlərinin bir çoxu, sadəcə olaraq, hadisələri kənardan izlədilər və ona əsla müdaxilə edə bilmədilər. Halbuki biz çox radikal və aktiv müdaxilə cəhdlərinin də şahidi olduq.

Beləliklə, hazırda Azərbaycan yeni reallıq formalaşdırmaqla özünə mühüm strateji perspektiv təmin edib. Bu reallığı yaradan Prezident İlham Əliyev Laçın rayonunun işğaldan azad edilməsi münasibəti ilə xalqımıza müraciət edərkən bir sıra mühüm məsələlərə toxundu. O cümlədən milli iradəmizə qarşı addım atmaq niyyətində olanlara yenə sərt ismarıclar göndərərək bildirdi ki, "Əgər bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək".

Göründüyü kimi, belə cəhdlər var və Azərbaycan Prezidenti də, əslində, elə onlara xəbərdarlıq edirdi. Belə cəhdlərin məqsədi isə razılaşmanı pozmaqdır. Çünki bu razılaşma bəzi güc mərkəzlərini regionda yaradılan yeni təhlükəsizlik formatından kənarda qoyub. Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda, burada təhlükəsizlik tədbirlərinin görülməsi və bəyanatın müddəalarının icra edilməsinə nəzarət də bu quruma həvalə olunub. Yaranmış bu yeni geosiyasi reallıq heç də regionda geosiyasi maraqları olan bəzi qlobal aktorların ürəyincə deyil və daim buna müdaxilə etməyə cəhd edirlər. Ancaq bütün bunlar, şübhəsiz ki, yeni reallığı dəyişə bilməz və hazırda Azərbaycan regionun lider və qalib ölkəsi kimi öz yeni gələcəyini inşa edir.

## Azərbaycan-Türkiyə tandemi yeni dünya nizamında diktə edən güc mərkəzlərindən birinə çevrilə bilər

Şübhəsiz, Azərbaycanın əldə etdiyi tarixi-strateji qələbənin miqyası o qədər böyükdür ki, bunu dərk etmək üçün zamana ehtiyac var. Qələbə çoxvektorludur, bunun şaquli dərin və üfüqi coğrafi tərəfi var. İkinci görünən tərəfdir. Hamımız bunu vizual olaraq aydın görürük ki, torpaqlarımız işğaldan azad edildi. Birinci isə heç də hamımızın görə bilmədiyi dərin qatlardadır. Zamanla üzə çıxdıqca, biz onu dərk edəcəyik. Məhz dərin qatlarda baş verən hadisələr mənsub olduğumuz geostrateji rayonun gələcəyini təyin edəcək. Bu, elə bir gələcək olacaq ki, Azərbaycan-Türkiyə tandemi çoxqütblü (multipolyar) idarəetmə mexanizminə malik yeni dünya nizamında diktə edən güc mərkəzlərindən birinə çevriləcək. Hazırda qlobal



arenada cərəyan edən geostrateji proseslər beynəlxalq münasibətlər sisteminin gələcəyinin çoxqütblü nizama əsaslanacağını proqnozlaşdırmağa imkan verir. Məhz Türkiyə ilə Azərbaycanın yaratdığı effektiv regional müttəfiqlik sistemi dünya siyasətində və beynəlxalq münasibətlərdə mühüm tarazlıq mexanizmi formalaşdıran, genişmiqyaslı inteqrasiyanı sürətləndirən strateji faktor funksiyası daşıyacaq. Bu isə qarşılıqlı-faydalı, həmçinin çoxtərəfli regional və beynəlxalq əməkdaşlığın inkişafına, qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə mühüm töhfə olacaq.

Əhəmiyyətli nüanslardan biri isə üçtərəfli bəyanata əsasən, Naxçıvana nəqliyyat dəhlizinin açılmasıdır ki, bu da mühüm tarixi nailiyyətdir. Bununla Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi yaradılacaq. Beləliklə, biz həm Naxçıvanı blokadadan çıxarmış olacağıq, həm də yeni bir nəqliyyat-kommunikasiya dəhlizinin açılmasına nail ola biləcəyik. Prezident İlham Əliyev bu məsələyə toxunaraq: "Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir. Azərbaycan Türkiyə ilə birləşir. Rusiya, Azərbaycan, Türkiyə, İran, Gürcüstan və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər. Beləliklə, bölgədə altıtərəfli yeni əməkdaşlıq platforması yaradıla bilər", - deyə söyləyib.

### Postmüharibə mərhələsi və quruculuq dövrü: yeni strateji reallıqlar mühüm perspektivlər vəd edir

Qeyd etdiyimiz kimi, müharibəyə başlamaq nə qədər çətindirsə, onu bitirmək ondan da çətindir. Üstəlik, yaşadığımız mürəkkəb regionda mövcud olan güc balansları kontekstində bunu etmək daha da çətindir. Ancaq Azərbaycan bunu bacardı və hərbi qələbəsini siyasi-diplomatik qələbəsi ilə də taclandırdı. Hazırda isə çox fəal və sürətli postmüharibə mərhələsinə qədəm qoymuşuq və bu mərhələ bütün ərazilərimizdə Azərbaycanın suveren hüquqlarının bərpa olunması mərhələsidir.

Beləliklə, hazırda Azərbaycan üçün yeni tarixi dövr başlayır. Bu, quruculuq, inkişaf və regional inteqrasiya dövrüdür. İşğaldan azad edilmiş bölgələrdə infrastruktur quruculuğu, bərpa prosesi, həmçinin rentabelli iqtisadi layihələrin reallaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü işlər görüləcək. Bu layihələrin reallaşdırılmasında Türkiyə və Azərbaycan şirkətləri birgə iştirak edəcəklər. Bütün bu strateji əhəmiyyətli addımlar isə bölgəyə inkişaf gətirəcək.

Nəticə etibarı ilə, tarixi ədaləti bərpa etməklə mühüm geostrateji reallıqlar yaradan Azərbaycan öz hərbi qüdrəti, iqtisadi potensialı və siyasi-diplomatik üstünlükləri ilə yeni dünya nizamında mühüm təsir imkanlarına malik olan güclü və nüfuzlu aktor kimi çıxış edəcək.








# Biz gəlmişik, biz Qarabağdayıq!

Müzəffər Ali Baş Komandan, qalib sərkərdə, xilaskar, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Ordusunun, Azərbaycan Silahlı Qüvvələrinin şücaəti və rəşadəti, dillərə dastan igidliyi, qəhrəmanlığı ilə 32 illik qanlı münaqişəyə son qoyuldu. 44 günlük tarixi, möhtəşəm Vətən müharibəsi, İkinci Qarabağ savaşı ilə işğalçı, faşist, terror dövləti olan Ermənistan dizə gətirildi, təslim edildi, kapitulyasiyaya məcbur olundu. Yağı düşmən üzərində 32 il səbirlə, təmkinlə, dözümlə gözlədiyimiz tarixi Qələbə və Zəfər çalındı, üçrəngli bayrağımız 27-28 ildən sonra yenidən Qarabağımızın hər bir guşəsində - Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında, Hadrutda, Suqovuşanda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, yaralı Xocalımızın kəndlərində dalğalandırıldı. Ərazi bütövlüyümüz, suverenliyimiz bərpa, bərqərar olundu. Bakıda dekabrın 10-da bütün dünyanın maraqla gözlədiyi, bütün gözlərin zilləndiyi tarixi, möhtəşəm Zəfər paradı keçirildi, qardaş və dost Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın iştirakı, Azərbaycan və Türkiyə liderlərinin tarixi çıxışları ilə dünyaya bir daha birlik və bərabərliyimizin, dost və qardaşlığımızın sarsılmazlığının növbəti mesajları verildi.

Bəli, tarixi qələbə və zəfərə qədər böyük yol, məsafə qət edildi. Bu qələbəni, bu zəfəri əldə etmək üçün çox böyük, tarixi addımlar atıldı. İkinci dəfə müstəqilliyimizi itirmək, parçalanmaq, məhv olmaq təhlükəsi aradan qaldırıldı, Azərbaycan inkişaf, tərəqqi, sabit-

lik yoluna qədəm qoydu. Bunlar da heç şübhəsiz ki, 1993-cü ilin gərgin və ağır iyun günlərində ikinci dəfə hakimiyyətə qayıdan, müasir Azərbaycanın qurucusu və memarı, dahi şəxsiyyət Ulu öndər Heydər Əliyevin tarixi xilaskarlıq missiyası nəticəsində həyata keçdi. Ümummilli liderin hakimiyyətə qayıdışından sonra torpaqlarımızın, dəyəri heç nə ilə ölçülə bilməyəcək mənəvi, maddi sərvətlərimizin, milli, tarixi, dini abidələrimizin, məscidlərimizin, ziyarət yerlərimizin, qəbiristanlıqlarımızın, açıq və qapalı muzeylərimizin, mənəvi zənginliklərimizin murdar düşmən tapdağından qurtulması, işğaldan azad edilməsi üçün bütün cəbhələrdə, bütün səngərlərdə ardıcıl, sistemli mübarizə başlanıldı. Elə bir tədbir, elə bir yüksək səviyyəli forum olmadı ki, torpaqlarımızın işğalı, mənəvi, maddi sərvətlərimizin  vandalizmə məruz qalması, onların azad olunması məsələsi dilə gətirilməsin, səsləndirilməsin. İstər Ulu öndərin 10 illik ikinci hakimiyyəti dönəmində, istər onun layiqli davamçısı Prezident İlham Əliyevin 17 illik hakimiyyəti dövründə, istərsə dövlət başçısının ən yaxın və ən sədaqətli silahdaşı, Azərbaycanın Birinci xanımı və  Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ötən illər ərzindəki tükənməz, bənzərsiz ictimai-siyasi fəaliyyəti müddətində bu məsələlər, xüsusilə milli, tarixi, dini abidələrimizin, sərvətlərimizin vəhşiliklərə məruz qalması, həmçinin Ermənistan tərəfindən mənəvi soyqırımın həyata keçirilməsi hər zaman, hər bir kürsüdə, hər bir tribunada açıq və gur səslə bəyan olundu; lal, kar, kor dünyanın nəzərinə, diqqətinə çatdırıldı. Nəticə etibarı ilə bir sıra qurumlar, o cümlədən uzun illərdir səmərəli əməkdaşlıq etdiyimiz YUNESKO-nun önəmli qərarlarının qəbuluna nail olundu. Ermənistanın həm hərbi işğalı, həm də mənəvi təcavüzü pislənildi, qınanıldı.

Bəli, işğal uzandıqca, mənəvi sərvətlərimizin, mənəvi resurslarımızın işğalı, məhvi bizlərin hər birini - bütün Azərbaycan insanını bir o qədər incitdi, sızlatdı. Xüsusilə də Qarabağımızın gözü, dilbər guşəsi olan Şuşadakı abidələrimizin, Gövhərağa məscidinin, Ağdam məscidinin, o cümlədən digər yurd yerlərimizdəki məscidlərimizin, qədim Alban kilsələrinin, Azıx mağarasının, başqa bənzərsiz, təkrarsız sərvətlərimizin dağıdılması, təhqir edilməsi, yerlə yeksan olunması hər birimizin ürək ağrısına, sızıltısına, naləsinə çevrildi. Bəs vətənindən didərgin salınan, təhqirlərə məruz qalan heykəllərimiz? Üzeyir bəy Hacıbəylinin, Xan qızı Natəvanın, Bülbülün heykəlləri güllələndi, məhv edildi. Düşmən bilə-bilə, bunları qəsdən törədərək həm öz yırtıcı, insanlıqdan uzaq xislətini ortaya qoyur, həm də bizim milli-mənəvi hisslərimizlə oynayırdı. Çünki bir daha acı təəssüf və qəzəb hissi ilə qeyd etmək gərəkdir ki, işğalın daha amansız xarakter aldığı 1992-1993-cü illərdən ötən zaman ərzində işğal altında olan yurd yerlərimizin elə bir guşəsi, elə bir milli, mənəvi, dini, tarixi sərvəti, abidəsi olmadı ki, işğaldan, təcavüzdən ciddi zərər, ziyan çəkməsin…Dağıdılan dağıldı, məhv edilən məhv edildi, qalanlar isə elə bir hala salındı ki, ələgəlməz oldu… Ancaq 32 illik səbrin, dözümün də bir həddi olmalı idi və oldu… Səbir kasası da daşmalı idi və daşdı…

Sentyabrın 27-də Ermənistanın növbəti qanlı təcavüzündən, açıq təxribatından sonra Ali Baş Komandan Silahlı Qüvvələrimizə "İrəli!" əmri verdi, Qarabağ müharibəsinin ikinci fazası başlandı və cəmi 44 gün çəkən bu Vətən müharibəsi 32 illik işğala son qoydu. İndi qovuşduğumuz torpaqlarımızın üstü də, altı da, o cümlədən təbii  sərvətlərimiz də öz əzəli sahibində - bizdədir, Azərbaycandadır. Ölkə Prezidentinin və Birinci xanımın Cəbrayıla, Xudafərinə, Füzuliyə, Ağdama tarixi səfərlərində də bir daha dünyaya erməni faşizmi, erməni vandalizmi, erməni vəhşiliyi əyani şəkildə nümayiş etdirildi. Dünya bir daha erməni vandalizminə, erməni barbarizminə şahidlik etdi. Şahidlik etdi ki, işğal olunmuş və işğaldan azad edilmiş Azərbaycan ərazilərində daş üstə daş qalmayıb, hər yer dağıdılıb, məhv edilib, vəhşiliklərə, murdarlıqlara məruz qalıb, xüsusilə bərpası bəlkə də on illər çəkəcək milli, mənəvi, tarixi, dini sərvətlərimiz, abidələrimiz yox edilib… Ağdam məscidi bunun acı və əyani sübutudur.

Ölkə Prezidenti və Birinci xanım 27 ildən sonra erməni vandalizmini hələ də canında, ruhunda hiss edən, yaşadan Ağdam məscidini ziyarət etdikdən sonra Ali Baş Komandan kameralar önünə keçdi,  məscidin önündə tarixi nitq söylədi, bir daha dünyaya səsləndi,



**Jalə Əliyeva**
Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini

çağırış etdi, erməni vandalizminə diqqət çəkdi: "Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək, bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də, tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam". Sonra - "Biz bu qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik. Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar", - deyən Ali Baş Komandan bildirdi ki, hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar, onların bu barədə danışmağa haqqı yoxdur. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər bizim öz tarixi sərvətimizdir.

Bəli, Ali Baş Komandanın dediyi kimi, kimsənin, xüsusilə də illərdir işğala göz yumanların, sərvətlərimizin talan edilməsinə səssiz qalanların "narahatlığı"na heç bir əsas və səbəb yoxdur. Azərbaycanda hər il Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dini liderlərinin zirvə görüşləri keçirilib. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kirill, Roma Papası Fransisk Azərbaycanda mövcud olan tolerantlığa, dini dözümlülüyə, multikulturalizmə, bu sahədə görülən işlərə yüksək qiymət verib. Belə olan halda, bizə irad tutan kim ola bilər? Məscidləri bağlayanlar, yoxsa məscidlərə kəsilmiş donuz başları atanlar? Heç bir narahatlığa əsas yoxdur və bizim bütün tarixi və dini abidələrimiz hansı konfessiyaya aidiyyətindən asılı olmayaraq, dövlət tərəfindən qorunur, himayə olunur və ən əsası hərtərəfli dəstəklənir. Dövlət başçısının göstərişi ilə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Mühari-



bə dövründə udin kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Qafqaz Albaniyası kilsələri, Gürcü kilsələri bizim milli sərvətimizdir. Erməni kilsəsi də dini-mənəvi əhəmiyyət daşıyır və biz onlara da hər zaman hörmətlə yanaşmışıq.

Ancaq vəhşi, qəbilə, yırtıcı təfəkkürlü düşmən məscidlərimizdə, xüsusilə Ağdam məscidində inək, donuz saxlayıb və bununla da əsl mahiyyətini ortaya qoyub. Onu






da xatırlatmaq yerinə düşər ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri Ağdam məscidində olublar. Bəs niyə gördükləri barədə, erməni vandalizmi barədə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar?!

Dövlət başçımızın da dediyi kimi, "Əgər belədirsə, belə də desinlər və getsinlər, öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə qarışmasınlar. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq tarixi torpağımızda, Qarabağımızda! Hərə artıq getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik".

Necə ki, 44 gün ərzində birlik göstərmişik, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaq. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

*Eşq olsun*
*müzəffər Ali Baş Komandana!*

*Eşq olsun*
*Azərbaycan Ordusuna!*

*Eşq olsun*
*Azərbaycan xalqına!*

*Qarabağ bizimdir,*
*Qarabağ Azərbaycandır!*

# Şuşa uğrunda gedən döyüşlər Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı

## Müsahibimiz Milli Məclisin deputatı **Elman Məmmədovdur**



**- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu parlaq zəfər çaldı, xalqımızın 30 ilə yaxın Qarabağ həsrətinə son qoyuldu.**

- Səmimi etiraf edim ki, bu qələbə, bu uğur hamımız üçün müjdə oldu. Düzdür, hadisələri izləyirdik və görürdük ki, Azərbaycan Prezidenti hakimiyyətə gəldiyi ilk gündən işğalda olan torpaqların azad olunması üçün mərhələli şəkildə hazırlıqlar görürdü. Bu işlər bütün istiqamətlərdə - siyasi, hüquqi, diplomatiya sahəsində gedirdi. Dünyanın ən mötəbər beynəlxalq qurumlarında haqlı olduğumuza dair, Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal edilməsi faktını tanıyan və ədalətin bərpasında hüquqi bazanı genişləndirən sənədlər qəbul olunurdu. Məsələn, BMT-nin qətnamələri göstərirdi ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək hüququna malikdir.

Dövlət başçısı tərəfindən diplomatik uğurlarla bərabər Azərbaycan iqtisadiyyatının güclənməsi istiqamətində böyük işlər görülürdü. Ölkəmizin nəhəng enerji və tranzit mərkəzinə çevrilməsi, “Şərq-Qərb”, “Şimal-Cənub” enerji və nəqliyyat dəhlizlərinin yaradılması, Azərbaycanın Avropa enerji təhlükəsizliyində fəal iştirakı və nüfuzunun yüksəlməsi, ölkəmizin iqtisadi cəhətdən müstəqil olması vacib amillər idi.

Bütün bunlarla yanaşı, Azərbaycanda ordu quruculuğu fasiləsiz prosesə çevrilmişdi. Ordu tək müasir silahlanma ilə kifayətlənmirdi; tez-tez hərbi təlimlər keçirilir, peşəkar zabit və əsgər heyəti formalaşdırılırdı. Bu işlər bütün qoşun növlərində - Müdafiə Nazirliyində, Sərhəd Xidmətində, Daxili İşlər Nazirliyində və digər hərbi strukturlarda aparılırdı.

Bu illər ərzində uğurlarımızdan biri də torpaqlarımızın işğaldan azad olunması üçün ümumxalq birliyinin yaranmasıdır. Sanki bütün xalq bu qələbə üçün səfərbər olmuşdu.

Bu dediklərimdən heç də az əhəmiyyət kəsb etməyən bir məqamı vurğulamaq istəyirəm: Azərbaycan xalqının və bu müharibədə övladlarımızın vətənpərvərliyi, mübarizliyi, qələbə əzmi heyrətamiz dərəcədə yüksək idi. Cənab Prezident bunu bütün çıxışlarında daim qeyd edir ki, bizim nə qədər güclü texnikamız, silah-sursatımız olsa da, qələbəni qazanan Azərbaycan əsgəridir. Bu birlik, Prezidentimizin xalqın lideri səviyyəsinə yüksəlməsi, eyni zamanda, qətiyyətli və cəsarətli sərkərdəlik məharəti - bütün bunlar birlikdə qələbəmizi təmin


BAŞ KOMANDAN
İLHAM ƏLİYEV

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir!*
*Qarabağ bizimdir!*
*Qarabağ Azərbaycandır!*

PREZİDENT **İLHAM ƏLİYEV**



etdi. Çox dövlət başçıları olub və var, lakin onlar liderlik səviyyəsinə yüksələ bilməyiblər.

Vacib amildir ki, xalq hakimiyyətdə olan şəxsi özünə ağsaqqal, sərkərdə, lider kimi qəbul etsin, onun əmr və tapşırıqlarını ləyaqətlə yerinə yetirsin. Prezident İlham Əliyev bunu bacardı. Mən noyabrın 8-də televiziya kanalında cənab Prezident Şuşanın işğaldan azad olunması ilə bağlı məlumat verdiyi zaman bu fikri səsləndirdim ki, mənim Prezidentim fateh, sərkərdə Prezident oldu.

**- Mənfur erməni qəsbkarlar 27 illik işğal dövründə qədim Qarabağ torpaqlarını xarabazarlığa çeviriblər. Bu ərazilərimizin gələcəyini necə görürsünüz?**

- Baxın, 1993-cü ildən etibarən ermənilər tərəfindən viran qoyulmuş və 2016-cı il şanlı ordumuz tərəfindən azad olunmuş Cocuq Mərcanlı qısa müddətdə bərpa edildi. Bu suala cənab Prezidentin dediklərinə istinadla cavab verəcəyəm, biz işğaldan azad olunmuş ərazilərimizi əvvəlki vəziyyətindən də yüksək səviyyədə bərpa edəcəyik.

Cənab Prezident xalqa müraciətində, eləcə də MDB dövlət başçılarının videokonfransında bu sözləri bir daha təkrarladı. Bu ərazilər hamısı planlı şəkildə dövlət başçısının nəzarəti altında mərhələlərlə yenidən qurulacaq. Artıq quruculuq işləri aparılır, baş plan hazırlanır. Elə torpaqlarımızın işğaldan azad olunmasının ilk günündən rabitə və digər infrastrukturların qurulmasına başlanılıb. Bu günlərdə Şuşaya içməli su xətti çəkildi. Şuşanın baş planı hazırlanır, oradakı bütün tarixi abidələr, yaşayış binaları tikilib bərpa olunacaq. Hesab edirəm, ərazilərimiz yüksək səviyyədə yenidən qurulacaq.

**- Siz Şuşanın deputatı olaraq Qarabağın tacı olan şəhərin azad olunması xəbərini hansı hisslərlə qarşıladınız?**

- Noyabrın 8-də cənab Prezident o xoş müjdəni xalqa çatdıranda saat 12 radələrində mən ATV kanalında verilişdə idim. Verilişi dayandırdılar. Dedilər ki, Ali Baş Komandanın xalqa müraciəti olacaq və mən bu möhtəşəm xəbəri orada eşitdim. Cənab Prezident hərbi geyimdə Fəxri xiyabanda sanki Ulu öndərimizə deyirdi ki, sənin vəsiyyətini yerinə yetirdim, Şəhidlər xiyabanında isə şəhidlərimizə deyirdi ki, sizin qanınızı yerdə qoymadıq, Şuşanı azad etdik.

Bu, möhtəşəm bir məqam idi. Televiziyada hamımız ayağa qalxdıq, qəhərləndik, sevinc göz yaşları ilə qarşıladıq bu xəbəri.

Şuşanın azad olunması uğrunda bir həftədir qanlı döyüşlərin getdiyini artıq bilirdik. Mənim nəvəm Elmanlı Elbəy Elşən oğlu da digər igid balalarımızla bərabər Şuşa ətrafında döyüşürdü; noyabrın 4-də elə orada yaralandı. Təbii ki, bu döyüşlər barədə məlumatlar alırdıq, ancaq Qarabağın beşiyi Şuşamızın azad olunması xəbərini Ali Baş Komandanımız İlham Əliyevdən eşitmək hamımız üçün qələbə müjdəsi oldu. Bununla da müharibənin taleyinə nöqtə qoyuldu.

Şuşa Qarabağın paytaxtıdır, Şuşa Qarabağ xanlığının mərkəzidir və böyük siyasi, hərbi, strateji əhəmiyyətə malikdir. Erməni işğalçılarının onurğa sütunu onda qırıldı. Vaxt gələcək Şuşa uğrunda gedən döyüşlər haqqında, Azərbaycan oğullarının igidliyi haqqında kitablar yazılacaq, sıldırımlı qayalardan keçərək əlbəyaxa döyüşlərdə çoxsaylı işğalçı erməni hərbçilərini məhv edən cəsur oğlanlarımız haqqında dastanlar qoşulacaq. Bizim hər bir zabitimiz, hər bir əsgərimiz bu döyüşlərlə şanlı tarix yazdı.

**- Artıq Şuşada bərpa işlərinə başlanılıb. Əhalinin doğma evlərinə qayıtması hansı formada həyata keçiriləcək?**

- Bu proseslər tamamilə dövlət başçısının nəzarətindədir. Azad edilmiş ərazilərdə ilk növbədə yaşayış üçün təhlükəsizlik məsələləri həll edilir, infrastrukturun, kommunikasiyaların qurulması işləri aparılır. Ərazilərdə müvafiq dövlət orqanlarının fəaliyyəti bərpa olunur. Bu günlərdə Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Əli Nağıyevin iştirakı ilə qurumun Şuşa şöbəsinin açılışı olub.

Mənfur ermənilər işğal müddətində hər il may ayının 8-də Şuşada parad keçirirdilər. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz torpaqlarımızı işğaldan azad etdi və artıq hər il noyabrın 8-də bütün Azərbaycan xalqı qələbə bayramını atəşfəşanlıqla qeyd edəcək.

Cənab Prezident hərbi geyimdə Fəxri xiyabanda sanki Ulu öndərimizə deyirdi ki, sənin vəsiyyətini yerinə yetirdim, Şəhidlər xiyabanında isə şəhidlərimizə deyirdi ki, sizin qanınızı yerdə qoymadıq, Şuşanı azad etdik. Bu, möhtəşəm bir məqam idi. Televiziyada hamımız ayağa qalxdıq, qəhərləndik, sevinc göz yaşları ilə qarşıladıq bu xəbəri.



# Azərbaycan tarixinin ən şanlı dövrlərindən birini yaşayır

Azərbaycan tarixinin ən şanlı, şərəfli, qürurlu dövrlərindən birini yaşayır. Azərbaycan tarixin heç bir dönəmində bu qədər güclü və müstəqil olmamışdır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz tarixi torpaqlarını qısa müddətdə düşmən işğalından azad etdi. Xalqımız bu günləri səbirsizliklə gözləyirdi. Onlar Dağlıq Qarabağın işğaldan azad olunacağına, öz ata-baba torpaqlarına qayıdacaqlarına inamlarını heç zaman itirməmişdilər.

Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi dövrdə Azərbaycanda ictimai-siyasi vəziyyət çox gərgin idi. Dağlıq Qarabağda amansız döyüşlər gedir, Azərbaycanın rayonları ard-arda işğal olunurdu. Digər tərəfdən ölkə daxilində də vəziyyət sabit deyildi; iqtisadiyyat çökmüşdü, daxildəki siyasi qüvvələr arasında hakimiyyət uğrunda gərgin mübarizə gedirdi, Dağlıq Qarabağ münaqişəsinin həlli arxa plana keçmişdi. O dövrdə Dağlıq Qarabağın işğal olunmasında bu amillər çox ciddi rol oynadı.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ilk öncə atəşkəsin əldə edilməsinə nail olundu, sonrakı mərhələdə ölkədə sabitliyi, vətəndaş həmrəyliyini, iqtisadi inkişafı təmin etmək üçün zəruri addımlar atıldı. Bütün çətinlik və maneələrə baxmayaraq, Azərbaycan qısa müddətdə siyasi və iqtisadi böhrandan çıxdı, yeni neft müqavilələri imzalandı.



Ümummilli lider Heydər Əliyevin ən böyük arzularından və həllinə çalışdığı məsələlərdən biri də Qarabağın işğaldan azad olunması idi. O dövrdə onun rəhbərliyi ilə bu istiqamətdə çox böyük işlər görüldü. Ancaq ömrü bütün arzuların həyata keçməsi üçün vəfa etmədi.

İlham Əliyev hakimiyyətə gəldikdən sonra Ulu öndər Heydər Əliyevin bütün sahələrdə siyasətini uğurla və böyük uzaqgörənliklə davam etdirir. Dövlət başçısının həllinə çalışdığı əsas məsələlərdən biri də Dağlıq Qarabağın işğaldan azad olunması idi. Vəziyyətin kifayət qədər mürəkkəbliyinə, dünyada ikili standartların hökm sürməsinə baxmayaraq, Prezident İlham Əliyevin siyasi liderliyi və qətiyyəti sayəsində Ulu öndər Heydər Əliyevin arzusu gerçəkləşdi, Azərbaycan erməni işğalçılarını ağır məğlubiyyətə uğradaraq torpaqlarından qovdu.

Bu gün dünyada, o cümlədən keçmiş sovet məkanında bir çox münaqişə ocaqları var. Bütün cəhdlərə baxmayaraq, onların həlli perspektivləri hələ də görünmür. Azərbaycan isə Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini həll etdi. Bir neçə rayonu müharibə, 3 rayonu isə danışıqlar yolu ilə düşmən işğalından azad etdi. İllər keçsə də, Dağlıq Qarabağ münaqişəsinin keçdiyi həll yollarından hələ çox bəhs olunacaq.

Heç şübhəsiz ki, Azərbaycan münaqişənin həlli üçün tarixi məqam gözləyirdi. Paşinyan hakimiyyətə gəldikdən sonra Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, o, açıq-aydın Azərbaycan xalqının heysiyyətinə toxuna biləcək bəyanatlar verməyə, addımlar atmağa başladı. Tez-tez danışıqlar prosesinin ruhuna zidd açıqlamalar verdi, gah seçki, gah da andiçmə şouları təşkil etdi.

Əvvəlki dövrlərdə də Ermənistanın danışıqlar imitasiyası özünü açıq büruzə verirdi. Lakin Paşinyan hakimiyyətə gəldikdən sonra birbaşa danışıqların pozulmasına hesablanmış bəyanatlar verdi. Hətta düşmən o qədər azğınlaşmışdı ki, Ermənistandan Cəbrayıla yol çəkməyi planlaşdırırdı.

İşğaldan azad olunmuş rayonlarda aşkarlanan istehkamlar bir daha sübut edir ki, Ermənistan, ümumiyyətlə, bu əraziləri Azərbaycana qaytarmaq fikrində olmayıb. Olsa idi, bu qədər güclü istehkamları inşa etməzdi, Cəbrayıla yeni yol çəkməyi planlaşdırmazdı. Hətta ermənilər bu ərazilərdə böyük əkin işlərinə, Cəbrayılın münbit ərazilərində meyvə bağlarının salınmasına başlamışdılar.

Paşinyan siyasi yetkinliyinin olmaması səbəbindən Azərbaycan xalqının gücünü düzgün hesablaya bilmədi. O düşünürdü ki, xalqımızın heysiyyəti ilə oynaya bilər. Ancaq zaman ona böyük səhv etdiyini göstərdi. Azərbaycanda olan xalq-iqtidar birliyi dəmir yumruq kimi birləşərək ona layiqli cavab verdi. Azərbaycan "güclü Ermənistan ordusu" mifini darmadağın edərək qısa müddətdə öz torpaqlarını düşmən işğalından azad etdi. Ermənistan bu dərslərdən nəticə çıxarmalıdır. Əgər çıxarmasa, Azərbaycanın daha böyük zərbələri ilə üzləşəcək.

Cəbrayıl rayonu 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuşdur. Həmin dövrdə ölkədə vəziyyət, yuxarıda qeyd etdiyimiz kimi, sabit deyildi. O dövrdə siyasi səriştəsizlik, hakimiyyət uğrunda daxili çəkişmələr, vahid hakimiyyətin olmaması, ordu quruculuğu işinin düzgün qurulmaması düşmənlə mübarizə aparmağa imkan vermirdi. Ağdam rayonunun işğal olunması Cəbrayıl və Füzuli rayonlarının işğalı üçün real zəmin yaratdı. Beləliklə, 1993-cü il avqustun 18-də erməni işğalçıları şəhəri mühasirəyə aldılar. Cəbrayıl fədailərinin və Zəngilan rayonundan köməyə gələn özünümüdafiə qüvvələrinin bütün cəhdlərinə baxmayaraq, Cəbrayıl şəhəri 1993-cü il avqustun 23-də Ermənistan tərəfindən işğal olundu.



**Ceyhun Məmmədov**
Milli Məclisin deputatı

Onu da qeyd etmək lazımdır ki, Birinci Qarabağ müharibəsi gedişində Cəbrayıl əhalisi uzun zaman ərzində erməni işğalçılarına qarşı rəşadətlə vuruşmuşdu. İşğala qədər rayon ərazisi tam müdafiə edilmiş, bəzi hallarda qonşu Xocavənd rayonunun erməni işğalında olan bir sıra kəndləri rayonun polis işçilərinin və yerli əhalisinin iştirakı ilə Azərbaycan Ordusu tərəfindən azad olunmuşdu. Ümumilikdə Xocavənd rayonunun Cəbrayıl rayonu ilə qonşu olan 15 kəndi düşmən işğalından azad edilmiş, onların bəzilərinə Ermənistan ərazisindən etnik mənsubiyyətinə görə deportasiya olunmuş soydaşlarımız yerləşdirilmişdi.

1993-cü ilin avqust ayı ərzində rayon ərazisində fövqəladə vəziyyət elan edilmiş, erməni işğalçıları Azərbaycan Ordusunun hələ 1992-ci ilin yayında işğaldan azad etdiyi Xocavənd rayonunun kəndlərini yenidən işğal edərək Cəbrayıl şəhərinə yaxınlaşmışdı. Avqust ayında Cəbrayıl şəhəri güclü atəşə məruz qalmış, düşmən ordusunun atdığı “Qrad” mərmiləri şəhərin bir çox yerlərinə zərər vurmuş, əhali arasında ölənlər olmuşdu.

1993-cü il avqustun 15-də düşmən ordusu Cəbrayıl şəhəri yaxınlığında yerləşən Daşbaşı yüksəkliyini ələ keçirərək orada növbə çəkən 23 nəfər Cəbrayıl gəncini öldürmüş, onların meyitlərini tanınmaz hala salmışdı. Cəbrayıl əhalisi o günləri çox yaxşı xatırlayır.

Cəbrayılın işğalı nəticəsində rayonun 1 şəhəri, 4 qəsəbəsi, 92 kəndi erməni quldurları tərəfindən talan edilərək yandırılmış, 132-dən çox yerli əhəmiyyətli tarixi, mədəniyyət və dini abidələri erməni vəhşiliyinə məruz qalmışdır. Bununla bərabər rayon ərazisindəki 13147 fərdi yaşayış evi, 886 ictimai bina, 8 sənaye, 44 kənd təsərrüfatı, 149 mədəniyyət, 91 təhsil, 1 məktəbdənkənar müəssisə, 3 uşaq musiqi məktəbi, 1 texniki peşə məktəbi, 77 səhiyyə, 96 məişət xidməti obyekti, 65 rabitə, 56 körpü, 28 su anbarı, 32 nasos stansiyası, 65 km qaz kəməri, 11 tikinti müəssisəsi düşmən əlinə keçmişdir. Ümumiyyətlə, bu işğal nəticəsində rayona 5.346.654.240 AZN dəyərində ziyan vurulmuşdur. Erməni qəsbkarlarına qarşı mərdliklə döyüşən Cəbrayıl rayon sakinlərindən 400-ə yaxın şəhid olmuşdur ki, onlardan da 13 nəfəri yetkinlik yaşına çatmayanlar idi. Qanlı-qadalı döyüşlər nəticəsində rayon üzrə 8 uşaq müharibədə hər iki, 207 uşaq isə valideynlərindən birini itirmişdir. Torpaqların müdafiəsində qəhrəmanlıq göstərmiş həmyerlilərimizdən 6 nəfəri Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür. İşğal nəticəsində 52604 (hazırda 80032) Cəbrayıl rayon sakini ata-baba yurdlarından didərgin salınaraq məcburi köçkün kimi respublikanın 54 şəhər və rayonunda müvəqqəti məskunlaşmışdır.

Cəbrayıl Azərbaycanın təbii sərvətlərlə zəngin bölgələrindəndir. Rayonun ərazisi sement istehsalı üçün qiymətli xammal ilə, mərmər və başqa tikinti materialları və ehtiyatları ilə zəngindir. Əhali işğaldan

**“Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır”.**

**İlham Əliyev**





əvvəl əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul idi. Rayonda tikiş, xalça, cihazqayırma sexləri və müxtəlif sənaye obyektləri fəaliyyət göstərirdi.

Cəbrayıl rayonunun coğrafi ərazisində 4480 hektar çeşidli ağac və bitki növləri ilə zəngin meşə, 58686 hektar əkin və otlaq sahəsi, 1077 hektar meyvə və 5385 hektar üzüm bağları var idi. Uzaq əsrlərdən soraq verən Xudafərin körpüləri, bənzərsiz qədim memarlıq abidələri, yaşı yüzilliklərlə ölçülən nəhəng çinar ağacları, 118 kəhriz, 99 bulaq rayonun adını respublikada dillər əzbəri etmişdi.

Coğrafi baxımdan Cəbrayıl rayonu Kiçik Qafqaz dağlarının cənub-şərqində, Gəyən düzü və Qarabağ silsiləsində yerləşir. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir.

Cəbrayıl rayonu həm də Azərbaycanın tarixi abidələrlə zəngin bölgələrindəndir. Burada turizmin inkişafı üçün geniş imkanlar var. Qısa müddətdə turizm infrastrukturu yaradaraq buraya çoxlu turist cəlb etmək mümkündür.

Cəbrayıl həm də dünya və yerli əhəmiyyətli tarixi-memarlıq abidələri ilə zəngindir. Azərbaycan üzrə dünya əhəmiyyətli abidələrdən ikisi Cəbrayıl rayonunda yerləşir. Bunlar Araz çayı üzərindəki 11 aşırımlı və 15 aşırımlı Xudafərin körpüləridir. Xudafərin körpüləri Araz çayından cənubda və şimalda yerləşən Azərbaycanın orta əsr şəhərlərini birləşdirən karvan yolunun üstündə tikilib.

Təəssüflə qeyd etmək lazımdır ki, işğal edilmiş digər rayonlarımız kimi Cəbrayıl da ermənilərin vandalizminin qurbanına çevrilmişdir. Şəhər tamamilə dağıdılmış, bütün infrastruktur, bir çox tarixi abidələr yerlə yeksan edilmişdir. Cəbrayıllılar tam əmindirlər ki, Prezident İlham Əliyevin güclü iradəsi və qətiyyəti sayəsində Cəbrayıl rayonu qısa müddətdə tam bərpa olunacaq, burada böyük quruculuq işləri həyata keçiriləcək, Cəbrayıl Azərbaycanın ən abad və inkişaf etmiş rayonlarından birinə çevriləcək.

Qarşımızda Cocuq Mərcanlı nümunəsi var. 2016-cı ildə bu kiçik qəsəbə işğaldan azad olunandan sonra burada böyük quruculuq və abadlıq işlərinə başlanıldı. Qısa müddətdə çoxlu ev, məktəb, bağça, muzey və məscid inşa olundu. Bu kiçik qəsəbə ölkəmizin döyünən ürəyinə çevrildi. Azərbaycanın bu işləri həyata keçirməyə kifayət qədər gücü və imkanları vardır.

İşğaldan azad olunan Cəbrayıl rayonuna Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə səfəri zamanı Prezident İlham Əliyev demişdir: "Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik. Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq".

# Prezident İlham Əliyev Qarabağı Qafqazın ən abad məkanına çevirəcək



***Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına illərdən bəri dərin intizarla gözlədiyi tarixi hadisənin - torpaqların işğaldan azad olunmasının sevincini yaşatdı. 44 günlük Vətən müharibəsində ordumuz sözün bütün mənalarında qəhrəmanlıq, hərbi peşəkarlıq nümayiş etdirdi.***

***Baş Sərkərdəmiz hərbi əməliyyatları zəfərlə yekunlaşdırmaqla bərabər respublikamıza qarşı yönələn bütün siyasi-diplomatik həmlələri də müdriklik və peşəkarlıqla dəf etdi. Beləliklə, Prezident İlham Əliyev Azərbaycan tarixinin yeni, ən şərəfli səhifəsini yazdı!***

Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanat işğalçının kapitulyasiyasının hüquqi və rəsmi təsdiqi oldu. Bu bəyanatda nəzərdə tutulan məsələlər Azərbaycanın şanlı hərbi qələbəsinin nəticələri, Ermənistanın güc yolu ilə Prezident İlham Əliyevin şərtlərini yerinə yetirməyə məcbur edilməsidir. Bununla da Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Bakının Azadlıq meydanı bir neçə dəfə hərbi paradlara şahidlik edib. Amma dekabrın 10-da keçirilən parad fərqli idi. Çünki bu, Vətən müharibəsindəki qələbəmizin paradı idi. Bu, döyüşlərdən qalib çıxmış, düşməni dəmir yumruqla əzmiş şanlı ordumuzun qalibiyyət yürüşü idi. Bu, hər bir azərbaycanlının səbirsizliklə gözlədiyi bir tarix idi. Prezident İlham Əliyevin dediyi kimi, bu paradın xüsusi önəmi var: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu Zəfər paradıdır. Bu, tarixi hadisədir".

Bütün Azərbaycan xalqı kimi, biz ağdamlılar da əmin idik ki, Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi, Prezident İlham Əliyevin uğurla və qətiyyətlə davam etdirdiyi siyasi kursun nəticəsi olaraq günlərin birində torpaqlarımız, o cümlədən Ağdam düşmən tapdağından azad ediləcək. Hər gün bu arzu ilə yaşadıq, bu inamla torpaqlarımızın azad olunacağı tarixi gözlədik. Artıq Ağdamın hər yerində Azərbaycanın Dövlət bayrağı dalğalanır. Öz müdrik siyasəti, yüksək qətiyyəti və diplomatik ustalığı ilə İlham Əliyev Ağdamı bizə qaytardı.

Qeyd edim ki, vaxtilə düşmən torpaqlarımıza soxulanda Ağdam Qarabağın qeyri-rəsmi mərkəzinə çevrilmişdi. Azərbaycanın nəbzi burada döyünürdü. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi müstəviyə keçəndə, silahlandırılmış düşmən torpaqlarımıza hücuma başlayanda "Həyat" və "Azərbaycan" qəzetlərinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri - hərbi müxbiri olmuşam. O zaman nə internet var idi, nə də e-mail poçt. Yazılarımızı ya kiminləsə Bakıya göndərər, ya da özümüz gətirərdik. Bir ayağımız paytaxtda, biri bölgədə olardı. Odur ki, paytaxtda və döyüş cəbhəsində vəziyyəti şəxsən müşahidə edib öyrənmək, müqayisəli şəkildə təhlil etmək imkanımız vardı. Yekun qənaət isə daim belə olardı: Bakının müharibədən xəbəri yoxdur. Qarabağda qanlı döyüşlər gedir, paytaxtda isə hakimiyyət uğrunda mübarizə. İqtidara gələndən sonra müxtəlif partiyalara parçalanan AXC Bakıda "ikinci cəbhə" açmaqla əsl xəyanət yolu tutmuşdu; 1992-ci ildə parlament çevrilişi edərək, hətta Laçını və Şuşanı müdafiə etməli olan zirehli texnikanı, döyüşçüləri Bakıya gətirərək müdafiəni zəiflətmişdilər. Düşmən isə belə vəziyyətdən dərhal istifadə edirdi.

Əslində müharibə dövlət səviyyəsində aparılmırdı: nə ordu yaradılmışdı, nə də lazım olan silah, sursat var idi. Xalq öz gücü, öz vəsaiti hesabına könüllü özünümüdafiə dəstələri yaradırdı. Müxtəlif adlar daşıyan belə hərbi birləşmələr şəxsi igidliyə və şücaətə arxalanır, adətən bir-birləri ilə əlaqəli şəkildə hərəkət etmir, vahid komandanlığa tabe olmurdular. Silah-sursat, ərzaq təchizatı sistemi müharibə tələblərinə uyğun deyildi. Ancaq o zamankı ölkə başçıları müdafiəni təşkil etmədiklərindən, öz haylarına qaldıqlarından başqa çarə yox idi.

Ağdamın sayılıb-seçilən, sözü keçən igid oğlanlarının təşəbbüsü ilə müxtəlif könüllü özünümüdafiə dəstələri yaradılmışdı. Sonralar bu işə yeni yaradılan Müdafiə Nazirli-



**Bəxtiyar Sadıqov**
Milli Məclisin deputatı



yi də qoşuldu. Bu dəstələr rayonun yaşayış məntəqələrini müxtəlif istiqamətlərdən qoruyurdu: Milli Qəhrəman Şirin Mirzəyevin komandiri olduğu 836 nömrəli özünümüdafiə alayı, Milli Qəhrəman Allahverdi Bağırovun özünümüdafiə batalyonu, Milli Qəhrəman Asif Məhərrəmovun (Fred Asif) özünümüdafiə batalyonu, Yaqub Rzayevin (Qatır Məmməd) özünümüdafiə batalyonu, Ərşad Nadirovun "Kötəl" batalyonu, Ədalət Zeynalovun "Qıyaslı" batalyonu, Həsən Sarıyevin komandiri olduğu "Papravənd" rotası. Onlar Ağdamın müdafiəsində qəhrəmancasına dayanmışdılar.

Lakin düşmənin nizami ordu hissələrinin mövcudluğu, daha üstün silahlar və texnika ilə təmin edilməsi, AXC-Müsavat cütlüyünün ölkəni vətəndaş müharibəsinə sürükləməsi, igid oğul və batalyonların vahid ordu şəklində birləşdirilməməsi acınacaqlı nəticəsini verdi. Göstərilən kütləvi qəhrəmanlıqlara, verilən çoxsaylı şəhidlərə baxmayaraq, Ağdamı qoruyub saxlamaq mümkün olmadı.

Qeyd edim ki, Qarabağ müharibəsi dövründə ölkə üzrə verilən iyirmi min şəhidin altı minə yaxını Ağdamın payına düşür. Bununla yanaşı, ürəyinin hökmü ilə respublikanın hər yerindən könüllü olaraq gəlmiş, doğma Azərbaycanımızın coğrafiyasını əks etdirən igid, nər oğullar da Ağdam uğrunda, ərazi bütövlüyümüz uğrunda şəhid oldular. Biz ağdamlılar onların hamısını öz ağdamlımız hesab edirik, xatirələrini əziz tuturuq, heç zaman unutmuruq və unutmayacağıq da.

Havadarlarının köməyi ilə hücuma keçən düşmən 1993-cü il iyulun 23-də  Ağdamı ələ keçirdi. Həmin vaxtlarda yazdığım və "Azərbaycan" qəzetinin 1993-cü il 28 iyul tarixli nömrəsində dərc olunmuş "Müharibə ya qeyrətlə udular, ya siyasətlə" adlı yazımdan bir parçanı xatırladıram: "Düşmən Ağdama çoxdan dişini qıcatmışdı. Lakin beşillik müharibə dövründə Ağdamın qazandığı təcrübə, coğrafi mövqeyi elə idi ki, onu digər rayonlar kimi "bir həmləyə almaq" olmazdı. Həm də Ağdam Qarabağ uğrunda (əslində isə "Böyük Ermənistan"ın yaradılması yolunda) müharibədə

sonuncu və həlledici nöqtə olduğundan məqam gözləmək, geniş hazırlıq görmək lazım idi. Şuşa, Laçın, Kəlbəcər alınandan, Ağdərə qaytarılandan sonra növbə Ağdama çatmışdı. "Gəncə əməliyyatı" nəticəsində (Surət Hüseynovun məlum qiyamı - B.S.) respublikada yaranan gərgin vəziyyət isə əsl məqam idi.

Ermənistan Rusiyadan aldığı bütün silahı və zirehli texnikanı, habelə güclü təlim keçmiş külli miqdarda canlı qüvvəni Ağdamın üzərinə göndərmiş, hücum əməliyyatı diqqətlə hazırlanmışdı. "Gəncə əməliyyatı" ərəfəsində döyüş texnikası və canlı qüvvənin Gəncəyə və Bakıya göndərilməsindən istifadə edən düşmən mühüm strateji yüksəklikləri ələ keçirərək orada möhkəmlənmişdi. 24 kənd alındıqdan sonra mühasirə vəziyyətinə düşən Ağdam şəhərinin müdafiəçiləri qaçmaq və təslim olmaq niyyətində deyildilər. Ağdam 40 gün döyüşdü, 40 gün müdafiə olundu. Şəhərə saysız-hesabsız top və "Qrad" mərmiləri yağdırılsa da, müxtəlif növ silahlardan fasiləsiz atəşə tutulsa da, hətta dinc sakinlər oranı tərk etmir, kömək gələcəyinə, Ağdamın saxlanılacağına ümidlərini itirmirdilər. Heyhat! Rafaellinin (ATƏT-in o zaman fəaliyyətdə olan sədri - B.S.) gəlib-getməsi də ermənini ağıllandırmadı.

Ağdamın da düşmən əlinə keçməsi, yandırılıb-dağıdılması "bizim apardığımız" müharibənin qanuni və məntiqi yekunudur. Müharibə ya qeyrətlə udular, ya siyasətlə!"

Biz Ağdamdan çıxanda abad şəhər, kənd və qəsəbələr, işlək vəziyyətdə olan fabrik, zavod, müəssisələr, barlı-bəhərli bağlar, üzüm plantasiyaları, içi zəruri əşyalarla dolu evlər, mənzillər qoymuşduq. İndi isə xarabalıqlara, dağıdılıb viranə qalmış, bayquşlar ulayan məkana qayıtdıq.

Ağdamın erməni faşistləri tərəfindən xarabazara çevrilməsini bilirdim. Ara-sıra sosial şəbəkələrə sızan şəkil və video çəkilişlərini görmüşdüm. Dostlarımın, qohumlarımın "Google" vasitəsilə Ağdamdakı xaraba qoyulmuş evlərini tapıb baxdıqlarından da xəbərdar idim. Dəfələrlə mənə internet vasitəsilə ruhlar şəhərinə çevrilmiş Ağdama baxmağı tövsiyə də etmişdilər. Amma heç vaxt ürəyim gəlməmişdi, baxa bilməmişdim və baxmırdım. Erməni hər şeyi öz xislətinə, murdar mahiyyətinə uyğun olaraq dağıdıb. Bizə heç zaman unutmayacağımız və unudulması mümkün olmayan yaralar vurub.

"Biz şanlı qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik".

**İlham ƏLİYEV**

Biz güclü, arxalı, kömәkli düşmən qarşısında doğma yurd-yuvamızı məcburən tərk etmişdik. O dövrün ən varlı, ən abad yaşayış məntəqələrindən sayılan Ağdamı boşaltmışdıq. Çünki zəif idik, nə ordumuz vardı, nə rəhbərimiz, nə də sərkərdəmiz.

İndi isə cənab İlham Əliyevin simasında məğrur sərkərdə və müdrik rəhbəri olan qüdrətli ordu ilə geri qayıtdıq. Dağıdılmış, xarabalıqlara çevrilmiş, tanınmaz vəziyyətə düşmüş Ağdama qədəm qoyduq. Uzun sürən ayrılıqdan, doğma el-oba həsrətindən sonra, nəhayət, biz Ağdama qayıtdıq. Əsl həqiqət budur ki, bizi Ali Baş Komandan İlham Əliyev Ağdama qaytardı.

Düşmən arxasına baxmadan qaçdı! Çünki onu İlham Əliyev Qarabağdan iti qovan kimi qovdu!

Açıq desək, çoxumuz "Biz tezliklə doğma yurda qayıdacağıq" söyləsək də, əslində qayıdışa ümidimizi üzmüşdük. Bu, İlham Əliyev möcüzəsi oldu. Bu möcüzəni Prezidentimiz ölkəyə rəhbərlik etdiyi 17 ildə yaratmış, bizi qələbəyə, qayıdışa addım-addım yaxınlaşdırmışdı.

Həmin möcüzəli addımlar hansılardır? Ən əvvəl, İlham Əliyev uğurlu daxili və xarici siyasəti, həyat vəsiqəsi verdiyi transmilli layihələri hesabına Azərbaycana çoxlu pul qazandırdı. Elə həmin siyasətlə də dostlarımızın, sıx əməkdaşlıq etdiyimiz ölkələrin sayını artırdı. İlham Əliyev Ali Baş Komandan kimi güclü ordu qurdu, qazanılan vəsait və dostlar hesabına Azərbaycan Ordusunu ən yeni silahlarla təchiz etdi. Ordumuz ən yeni, hədəfi dəqiq vuran silahlarla, müasir taktiki variantlardan istifadə etməklə hərbi əməliyyatlar aparmağı da öyrəndi.

Eyni zamanda, İlham Əliyev Ermənistanın küçədən hakimiyyətə gəlmiş baş naziri Paşinyanın naşı hərəkətlərindən, məsuliyyətsiz bəyanatlarından onun öz əleyhinə



məharətlə istifadə etdi. Beynəlxalq qurum və təşkilatlarla sıx və səmərəli əməkdaşlıq etdi, BMT-nin tribunasından bacarıqla bəhrələndi. İlham Əliyev qabaqcadan informasiya müharibəsinə hazırlaşaraq bu sahədəki uğuru da təmin etdi, şəxsən özü dünya informasiya məkanında Azərbaycanın haqq işinin təbliği və Paşinyanın ifşası ilə bağlı intensiv və səmərəli fəaliyyət göstərdi. Ənənəvi müttəfiqlərinin Ermənistanı açıq-aşkar dəstəkləməsinin, kömək göstərməsinin qarşısını əvvəlcədən aldı. Dövlətimizin başçısı Türkiyə və Azərbaycan dostluğunu, qardaşlığını indiyədək olmamış səviyyəyə yüksəltdi.

Artıq Azərbaycanın ərazi bütövlüyü təmin olunub və indi azad edilmiş rayonlarımızın yaşayış üçün təhlükəsiz vəziyyətə gətirilməsi prosesi gedir. Bununla yanaşı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə hər bir rayon üzrə quruculuq-bərpa prosesi ilə bağlı baş plan və müvafiq layihələr hazırlanır. Şübhəsiz ki, Ağdam rayonu üzrə layihələr də oranın yeni inkişaf dövrünün təməli olacaq.

Prezident İlham Əliyev Ağdamı ziyarətində demişdir: “İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq”.

Ağdam işğaldan öncə Azərbaycanın mühüm iqtisadi, həmçinin sənaye potensialına malik rayonları sırasında idi. Ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik Ağdamda 27 sənaye və 29 kənd təsərrüfatı müəssisəsi, 39 tikinti təşkilatı və digər infrastruktur sahələri fəaliyyət göstərirdi. 950 nəfərin çalışdığı Ağdam Dəzgahqayırma Zavodunda istehsal olunan məhsullar keçmiş SSRİ-nin 125 şəhərinə göndərilirdi.

Kənd təsərrüfatının əsas istiqaməti, əsasən, pambıqçılıq, üzümçülük və heyvandarlıq idi. Böyük aqrar potensiala malik Ağdam torpaqlarının 92 faizi əkin üçün yararlı torpaqlardır. Kənd təsərrüfatı məhsullarının təkcə satışı deyil, həm də onların sənaye üsulu ilə hazırlanması və daxili bazara çıxarılması həyata keçirilirdi. 1860-cı ildə tikilən ilk şərab zavodunun Ağdamdakı müəssisələrində ötən əsrin 60-80-ci illərində istehsal olunan şərab məhsulları SSRİ-nin bütün respublikalarında satılırdı. Rayondakı Taxıl Məhsulları Kom-



binatı isə ildə 80 min ton məhsul istehsal edirdi.

Əminik ki, qarşıdakı dövrdə bu yüksək iqtisadi-sənaye potensialı yenidən bərpa edilməklə bərabər Ağdam yeni istehsal istiqamətləri, daha innovativ sənaye üzrə də ixtisaslaşacaq. XXI əsrin yeni tələbləri əsasında müasir sənaye müəssisələri, həmçinin daha səmərəli məhsuldarlığa malik fermer təsərrüfatları Ağdamın yeni iqtisadi simasını müəyyənləşdirəcək.

Eyni zamanda, Ağdam əsrarəngiz təbiəti, eramızdan əvvəlki dövrlərə gedib çıxan tarixi abidələri, müxtəlif dinlərin, sivilizasiyaların yadigarı olan, mənəvi dəyəri misilsiz olan məbədləri, həmçinin yenidən bərpa ediləcək mədəniyyət nümunələri, muzeyləri, atçılıq mərkəzi, bənzərsiz mətbəxi və digər bu kimi imkanları ilə yerli və xarici turizm üçün də cəlbedici olacaq.

Ağdam təbii coğrafi yerləşməsinə görə əvvəllərdə olduğu kimi yeni dövrdə də mühüm logistik məkana, nəqliyyat qovşağına çevriləcək. Elə möhtərəm Prezidentimiz İlham Əliyevin Ağdamla əlaqədar verdiyi ilk sərəncamın Bərdə-Ağdam dəmir yolu xəttinin çəkilməsi ilə bağlı olması da rayonun bu imkanlarını indidən yüksəldir.

1867-ci ildə açıldığı bilinən tarixi Ağdam bazarı da yeni dövrdə bölgənin nəhəng ticarət mərkəzi kimi rayonlar arasında iqtisadi münasibətləri təkmilləşdirən mükəmməl vasitə olacaq.

Bir məqamı da qeyd etmək istərdim ki, son 4 ildə nəzarətimizdə olan Ağdam kəndlərində məhsul istehsalı 70 faizdən çox artıb. Yəni bu camaat artıq bütövləşmiş Ağdamı zəhməti, bacarığı, istedadı, ən əsası da Prezident İlham Əliyevin dəstəyi və qayğısı sayəsində yenidən dirçəldəcək və rayonumuz qısa zamanda Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcək.

Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında Azərbaycan necə ki, tarixinin ən qüdrətli dövrünü yaşayır, əminik ki, tezliklə Qarabağ torpağı da Qafqazın ən inkişaf etmiş, ən abad mərkəzlərindən biri kimi tarixi şöhrət tapacaq.

***Ağdam Aran Qarabağın qapısıdır. Bu qapı həm də Dağlıq Qarabağa açılır. Ağdamın geriyə qaytarılması strateji uğurdur! Qarabağa qayıdışın, torpaqların işğaldan azad edilməsinin banisi və müəllifi isə məhz cənab İlham Əliyevdir!***

***Qədirbilən xalqımız bunu heç zaman unutmayacaq. Ümidləri çiçəkləndirdiyinə, doğma yurda dönüşü təmin etdiyinə görə qarabağlılar da, o cümlədən ağdamlılar da Ali Baş Komandana əbədi minnətdardırlar!***

***Qarabağ Azərbaycandır!***



# 28 ildə bir an da olsa LAÇINI unutmadıq...

## Müsahibimiz Milli Məclisin deputatı Mahir Abbaszadədir

**- Mahir müəllim, xalqımız zəfər gününün sevincini yaşayır. Bu qələbə bir Azərbaycan vətəndaşı kimi sizdə hansı hisslər yaratdı?**

- Azərbaycanın çoxəsrlik tarixinin ən parlaq səhifəsi - Zəfər günü yazıldı. 30 ilin nisgilinə, acısına son qoyuldu, ərazi bütövlüyümüz bərpa edildi. 30 ilə yaxın dövrdə öz ədalətli həllini gözləyən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 44 günlük müharibənin nəticəsində Azərbaycanın hərbi-siyasi qələbəsi, Ermənistanın kapitulyasiyası ilə başa çatdı.

Rəsmi Bakı dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından daim bəyan edirdi ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və ola da bilməz. Münaqişə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində öz ədalətli həllini tapmalıdır. 44 günlük müharibə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şücaəti



nəticəsində bu istəyimizi gerçəkləşdirdi. Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsinə nail olduq və bu nailiyyət nəticəsində Zəfər bayramını qeyd edirik. Zəfər bayramı hər bir azərbaycanlının neçə illər gözlədiyi və həsrətində olduğu hadisə idi. İkinci Qarabağ müharibəsi, eyni zamanda, 30 illik məcburi köçkün həyatımıza son qoydu. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, biz çox xoşbəxt insanlarıq ki, bu hadisələri öz gözlərimizlə görürük, bu hadisələrin iştirakçılarıyıq.

Bu zəfəri bizə nəsib edən Ali Baş Komandan İlham Əliyevə, müzəffər ordumuza təşəkkürümüzü bildiririk. Müharibədə şəhid olanların ruhu qarşısında baş əyir, Allahdan rəhmət diləyirəm. Onların valideynləri qürurludur ki, belə vətənpərvər, torpaq, Vətən uğrunda canlarından keçən övladlar yetişdiriblər. Yaralı döyüşçülərimizə şəfa diləyir, tezliklə sağalmalarını, normal həyata qayıtmalarını arzulayıram. Bütün Azərbaycan xalqına "Zəfər bayramınız mübarək!" deyirəm.

**- 10 noyabr üçtərəfli Bəyanatı dünyaya hansı reallıqlarımızı çatdırdı?**

- 44 günlük müharibə çərçivəsində dövlətimizin başçısı İlham Əliyev 3 cəbhədə mübarizə apardı: döyüş meydanında, diplomatik və siyasi müstəvidə. Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün səylər daha da artırıldı. Cənab İlham Əliyevin hər bir cəbhədə yüksək fədakarlığının şahidi olduq. Azərbaycan Ordusunun şücaəti nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərləri, 300-ə qədər yaşayış məntəqəsi, xeyli sayda strateji yüksəkliklər işğaldan azad edildi. Noyabrın 8-də Şuşanın, noyabrın 9-da 70-dən artıq kəndin azad olunması Ermənistanın diz çökməsi ilə nəticələndi. Ermənistan noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur edildi. Ölkə Prezidenti İlham Əliyevin söylədiyi kimi, məhz dəmir yumruq düşməni məcbur etdi ki, 30 illik işğala son qoysun. Azərbaycanın işğal altında olan Kəlbəcər, Ağdam və Laçın rayonları müharibəsiz geri qaytarıldı. Təbii ki, bütün bunlar Azərbaycan dövlətinin, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə apardığı mübarizəsinin məntiqi nəticəsi idi.

Noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması, eyni zamanda, onu göstərdi ki, möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, münaqişənin həm hərbi, həm də diplomatik həlli var. Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri problemin hərb yolu ilə həllinin mümkünsüzlüyünü bildirirdilər. Amma Azərbaycan dövlətinin apardığı uğurlu siyasət nəticəsində dünyaya göstərdik ki, münaqişənin həm hərbi, həm də diplomatik həlli var. Bu qələbə bir daha təsdiqlədi ki, dövlətimizin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan xalqı, onun qüruru, mənliyi, torpaqlarımızın işğaldan azad edilməsi ilə ərazi bütövlüyümüzün bərpa olunması dayanır ki, 44 günlük müharibə bizi bu istəklərimizə çatdırdı.

**- Mahir müəllim, 10 noyabr üçtərəfli Bəyanata əsasən tarixi sahibinə qaytarılan ərazilərimizdən biri də doğulub boya-başa çatdığınız Laçın rayonudur. 28 ilin gözləntisinə 44 gündə son qoymaq bir laçınlı kimi sizi hansı anlara qaytardı?**

- 1992-ci ildə Laçın rayonu işğal ediləndə 18 yaşım var idi. Təsəvvür edin, 28 illik həsrət... Bu gözləntim belə bir hesablamanı aparmağıma da əsas verdi ki, 2020-ci il dekabrın 1-də 28 il 6 ay 12 gün idi ki, Laçından ayrı düşmüşdük. Hər gün xəyalən rayonumuza, doğulduğum Güləbird kəndinə getsəm də, hər bir laçınlıda bu əminlik var idi ki, dövlətimizin qətiyyəti sayəsində bu xəyallar bir gün gerçək olacaq və oldu da... Laçın 28 ildən sonra azad edildi. Biz Laçınla yanaşı, bütün işğal altında olan torpaqlarımızın azad edilməsi sevincini yaşadıq. Dövlətimizin başçısı İlham Əliyevin 2019-cu ildə Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında səsləndirdiyi bu fikirləri yada salmaq istərdim: " Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir:



# Laçın dağlarından salamlar

"Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Həmin nida işarəsi 2020-ci il dekabrın 1-də Laçın rayonunda qoyuldu, ümumilikdə, Azərbaycanın ərazi bütövlüyü təmin olundu.

1992-ci ildə Laçın işğal edilərkən dağılan evlər, yanan bir kənd nə qədər ağır idisə, bu gün qaytarılan rayon, geri qayıdan bir kənd həmin acını unutdurur, 28 ilin nisgilindən sonra bu torpaqlara daha sıx-sıx bağlanmağa, onun hər daşının qədrini bilməyə çağırış edir. Necə ki, bu 28 ildə bir an da olsa Laçını unutmadıq. Övladlarımıza bu torpaqları görməsələr də, laçınlı, hətta hansı kənddən olduqlarını təbliğ etdik, bu torpaqlara qayıdacağımıza böyük inam yaratdıq. Bu günün hissləri tamamilə fərqlidir. Bir anlıq rayonla bağlı uşaqlıq xatirələrinə, məktəb illərinə qayıdır, xatirələrdən gerçəkliyə çevrilən günün sevincini yaşayırıq. Laçın bizim üçün torpağımız olmaqla yanaşı, bir qürur məsələsi idi. Hər bir insan bu həyatda bir ömür yaşayıb gedəcək. Düşünəndə ki, dünyadan Laçınsız köçəcəyik, bizə əzab verirdi. Artıq digər işğaldan azad olunmuş torpaqlarımızın sakinləri kimi, laçınlılar da məcburi köçkün olmadıqlarını böyük sevinc hissi ilə qeyd edirlər. Yaxın zamanlarda bu torpaqlara böyük qayıdışın şahidi olacağıq. Soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaq, yeni həyata başlayacaqlar.

**- Laçın rayonunun potensial imkanlarına bir nəzər salmağınızı istərdik.**

- Azərbaycanın bütün bölgələri çox qiymətlidir. Respublikamızın hansı rayonunu götürsək, istər tarixi abidələri, istər təbii sərvətləri, istər coğrafi, istərsə də iqtisadi mövqeyi ilə diqqət çəkir. Xüsusilə işğaldan azad edilmiş rayonlarımız böyük potensial imkanlara malikdir. Bu rayonlar istər iqliminə, istərsə də təbii sərvətlərinə görə Azərbaycanın iqtisadiyyatında mühüm rol oynayacaq bölgələrdir.

Tarixi abidələrimizlə bağlı deyə bilərəm ki, Laçın rayonunun Mirik kəndində hələ I-III minilliyə aid olan insan məskənlərinə, mağaralara rast gəlmək mümkün idi. Hansı ki, bu mağaralarda tapılmış insan sümükləri Füzuli rayonundakı Azıx mağarasında tapılmış insanın alt çənəsinin sümükləri ilə eyni tarixi özündə ehtiva edirdi. Əgər biz Laçın rayonunun tarixinə nəzər salsaq, VI-IX əsr Alban kilsəsinə rast gəlirik ki, bu, həmin ərazilərdə albanların yaşadığının təsdiqidir. Laçın rayonunun Cicimli kəndindəki XII-XIII əsrlərə aid olan Məlik Əjdər Türbəsi onu göstərir ki, bu rayonun ərazisində hələ qədim zamanlardan türklər yaşamağa başlamışdır. XVII əsrin söz-sənət sahibi Sarı Aşığın məzarı məhz Laçın rayonundadır. Azərbaycanda saz sənəti Sarı Aşığın adı ilə bağlıdır. Digər tarixi abidələrə də diqqət yetirsək, bütün bunların Laçın rayonunun qədimliyindən və burada qədim türklərin yaşamasından xəbər verdiyini görərik.

Laçın rayonunun sosial-iqtisadi vəziyyətinə gəldikdə bu rayon iqtisadi potensialına görə də Azərbaycanda xüsusi seçilən bölgələrimizdəndir. 28 illik işğal Laçın rayonunun potensialından istifadəyə imkan vermədi. Rayonda 1 şəhər, 1 qəsəbə və 125 kənd yerləşir. Ermənilər Laçın rayonunu işğal edərkən təxminən 100-dən artıq təhsil müəssisəsini, 100-dən artıq xəstəxananı və digər obyektləri, ümumiyyətlə, rayonun bütün infrastrukturunu dağıtmışdılar.

Təbii sərvətlərinə gəldikdə isə Laçın rayonu böyük su potensialına malikdir. Əgər nəzərə alsaq ki, Azərbaycanın mineral su ehtiyatlarının 40 faizi Laçın, Kəlbəcər və Şuşanın payına düşür, onda bu rayonların Azərbaycanın mineral su ehtiyatları ilə bağlı nə qədər böyük əhəmiyyəti olduğunu görərik. Bol su ehtiyatlarına malik olan rayonun ərazisindən axan Şəlvə və Minkənd

çayları birləşərək Həkəri çayını yaradır ki, bu çay da Araz çayına qovuşur. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, işğaldan azad edilmiş torpaqların və orada həyatın bərpası üçün, əlbəttə ki, çay resurslarımızın çox böyük əhəmiyyəti olacaq. Bu, özlüyündə kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərəcək amillərdən biridir.

Laçın rayonunun flora və faunasına diqqət yetirdikdə bura palıd, cökə, ağcaqayın, şam, göyrüş, qaraağac, akasiya, nadir və qiymətli ağac növü hesab olunan qırmızı palıd və müxtəlif növ yabanı meyvə ağacları olan meşə örtüyünə malikdir. Qırmızı palıd yalnız Azərbaycanın Laçın rayonunun meşələrindədir. Rayon təxminən 62 növ fauna və floradan ibarətdir.

Yeraltı və yerüstü sərvətlərə malik olan rayonun ərazisi narzan, istisu, turşsu kimi mineral bulaqlar, həmçinin qızıl, civə, kükürd, qrafit, əhəng daşı, kəhrəba, vulkanik tuf daşları, mərmər, ipək daşı və digər bu kimi faydalı qazıntılar ilə zəngindir.

Laçın rayonu geniş yaylaq sahəsinə və zəngin meşə massivinə malikdir ki, bu da heyvandarlığın inkişafına öz müsbət təsirini göstərir.

Rayonun coğrafi mövqeyi, malik olduğu resurslar Azərbaycanın sosial-iqtisadi inkişafına verəcəyi töhfələrin aydın mənzərəsini yaradır.

Rayon, eyni zamanda, strateji əhəmiyyətə malikdir. Laçın rayonu Ermənistanı Dağlıq Qarabağla birləşdirən dəhliz rolunu oynayır. Laçın işğal edildikdən sonra Ermənistanla Dağlıq Qarabağ arasında əlaqə yarandı və torpaqlarımızın işğalı asanlaşdı. Bu gün Laçının geri qaytarılması tarixi əhəmiyyət kəsb edir. Digər işğaldan azad edilmiş ərazilərimiz kimi, Laçında da üçrəngli bayrağımızın dalğalanması qürurverici, sabahımıza ümid, Azərbaycanın davamlı iqtisadi inkişafına böyük töhfələrin veriləcəyinə əminlikdir.

**- Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsində qələbəmizə həsr olunmuş Zəfər paradında qeyd etdiyi kimi, artıq yeni dövr - quruculuq dövrü başlayır...**

- Bəli, artıq işğaldan azad edilmiş torpaqlarımızda yeni həyat başlayır. Biz bu yeni həyat vasitəsi ilə dağılmış kəndləri, evləri bərpa edəcəyik. Bütün bunların hamısı Azərbaycanın iqtisadi və maliyyə imkanları hesabına gerçəkləşəcək. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, yeni dövr başlayır: quruculuq, inkişaf, azad edilmiş ərazilərimizin bərpası dövrü. Cənab İlham Əliyev bu əminliyi də ifadə edir ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik, güclü iradə nümayiş etdirəcək.

Ölkəmizdə hər kəs müşahidə etdiyi təcrübədən bilir ki, erməni vəhşi quldurları tərəfindən dağıdılan, viran qoyulan kəndlərimiz, şəhərlərimiz ən qısa zamanda



bərpa ediləcək, insanlarımız öz doğma yurdlarına qayıdacaqlar. Xatırlasaq, 2016-cı ildə Lələtəpə yüksəkliyini ermənilərdən azad etdikdən sonra Cəbrayılın Cocuq Mərcanlı kəndində həyatı bərpa etdik. Cənab İlham Əliyevin tapşırığı əsasında Cocuq Mərcanlıda 150-dən artıq evin tikilməsi, məktəbin və bağçanın fəaliyyət göstərməsi, Şuşa məscidinə bənzər məscidin tikilib istifadəyə verilməsi Azərbaycanın işğaldan azad olunmuş bütün ərazilərində istənilən quruculuq işlərinin aparılması ilə bağlı təcrübəni ortaya qoyur.

Artıq cənab İlham Əliyevin tapşırıqları əsasında işğaldan azad olunan ərazilərdə Azərbaycana dəymiş ziyan hesablanır, digər tərəfdən isə bu ərazilərin minalardan təmizlənməsi həyata keçirilir. Torpaqların minalardan təmizlənməsindən sonra dövlətimizin gücü, qüdrəti sayəsində işğaldan azad edilmiş ərazilərdə həyat bərpa olunacaq. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin Ağdama, Füzuliyə səfərləri zamanı qeyd etdiyi kimi, biz yenə də bu ərazilərdə müasir şəhərlər salacağıq, 30 il qaçqınlıq həyatı yaşayan soydaşlarımız öz ata-baba yurdlarına qayıdacaqlar. Laçınlılar da bu günü çox səbirsizliklə gözləyirlər.

**- Mahir müəllim, bütün sahələrdə davamlı inkişafa malik olan Azərbaycanın yeganə problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi də öz həllini tapdı. Azərbaycanın qarşıdakı illər üçün mənzərəsini necə ifadə edərdiniz?**

- Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu öndər Heydər Əliyev vaxtilə qeyd etmişdi ki, Azərbaycan dünyaya günəş kimi doğacaq. Mən düşünürəm ki, 2020-ci ildə cənab İlham Əliyevin rəhbərliyi ilə buna nail olduq. Azərbaycan xalqı yumruq kimi birləşərək torpaqlarını işğaldan azad etdi. Bu, bizim üçün həm ərazi baxımından əzizdir, həm də qürur məsələsidir. Müzəffər Ali Baş Komandanımız xalqımızın milli qürurunu özünə qaytardı.

Biz işğaldan azad edilmiş ərazilərə investisiya yatırıb yeni həyatı bərpa etməklə, eyni zamanda, ölkə iqtisadiyyatının inkişafına geniş imkanlar yaradacağıq. Digər tərəfdən, noyabrın 10-da imzalanmış Bəyanatın 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu, regionun iqtisadi inkişafına böyük töhfə olacaq.

Bir sözlə, 44 gündə Azərbaycanın yaratdığı yeni reallıqlar qarşıdakı illər üçün yeni imkanlar, yeni üfüqlər açır.

Bir daha xalqımızı tarixi qələbə münasibəti ilə təbrik edirəm. Eşq olsun Ali Baş Komandana! Eşq olsun Azərbaycan Ordusuna! Gözün aydın, Azərbaycan!





Laçın rayonunun Güləbird kəndi



# Ata ocağımı tez-tez yuxularımda görürdüm

Mənim uşaqlığım Füzulinin Aşağı Güzlək kəndində keçib. Rayonun ən ucqar yaşayış məntəqələrindən biri olan bu kənd Cəbrayıl və Dağlıq Qarabağa daha yaxın idi. Kənd sakinlərinin sayı təxminən 500 nəfərə çatırdı. Bütün uşaqlıq xatirələrim Füzuli ilə bağlıdır. Rayon ötən illər ərzində daim kino lenti kimi gözümün önündən keçib. Yuxularımda da tez-tez kəndimizi, oxuduğum məktəbi görmüşəm.

Rayon düşmən tərəfindən işğal olunduğu zaman Bakıda ali təhsil aldığım üçün orada deyildim, ancaq ağrı-acı dolu günləri çox gözəl xatırlayıram. Anam və kiçik qardaşım kənddə qalırdı. Mütəmadi olaraq ailəmi ziyarət etməyə gedirdim. Doğmalarımla Qarabağın son vəziyyətini müzakirə edirdik. Amma Füzulinin nə zamansa işğal olunacağını heç ağlımıza belə gətirmirdik. Sonuncu dəfə tətil vaxtı rayona gəldiyim avtobusu ermənilər güllə yağışına tutmuşdular. Artıq doğma kəndimiz erməni quldurları tərəfindən mütəmadi top və güllə atəşinə tutulurdu. Sonuncu dəfə kənddən ayrılanda rayon mərkəzinə və oradan da Bakıya getmək üçün avtomobil sifariş etmişdik. Səhər saat 10 radələri idi. Avtomobil gəldi, əşyalarımı maşına yerləşdirdim. Sürücüdən məni kəndin çıxacağında götürməsini xahiş etdim. Elə bil ürəyimə dammışdı ki, uzun müddət kəndə gələ bilməyəcəm. Piyada, sanki kəndimizin hər bir daşı və ağacı ilə vidalaşaraq oranı tərk etdim. Və 30 ilə yaxın



kəndimizi, sadəcə, yuxularımda görürdüm. Daha sonra anam və qardaşım məcburiyyət qarşısında evimizi tərk etdilər. Onu da deyim ki, anam kənddən çıxmaq istəmirdi. Təkcə anam yox, bütün kənd camaatı doğma yurdu tərk etmək fikrində deyildi. Dəfələrlə camaata xəbərdarlıq olunmasına baxmayaraq, heç kim doğma kənddən çıxmaq barədə düşünmürdü. Ancaq artıq getdikcə evlər dağıdılır, ailələr çarəsizlikdən kənddən çıxırdı. Onu da deyim ki, ailəmiz kənddən didərgin düşərkən, nə bir şəkil albomu, nə də bir sənəd götürə bilməmişdi. Çox ağrılı günlər idi... Ancaq müzəffər ordumuzun zəfəri o ağrılı günləri geridə qoyaraq bizə sevinc, qürur hissi yaşatdı.

## Dövlət-ordu-xalq birliyi bizi qalib etdi

27 sentyabr - Vətən uğrunda savaşın başlandığı gün. Bu, xalqımızın yaddaşından silinməyəcək bir tarixdir. Düşmənin təxribat xarakterli əməllərinə layiqincə cavab verən müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğalçılardan təmizləyərək bizi doğma Qarabağımıza, yurdumuza qovuşdurdu. Bu savaş dövlət-ordu-xalq birliyinin sarsılmaz olduğunu göstərdi.

Müharibənin hələ ilk günlərindən Füzuli rayonunda olub, həm millət vəkili, həm də bir vətən övladı kimi insanlarımıza dəstək olmağa çalışırdım. Yaşadıqlarımı, şahidi olduğum hadisələri hər za-



**Vüqar Bayramov**
Milli Məclisin deputatı




man böyük fəxarət hissi ilə anacağam. Örnək olaraq qeyd edim ki, Horadiz şəhərində yerləşən Füzuli Rayon Xəstəxanasına baş çəkən zaman iki hadisə məndə çox böyük qürur hissi yaratdı. Əvvəla, yaralılarımızın bir çoxu ilkin tibbi yardım aldıqdan sonra cəbhə bölgəsinə qayıdacaqlarını bildirirdilər. Həkimlər onlara daha bir neçə gün xəstəxanada qalıb müalicə olunmağı təklif etsələr də, mərd əsgərlərimiz döyüş xəttində öz əsgər yoldaşlarının yanında olmağa, vətən uğrunda döyüşü davam etdirməyə üstünlük verərək yenidən döyüşə qayıdırdılar. İkinci qürurverici fakt isə insanlarımızın fədakarlıq nümayiş etdirərək ordumuza dəstək olmağa çalışması idi. Belə ki, Füzuli Rayon Xəstəxanasının yaxınlığında özəl bir aptek yerləşir. Sentyabrın 27-si erməni təxribatı baş verəndən sonra aptek sahibi oranın açarını xəstəxananın baş həkiminə verib və deyib ki, nə qədər dərman lazım olarsa, pulsuz götürün. Həkimlər də əlavə dərman lazım olanda həmin aptekdən yararlanırdılar. Bu faktlar milli birliyin, xalqın orduya dəstəyinin təsdiqi idi. 44 günlük Vətən müharibəsində də zəfəri məhz bu birlik sayəsində əldə etdik. Qəhrəmancasına vuruşan, canlarını fəda edən şəhidlərimiz də oldu. Ancaq ordumuz geri çəkilmədən mərdliklə döyüşərək vətən övladlarına qələbə sevinci yaşatdı. Bu qürur, fəxarət hissini bizə yaşadanları daim böyük minnətdarlıqla anacağıq.

## Yeni dövrün başlanğıcı və ya yeni, güclü Azərbaycan

Şanlı Azərbaycan Ordusunun hərbi sahədə, müzəffər Ali Baş Komandanımızın diplomatiyada qələbəsi vətənimizə yeni nəfəs gətirdi. Azərbaycan artıq yeni quruculuq mərhələsinə keçid alır. Uzun müddət işğal altında olan torpaqlarımız xain düşmən tərəfindən dağıdılıb, talan edilib. Həmin ərazilərimizdə iqtisadiyyatın inkişafı və infrastrukturun bərpa edilməsi, həyatın, gülüşün qaytarılması naminə zəruri olan bütün addımlar atılacaq. Cənab Prezident çıxışında da qeyd etdiyi kimi, qısa müddətdə həyatın və gülüşün uzun müddət işğal altında olan ərazilərimizə qayıtmasını müşahidə edəcəyik.



Qeyd edim ki, işğaldan azad olunmuş ərazilərimizin kifayət qədər böyük iqtisadi potensialı var. Eyni zamanda, Füzuli rayonu iqtisadi potensialına görə seçilən rayonlardan biridir. Ərazisi 1386 km², əhalisi isə 150 min nəfərə yaxın olan Füzuli artıq bərpa və böyük quruculuq dövrünə qədəm qoymaqdadır.

Füzuli rayonu işğaldan öncə ölkəmizin iqtisadi gücə malik olan aparıcı bölgələrindən hesab olunurdu. Pambıqçılıq və taxılçılıq üzrə öndə olan rayonlardan biri kimi orada kənd təsərrüfatının digər istiqamətləri də inkişaf etmişdi. Rayon, eyni zamanda, sənaye məhsullarının istehsalına görə də fərqlənirdi. Füzuli rayonunda bir sıra təbii ehtiyatlar, o cümlədən inşaat materiallarının istehsalı üçün xammal bazası mövcuddur. Bu da imkan verəcək ki, sənayenin formalaşmasını, sənaye müəssisələrinin yaradılmasını həyata keçirmək mümkün olsun.

Füzuli rayonu turizm potensialına da malikdir. Xüsusən Dağlıq Qarabağa yaxın olan kəndlərinin təbiəti imkan verir ki, orada daxili turizm üçün yeni şərait yaransın. Şuşaya gedəcək yol, bununla yanaşı, Naxçıvan koridorunu birləşdirəcək dəmir yolu xətti də Füzuli rayonundan keçəcək. Nəticədə işğaldan azad olunmuş ərazilərimizin nəqliyyat qovşağı olaraq bunlardan iqtisadi baxımdan daha çox faydalanmasına imkan verəcək. Eləcə də bu, orada istehsal olunan məhsulların digər rayonların bazarına çıxarılması baxımdan da çox vacibdir.

Eyni zamanda, İran ilə sərhəddə yerləşən, Füzuli rayonu strateji coğrafi mövqeyə sahib olmaqla yanaşı, həmçinin Azərbaycanın xarici iqtisadi əlaqələrinə də töhfə vermək imkanlarına malik olacaq. Ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarasının yerləşdiyi Füzuli rayonu əlverişli təbiəti və füsunkar mənzərəsi ilə də fərqlənir. Bu, daxili, o cümlədən gəlmə turizm üçün yeni imkanlar deməkdir.

Füzulinin aparıcı iqtisadçıları ilə birlikdə Füzuli rayonunun sosial-iqtisadi inkişaf proqramının hazırlanmasına başlayacağıq. Burada hər bir yaşayış məntəqəsinin potensialına və xüsusiyyətinə uyğun olaraq iqtisadi fəaliyyətlər, sərmayə qoyuluşları müəyyənləşəcək, konkret iqtisadi və sosial tədbirlər planı təşkil ediləcək. Füzuli rayonu artıq yeni və tarixi mərhələyə qədəm qoyur. Bu imkanı bizə qismət edən Ali Baş Komandanımıza və Azərbaycan Ordusuna Füzuli sakinləri hər zaman minnətdar olacaqlar.





# Azərbaycanın qala qapısı, gözəlliklər diyarı - KƏLBƏCƏR



**Aqil Məmmədov**
Milli Məclisin deputatı

11 iqlim qurşağından 9-nun mövcud olduğu Azərbaycanın gözəlliklər diyarından biri də yeraltı və yerüstü sərvətləri ilə, fauna və florası ilə zəngin olan Kəlbəcərdir.

Bərdə-İstisu yolunun kənarında, Tərtər çayının sahilində yerləşən, adı "çay üstündə qala" mənasını verən Kəlbəcər rayonu ən qədim insan məskənlərindən biridir. Kəlbəcərdə ilk dəfə insan məskunlaşması üst paleolitə (eramızdan təxminən 35 min il əvvələ) təsadüf edir. Rayonun Qaragöl və Zalxa gölü sahillərində, Ayıçınqılı və Pəriçınqılı qayalarında həkk edilmiş qayaüstü təsvirlərin əksəriyyəti tunc dövrünə aiddir. Yüzilliklərin tarixini özündə yaşadan Löh, Comərd, Qalaboynu, Uluxanlı qalaları və Xudavəng alban monastırı Kəlbəcərin qədim yaşayış məskəni olmasını sübut edən əyani faktdır. Həqiqətən də, Kəlbəcər antik dövrün abidəsi kimi zəngin və maraqlı bir ərazidir.

Kəlbəcər inzibati ərazi vahidi kimi (rayon kimi) 1930-cu ildə təşkil edilmişdir. Dəlidağ, Keyti və Muravdoğ silsiləsi ilə əhatə olunmuş rayon öz sahəsinə görə respublikamızın ən böyük rayonudur.



1936 km² ərazisi olan Kəlbəcərin ən yüksək dağ zirvələri Camışdağ (3724 m) və Dəlidağdır (3616 m). Ən böyük çayı Tərtər və onun qolları olan Lev, Tutquçay, Meydan və Tatalılar çaylarıdır. Alagöllər, Novruzbatan göl, Qanlıgöl, Zalxa gölü və Qaragöl rayonda yerləşən ən böyük göllərdir.

Ümumi sahəsi 28,2 min hektar olan meşələr palıd, fıstıq, vələs, qaraağac, vən, cökə və digər bu kimi enliyarpaqlı ağaclarla zəngindir. Dağkeçisi, qonur ayı, qaban, daşlıq dələsi kimi heyvanlar və ular, qartal, eləcə də kəklik kimi quşlar vəhşi təbiətdə üstünlük təşkil edir.

Rayon qızıl, gümüş, uran, mis, molibden, perlit, kvars, civə və digər faydalı qazıntılarla zəngindir. Onun 3 mlrd. m³ ehtiyatı olan mərmər yataqları indiyədək istifadə olunmamışdır.

Kəlbəcər rayonu özünün müalicəvi istisu mənbələri ilə dünyada məşhurdur. Burada 12 istisu mənbəyi, 400-dən çox mineral bulaq və 3000-dən artıq adi bulaq vardır. İstisuyun tərkibi çox zəngindir, müalicəvi əhəmiyyətə malikdir, tərkibinə görə Karlovari (Çexiya) suyuna bərabər tutulur, hətta bəzi göstəricilərinə görə ondan da üstündür. İstiliyi 58 dərəcədir. Beləliklə, Kəlbəcər rayonu coğrafi mövqeyi baxımından ilin 4 fəsli istirahət, müalicə və idman turizm fəaliyyətləri üçün əlverişli bir bölgədir.

Kənd təsərrüfatı üçün geniş imkanlara malik olan rayonda böyük əraziləri əhatə edən geniş yay otlaq sahələri vardır. Belə ki, hələ Ermənistan işğalından əvvəl respublikamızın 22 rayonundan iri və xırdabuynuzlu heyvanlar Kəlbəcərin yay otlaq sahələrinə gətirilirdi.

Uzunömürlülər diyarı olan Kəlbəcərdə 120-150 il ömür sürən insanlara tez-tez rast gəlmək mümkün idi. 1988-ci ildəki qeydə alınmaya görə rayon üzrə uzunömürlülərin ümumi sayı 350 nəfər təşkil etmişdir.

Kəlbəcər həm də saz-söz beşiyi olmuşdur. Türk dünyasının azman aşığı Aşıq Ələsgərin də iştirakı ilə Miskin Abdal şəcərəsinin layiqli davamçısı olan Ağdabanlı şair Qurbanın və onun oğlu Aşıq Şəmşirin Ağdabandakı evində təşkil olunan "Qurban bulağı" məclisi Dədə Şəmşiri, Növrəs İmanı, Zodlu Abdullanı, Aşıq Bəstini, Bimar Əlini, Ayrım Əhmədi, Qamışlı Rüstəmi, Salman Uğurlunu öz ətrafına toplayaraq sözün dəyər və qiymətini bütöv türk dünyasına yaymışdır. Şair Qurban ocağından su içmiş Qara müəllim, Ənvər Rza, Bəhmən Vətənoğlu, Sücaət, Məmməd Aslan, Ovçu Ələsgər, Seyid Əli, Mirsəyyaf Zamanlı, Əlövsət Saldaş və digərləri türk şeir xəzi-





daim kəlbəcərli məcburi köçkünlərin bütün problemlərini xüsusi diqqət mərkəzində saxladı. Onlarla keçirdiyi görüşlərin birində uzaqgörənliklə dediyi: "Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri - bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar", - sözü Heydər Əliyev məktəbinin layiqli davamçısı, dahi siyasətçi və hərbi strateq, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirildi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfəri ilə başa çatan Vətən müharibəsi düşməni 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata (kapitulyasiyaya) imza

nəsinə misilsiz töhfələr vermişlər. Çox təəssüf ki, Kəlbəcərin işğalından bir il əvvəl, yəni 1992-ci il aprelin 8-də erməni quldurları rayonun Ağdaban kəndinə ağır texnikalarla hücum edərək, mülki əhaliyə amansız divan tutmuş, uşaqlar, qadınlar və qocalar da daxil olmaqla 33 mülki şəxs amansızlıqla qətlə yetirilmiş, xeyli sayda insan əsir götürülmüşdür. Məhz bu hücum nəticəsində Dədə Şəmşir və atası şair Qurbanın külliyyatı oda qalanmış, kənd əhalisinin var-dövləti talan edilərək yandırılmışdır.

Beş il düşmənə müqavimət göstərmiş Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də erməni faşistləri tərəfindən işğal edildi. Bu dövrdə rayon üzrə 224 hərbi və 258 nəfər mülki şəxs şəhid oldu. 111 nəfər əsir alındı və ya itkin düşdü. 13000 yaşayış evi, 500 ictimai bina, 96 məktəb, 76 səhiyyə və 172 mədəniyyət obyekti, 62 körpü, 92 km su xətti, 820 km elektrik xətti, 91 tarixi abidə düşmən tərəfindən yer üzündən silindi. Vətəndaşlara məxsus olan 100000 baş mal-qara, 500000 baş davar, 15000 baş at, 50000 arı ailəsi, 650 ədəd minik maşını və çoxlu sayda məişət avadanlıqları və Qarabağ xalçaları düşmən tərəfindən Ermənistana aparıldı.

57000 nəfər kəlbəcərli respublikamızın 54 rayonunun 1000-ə yaxın yaşayış məntəqəsində məskunlaşaraq məcburi köçkün həyatı keçirməyə məcbur edildi.

1993-cü il aprelin 30-da BMT TŞ erməni silahlı birləşmələrinin Kəlbəcər rayonundan qısa müddətdə, qeyd-şərtsiz çıxarılması haqqında 822 saylı qətnaməni qəbul etməsinə baxmayaraq, həmin qətnamə 27 ildə, sadəcə olaraq, kağız üzərində qaldı. Bu münaqişəni həll etməli olan ATƏT-in Minsk qrupu isə məqsədli şəkildə fəaliyyətsizlik göstərərək bu problemi həll etməkdən yayındı.

1993-cü ilin təlatümlü iyun günlərində xalqın yekdil təkidi və tələbi ilə hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə



atmağa məcbur etdi. Sənədə əsasən Ermənistan hələ də tam azad edilməmiş Ağdam, Laçın və Kəlbəcərdən döyüşsüz geri çəkilmək barədə öhdəlik qəbul etdi. 2020-ci il noyabrın 25-də işğalçılar Kəlbəcər rayonunu tamamilə tərk etdilər. Lakin geri çəkilməzdən əvvəl bütün ərazilərdə 27 ildə yaşadıqları evləri və ictimai binaları tamamilə yandırdılar, ağacları doğradılar, apara bilmədikləri bütün heyvanları tələf etdilər. Bütün dünya, özlərini bəşəriyyətə “yazıq və mədəni” bir millət kimi sırımağa çalışmış bu mağara adamlarının əsl goreşən xislətini öz gözləri ilə gördü.

Bu gün müzəffər Azərbaycan Ordusu Kəlbəcər rayonuna tam nəzarət edir. Kəlbəcər hazırda minalardan təmizlənir, Murov-Kəlbəcər yolunda əsaslı təmir işləri aparılır, Kəlbəcər rayonunda dövlət strukturlarının fəaliyyəti bərpa edilir, Kəlbəcərə çəkiləcək işıq, qaz və su xətlərinin layihələri hazırlanır. Kəlbəcər şəhərinin və bütün kəndlərin baş planının hazırlanmasına başlanılmışdır.

İşğaldan əvvəl 57000 nəfər, hazırda 78000 nəfər olan kəlbəcərlilər doğma yurdlarına qayıdış gününü, o müqəddəs anı səbirsizliklə gözləyirlər.

Bu qələbə sevincini bizə yaşadan müzəffər Azərbaycan Ordusunun şəhid olmuş hər bir əsgər və zabitinə uca Allahdan rəhmət, yaxınlarına başsağlığı verirəm. Vətən uğrunda yaralanmış qazilərə isə şəfa diləyirəm.

***Yaşasın Ali Baş Komandan!***
***Yaşasın Azərbaycan Ordusu!***
***Eşq olsun Azərbaycan xalqına!***
***Yaşasın bütöv türk birliyi!***

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfəri ilə başa çatan Vətən müharibəsi düşməni 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata (kapitulyasiyaya) imza atmağa məcbur etdi. Sənədə əsasən Ermənistan hələ də tam azad edilməmiş Ağdam, Laçın və Kəlbəcərdən döyüşsüz geri çəkilmək barədə öhdəlik qəbul etdi. 2020-ci il noyabrın 25-də işğalçılar Kəlbəcər rayonunu tamamilə tərk etdilər.





# Qələbəyə yol açdı mərd Ali Baş Komandan

*Qoca  tarix, oyan, dur, dinlə haqqın səsini,*
*Eşit xalqın sədaqət, ədalət  nağməsini,*
*Bas sinənə ordumun azadlıq töhfəsini.*
*Gülən tək mən deyiləm, gülür torpaq, yurd, cahan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Sinəmizdə düşmənin sağalmayan izi var,*
*Elimdə, torpağımda xainlərin gözü var,*
*Xalqımın qatillərə deyiləsi sözü var.*
*Faşistlərə heç zaman verilməyəcək aman,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Biz haqdan doğulmuşuq, haqqa qurban canımız,*
*Ah çəkmərik haqq üçün tökülsə də qanımız,*
*Tanrının əlləriylə yazılıb fərmanımız.*
*Haqqa dönük çıxana bir an da verməri̇k can,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Nadanlığa, fitnəyə, yalana sipərik biz,*
*Ədalət, həqiqətik, dözümük, təpərik biz,*
*Vətən, torpaq yolunda əyilməyən ərik biz.*
*Keçilməz səngərləri ordumuz keçdi asan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Ədalətin yolunda çox dərd görüb başımız,*
*Bələlara qatlaşıb bacımız, qardaşımız,*
*İllərlə əsir qalıb torpağımız, daşımız.*
*Artıq qisas çağıdır bunu bilir hər insan,*
*Qələbəyə yol açdı  mərd Ali Baş Komandan!*

*İgid əsgər şimşəyə dönüb, saxlamaq olmaz,*
*O deyir ki, yurdumun qisası yerdə qalmaz,*
*Düşmənin çəkdiyi dağ çox dərindir, sağalmaz.*
*Şəhidlərin ruhuna eyləməliyik dərman,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Dünya eşitsin bizi, biz haqqa yol açırıq,*
*Ədalətə, birliyə, düzlüyə qol açırıq,*
*Ölümdən, fələkətdən, iftiradan qaçırıq.*
*Öz andını, sözünü xalqa eylədi  bəyan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*O xalqın görən gözü, o xalqın sərkərdəsi,*
*Torpağımın, yurdumun, millətimin haqq səsi,*
*Əbədidir zəfərim,  qələbə təntənəsi.*
*Tanrım, sərkərdəmizin köməyində bərk dayan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Üz-üzə dayanıbdır həyat-ölüm, xeyir-şər,*
*İnsanlıqla vəhşilik, sevinc ilə qəm, kədər,*
*Sülh, səadət uğrunda vuruşur igid əsgər.*
*Zəfər müjdəsi ilə üfüqdə söküldü dan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Bu xalq səbrin qəzəbə çevirəndə uzaq dur,*
*Baxmaz ölümə, qana qılınca dönər qürur,*
*Gör dünən gülən düşmən bu gün boynunu burur.*
*Haqqın əli yapışıb boğazından qusur qan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Çox qərarlar, qanunlar oxunmadı, atıldı,*
*Haqq, ədalət  boğuldu, nadanlara satıldı,*
*Xalqın başı çox zaman boş vədlərlə qatıldı.*
*Dözdük, durduq, gördük ki, keçməyir qərar, fərman,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Arzumuz, istəyimiz, diləyimiz Vətəndir,*
*Arxamız, köməyimiz,  gərəyimiz Vətəndir,*
*Canımız, ciyərimiz, ürəyimiz Vətəndir.*
*Türkiyə sağ qolumuz , sol qolumuz Pakistan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Qarabağ qatillərə yurd - yuva ola bilməz,*
*Bu yurda qaniçənlər meylini sala bilməz,*
*Bir olsa sülh sevənlər dünya dağıla bilməz.*
*Haqq səsimə bir səs ver, oyan, ey bəşər, oyan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Ali Baş Komandanın andı, sözü qətidir,*
*Bu and xalqa, vətənə sonsuz məhəbbətidir,*
*Dünyanı heyran qoyan əzmi, cəsarətidir.*
*Hünərin varsa, düşmən, zərbəsinə döz bir an,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

*Xalq rəhbərə dayaqdır, o da xalqla öyünür,*
*Gələcəyə nur saçır, hər ürəkdə döyünür,*
*Qələbə müjdəmizə insan, vətən sevinir.*
*Tarix yazdı ordumuz, qalibdir Azərbaycan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!*

**Tahir Rzayev**
Milli Məclisin Aqrar siyasət komitəsinin sədri



# ELMAN MƏMMƏDOV – 70

***Hörmətli Elman müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış ictimai xadimi, "Azərbaycan bayrağı" ordenli Qarabağ müharibəsi veteranını anadan olmağınızın 70 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz Dağlıq Qarabağın Xocalı şəhərindən pərvazlanaraq Bakıda V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda riyaziyyat müəllimi, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda isə politoloq ixtisaslarına yiyələnmisiniz. Pedaqoji təhsilinizi başa vurduqdan sonra doğma Xocalıya qayıdaraq əmək fəaliyyətinə başlamısınız. 1973-1985-ci illərdə Xocalı kənd orta məktəbində müəllim, direktor müavini, direktor vəzifələrində çalışaraq gənc nəslin təlim-tərbiyəsində yaxından iştirak etmisiniz.*

*1985-ci ildən Xocalı Kənd Tərəvəzçilik-Südçülük Sovxozunun Partiya Komitəsinin katibi vəzifəsində işləmisiniz. 1987-1991-ci illərdə öncə Xocalı Kənd, sonra isə Xocalı Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitələrinin sədri kimi məsul vəzifələrdə çalışdığınız dövrlərdə təşkilatçılıq qabiliyyətinizlə kollektivin və rayon sakinlərinin rəğbətini qazanmısınız. Məsuliyyətli və bacarıqlı kadr kimi irəli çakilmiş, Xocalı Ərazi Partiya Komitəsinin birinci katibi və Xocalı Ərazi İcraiyyə Komitəsinin sədri vəzifələrinə yüksəlmisiniz.*

*Elman müəllim, 1991-ci ilin payızında Sizə Xocalı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsi etimad edilib. Təəssüf ki, 1992-ci il fevralın 26-da erməni vandalizminin Xocalıda törətdiyi soyqırımı doğma el-obanızda qurub-yaratmaq arzularınızı yarımçıq qoyub, amma əzminizi azalda bilməyib. Uzun illər başçılıq etdiyiniz Xocalı Rayon İcra Hakimiyyəti o məşum gecədə ev-eşiyindən didərgin salınmış xocalıların ümid qapısı olubdur.*

*Siz ölkənin ictimai-siyasi həyatında gedən proseslərə prinsipial vətəndaş mövqeyindən yanaşan YAP üzvü kimi etimad qazanaraq beş dəfə dalbadal - II, III, IV, V və VI çağırış Milli Məclisə seçkilərdə deputat mandatı qazanmısınız. Hazırda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü kimi ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak edirsiniz. Siz Milli Məclislə Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli əməkdaşlıq üzrə parlamentlərarası komissiyasının üzvü, həmçinin Milli Məclisin ABŞ, Belarus, Fransa, Polşa, Rumıniya, Rusiya və Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi səmərəli fəaliyyət göstərirsiniz.*

*Elman müəllim!*

*Sizi ömrünüzün bu müdrik çağında 70 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, ictimai-siyasi fəaliyyətinizdə uğurlar diləyir, Sizə uzun ömür, möhkəm can sağlığı, növbəti ad günlərinizi və yubileylərinizi doğma Xocalıda qeyd etmənizi arzulayıram.*

*Hörmətlə,*

**SAHİBƏ QAFAROVA**

***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

Bakı şəhəri, 18 oktyabr 2020-ci il



# NİZAMİ SƏFƏROV - 60

***Hörmətli Nizami müəllim!***

*Sizi – Milli Məclisin deputatını, Hüquq elmləri doktorunu anadan olmağınızın 60 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm!*

*Siz hələ gənc yaşlarınızdan hüquqşünas olmaq arzusuyla Azərbaycan Dövlət Universitetinə daxil olub, bu ali təhsil ocağını fərqlənmə diplomu ilə bitirmisiniz. Hüquq elminə olan sonsuz marağınız sayəsində SSRİ Baş Prokurorluğunun Elmi-Tədqiqat İnstitutunda elmi işlə məşğul olmağa başlayıb, sonra isə Moskva Dövlət Universitetinin Hüquq fakültəsinin əyani aspiranturasında təhsil almısınız. 1988-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək Hüquq elmləri namizədi elmi adını aldıqdan sonra Siz Elmlər Akademiyasının Fəlsəfə və hüquq İnstitutunda elmi işçi, sonra isə şöbə müdiri, Ədliyyə Nazirliyinin Hüquq Kadrlarını Təkmilləşdirmə İnstitutunun prorektoru, bu nazirliyin Beynəlxalq hüquq əməkdaşlığı şöbəsinin rəisi vəzifələrində işləyib, Mərkəzi Seçki Komissiyasının üzvü və sədr müavini olmusunuz.*

*Siz uzun illər Milli Məclisin Aparatında da çalışıb, əvvəlcə Konstitusiya qanunvericiliyi şöbəsi müdirinin müavini, sonra isə 20 ildən artıq bir müddətdə İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri kimi uğurla fəaliyyət göstərmisiniz.*

*Ölkəmizin elmi ictimaiyyəti Sizi həm də hüquq elminə dair dəyərli monoqrafiyaların və məqalələrin müəllifi kimi tanıyır. Bu əsərləriniz elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.*

*Elmi araşdırmalarınızın nəticəsi olaraq 2008-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin doktorantı kimi dissertasiya müdafiə edib, Hüquq elmləri doktoru elmi adını qazanmısınız. Savadlı hüquqşünas olmağınız diqqətdən kənarda qalmayıb, BMT-nin Cinayətkarlıq İdarəsinin Terrorçuluğun qarşısının alınması bölməsinin eksperti təyin edilmisiniz.*

*Siz uğurlu fəaliyyətiniz nəticəsində seçicilərin etimadını qazanıb və müstəqil Azərbaycanın VI çağırış Milli Məclisinin deputatı seçilmisiniz.*

*Bu gün Milli Məclisin deputatı, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, həmçinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin üzvü kimi qanun yaradıcılığı işində yaxından iştirak edirsiniz.*

*Siz həm də Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Türkiyə, Pakistan, Böyük Britaniya, Almaniya, Polşa, Latviya, Litva, Estoniya, Xorvatiya, Kanada və Yunanıstanla parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, MDB PA-da Sosial siyasət və insan hüquqları komissiyasının sədri, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli əməkdaşlığı üzrə parlamentlərarası komissiyanın üzvü kimi parlament diplomatiyasının inkişafına öz töhfənizi verirsiniz.*

*Hörmətli Nizami müəllim!*

*Sizi 60 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, ömrünüzün bu kamillik çağında Sizə uzun ömür, can sağlığı və işlərinizdə yeni-yeni uğurlar diləyirəm!*

*Hörmətlə,*

**SAHİBƏ QAFAROVA**

***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

Bakı şəhəri, 30 noyabr 2020-ci il




# HƏMRƏYLİK AZƏRBAYCAN DÖVLƏTİNİN TARİXİ ZƏFƏRİNİN RƏHNİDİR



**Aydın Hüseynov**
Milli Məclisin deputatı

Azərbaycanın Dağlıq Qarabağ və ətraf ərazilərində Prezident İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisəsidir. Çünki tarixin ən müxtəlif dövrlərində azərbaycanlıların iştirak etdikləri müharibə və yürüşlərdə qazanılmış qələbələrdən heç birində Azərbaycan faktoru indiki qədər mühüm yer tutmamış, ümummilli əhəmiyyət kəsb etməmişdir. Dağlıq Qarabağda və ətraf rayonlarda qazanılmış böyük Zəfər məhz Azərbaycan naminə, Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir.

Heç şübhəsiz ki, işğal olunmuş Azərbaycan ərazilərinin düşmən əsarətindən xilas edilməsinin ilkin təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər bütün beynəlxalq tədbirlərdəki çıxışlarında, xarici dövlətlərdə keçirdiyi görüşlərdə, xüsusilə də diaspora nümayəndələri, dünya azərbaycanlıları ilə dialoqu zamanı Dağlıq Qarabağın xalqımıza məxsus olmasını bəyan edib, bu münaqişənin ilk növbədə sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunmasına tərəfdar olduğunu, dialoqla tarixi ədaləti bərpa etməyə səy göstərdiyini bildirsə də, mühari-



bə yolu ilə də qələbəyə nail olmaq variantını istisna etməyib. Heydər Əliyev müstəqil dövlətin milli ordu quruculuğunun əsaslarının yaradılması, silahlı qüvvələrimizin peşəkar kadrlarla, yeni nəsil mütəxəssislərlə, müasir texnika ilə təchiz edilməsi istiqamətində əhəmiyyətli addımlar atıb. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının Dağlıq Qarabağda və ətraf ərazilərdə tam və qəti qələbəyə nail olması kimi tarixi missiyanı layiqincə həyata keçirib.

Prezident İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət Dağlıq Qarabağda böyük qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Prezident İlham Əliyev 2016-cı ildə Lələtəpədə və 2018-ci ildə Naxçıvanda uğurlu döyüş əməliyyatlarına rəhbərlik etməklə, torpaqlarımızın bir hissəsini düşməndən azad etməyə nail olub. Cəbhədəki uğurlu Lələtəpə və Naxçıvan əməliyyatları və Cocuq Mərcanlı qəsəbəsinin salınması vaxtilə görkəmli dövlət xadimi Heydər Əliyevin Horadizi düşməndən xilas edərək, təmas xəttində normal həyatın bərqərar olunmasının yaradıcı şəkildə davam etdirilməsi kimi də mühüm əhəmiyyətə malik hadisə idi. Bu mənada, Tovuz hadisələrindən sonra artıq heç kəsdə şübhə yox idi ki, tezliklə Dağlıq Qarabağ və ətraf rayonlar işğaldan azad olunacaq.

Azərbaycanın beynəlxalq nüfuzunun artırılması, etibarlı müttəfiqlərin və tərəfdarların qazanılması qələbəyə doğru gedən yolun əhəmiyyətli hadisəsi hesab olunurdu. Beynəlxalq təşkilatlar və region dövlətləri arasında ölkəmizin qazandığı yüksək etimad böyük zəfərin əldə edilməsinin əsas faktorlarından biri oldu. Beynəlxalq münasibətlərdə illər uzunu bütün ölkələrlə sağlam əlaqələr yaradan Azərbaycan Respublikasının qazandığı yüksək etimad Vətən

> “Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”
>
> **Heydər Əliyev**




müharibəsində dövlətimizin haqlı mövqeyinin düzgün qavranılmasını və dəstəklənməsini şərtləndirdi.

Əlbəttə ki, ən mühüm olanı dünyanın istənilən ölkəsi ilə müqayisədə Azərbaycanda yaranmış çox möhkəm xalq-iqtidar birliyi də Böyük Zəfərə təminat verdi. Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin ən böyük dayağı Azərbaycan xalqı oldu. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, əlli milyondan çox Azərbaycan xalqı Vətən müharibəsində birmənalı şəkildə Prezident İlham Əliyevi yüz faiz dəstəklədi. Bu məqamda Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, diaspor təşkilatlarının yaradılması və fəaliyyətinə dövlət səviyyəsində dəstək verilməsi etibarlı təməl rolunu oynadı. Söz yox ki, dünya azərbaycanlıları əzəldən Dağlıq Qarabağın işğaldan azad olunacağı günü səbirsizliklə gözləyirdi. Zəfər gününün olacağını illərdir siyasi-ideoloji baxımdan mənimsəyən dünya azərbaycanlıları hər bir fəaliyyətində, addımında böyük qələbənin əldə olunmasına öz töhfəsini verməyə çalışdı.

**Dünya azərbaycanlılarının bu iradəsinə əsaslanan, çoxmilyonlu Azərbaycan xalqının lideri kimi İlham Əliyevin möhkəm siyasi iradəsi, sərkərdəlik məharəti, diplomatik bacarıqları, dərin analitik təfəkkürə, xarici dillərdə sərbəst nitq mədəniyyətinə malik olması faktorları istənilən məqamda, xüsusən Vətən müharibəsi kimi çətin və məsuliyyətli sınaqda xalqımıza böyük uğur qazandırdı.**

Bu məqamda bir haşiyə çıxaraq maraqlı bir məsələni qeyd etmək yerinə düşər. 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanın Tovuz rayonu istiqamətində sərhəd təxribatı törədərkən dünya azərbaycanlıları Azərbaycan dövlətinin maraqlarını müdafiə etmək məqsədi ilə dünya miqyasında hərəkətə keçdilər; istər real, istərsə də virtual aləmdə gördükləri işlərlə 50 milyonun vahid orqanizm kimi hərəkət etdiyini, düşündüyünü isbatladılar. Dünya azərbaycanlılarının bu iradəsinə əsaslanan, çoxmilyonlu Azərbaycan xalqının lideri kimi İlham Əliyevin möhkəm siyasi iradəsi, sərkərdəlik məharəti, diplomatik bacarıqları, dərin analitik təfəkkürə, xarici dillərdə sərbəst nitq

mədəniyyətinə malik olması faktorları istənilən məqamda, xüsusən Vətən müharibəsi kimi çətin və məsuliyyətli sınaqda xalqımıza böyük uğur qazandırdı.

Prezident İlham Əliyev 30 il davam etmiş Dağlıq Qarabağ münaqişəsinin həllində Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və vəsiyyət etdiyi tarixi bir missiyanı uğurla başa çatdırdı. Artıq 44 günlük müharibə tariximizin ən şanlı səhifələrindən birinə çevrilib. Dövlətçilik baxımından son dərəcə əhəmiyyətli olan bu mühüm hadisə siyasi varislik cəhətdən də mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmiş 8 noyabr Zəfər günü çoxəsrlik Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış parlaq hadisədir. Bu, Ali Baş Komandan İlham Əliyevin, xalqımızın və rəşadətli ordumuzun qazandığı böyük tarixi zəfərdir. Ali Baş Komandan İlham Əliyevin və qəhrəman Azərbaycan Ordusunun qazandığı böyük Zəfər günü ölkəmizə, regiona və dünyaya daha böyük zəfərlər vəd edir...

Əlbəttə ki, Prezident İlham Əliyev xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir, hər zaman ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında konsolidasiyasına çalışır. Bu baxımdan, Prezident İlham Əliyev dünyadakı 50 milyonluq azərbaycanlının dəstəyini həmişə alıb, onların alternativsiz namizədi və lideri olub. Bu fəaliyyətin ən ümdə cəhətləri xaricdəki azərbaycanlıların ana vətənimizin maraqları ətrafında daha sıx səfərbər olmaları və ən əsası Azərbaycan həqiqətlərinin dünyada eşidilməsidir. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişaf yolunda qazandığı ardıcıl uğurlar bütün dünya azərbaycanlılarını qəlbən sevindirir. Azərbaycanın Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırır, onların müstəqil dövlətimizin xoşbəxt gələcəyinə inamının, özünüdərk hissinin güclənməsinə, ümummilli maraqlar ətrafında sıx birləşməsinə yaxşı zəmin yaradır. Bu mənada Azərbaycan dövlətinin güclənməsi soydaşlarımızın xaricdəki diaspor təşkilatlarının fəaliyyətinə də müsbət təsir edir. Odur ki, dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımız Azərbaycanın müstəqil siyasət yeritməsindən, dünya birliyində mövqelərini daha da möhkəmləndirməsindən, eyni zamanda, həyata keçirilən diaspor siyasətindən məmnunluq duyurlar. Təbii ki, qazandığımız bütün uğurlar xaricdəki soydaşlarımızı da sevindirir, həm də onlara yaşadıqları ölkələrdə olan ehtiramını daha da yüksəldir. Əlbəttə, dövlətimizin bugünkü uğurlarında onların da xidmətləri təqdirəlayiqdir. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilir.

> Prezident İlham Əliyev daim 50 milyonluq dünya azərbaycanlılarının dəstəyini alıb, onların alternativsiz namizədi və lideri olub. Bu fəaliyyətin ən ümdə cəhətləri xaricdəki azərbaycanlıların ana vətənimizin maraqları ətrafında daha sıx səfərbər olmaları və ən əsası Azərbaycan həqiqətlərinin dünyada eşidilməsidir.

Ulu öndərin əbədiyaşar ideyalarına əsaslanan müstəqil dövlətimiz bu gün dünya azərbaycanlılarının birliyini qorumaq üçün üzərinə düşən tarixi missiyanı böyük məsuliyyətlə və layiqincə həyata keçirir. Çünki ölkəmizin inkişafı və beynəlxalq nüfuzu həm də bu sahədə daha güclü və uğurlu siyasətin həyata keçirilməsini təmin edir. Sözsüz ki, hər bir sahədə əldə olunan nailiyyətlər növbəti ildə də yüksək templə davam etdiriləcək və harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız Azərbaycanın bugünü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər.

Heç kəsdə şübhə yoxdur ki, Zəfər günü bundan sonra 50 milyonluq Azərbaycan xalqının, dünya azərbaycanlılarının böyük həvəslə qeyd edəcəyi ümummilli bayrama çevriləcək. Bundan sonra xalqımız, eləcə də dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-ni - Dünya Azərbaycanlılarının Həmrəylik Gününü böyük həvəs və coşqu ilə qeyd etdiyi kimi, Zəfər gününü də eyni coşqu ilə bayram edəcək. Bu bayram ildən-ilə daha geniş vüsət alacaq, daha geniş şəkildə keçiriləcək. Azərbaycanı özünə tarixi vətən bilən hər bir şəxs həmrəy olaraq Zəfər gününü də 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi bayram edəcək. Ümummilli lider Heydər Əliyevin "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrildiyini bir daha təsdiqləyəcək.



# MÜZƏFFƏR PREZİDENT:
## HƏRBİ VƏ DİPLOMATİK ZƏFƏR

Tarix şəxsiyyətlər yetişdirir. Bu, aksiomdur. İsbata ehtiyacı olmayan digər həqiqət də ondan ibarətdir ki, şəxsiyyətlər də tarix yaradır. Burada qarşılıqlı asılılıq mövcuddur. Bu asılılığın unikallığı ondadır ki, tarix özünün mürəkkəb çağlarını yaşayarkən daha səxavətli olur. Dühalar doğulur. Onlar da tarixə borclu qalmırlar. Missiyaları xilaskarlıq olur; tarixin, dövlətin və millətin xilaskarı missiyası. Həmin missiyanı müasir Azərbaycan dövlətçiliyi tarixində Ümummilli lider Heydər Əliyev yerinə yetirdi. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı. Azərbaycan xalqı dövlətçilik qarşısında müstəsna və misilsiz xidmətlərinə görə Heydər Əliyevə əbədi olaraq minnətdardır. Həm də ona görə minnətdardır ki, Ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 17 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",- qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır.

Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 17 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarı ilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu coxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq cevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Dəfələrlə bu həqiqətin şahidi olmuşuq. Həmin həqiqətlərdən bir neçəsi üzərində dayanaraq yuxarıda səsləndirdiyimiz fikir və mülahizələrimizi əsaslandıraq. Məlum həqiqətdir ki, 2009-cu ildə ABŞ başda olmaqla Qərb dövlətlərinin təzyiqi nəticəsində Türkiyə-Ermənistan sərhədlərinin açılması prosesi kritik mərhələyə daxil olmuşdu. Hətta iş o yerə gəlib çatmışdı ki, Qərb siyasi dairələri həmin il aprelin 6-7-də İstanbul şəhərində "Sivilizasiyalar alyansı" adlanan bir tədbir təşkil edib, orada ABŞ-ın yeni Prezidenti Barak Obamanın və dövlət katibi Hillari Klintonun Prezident İlham Əliyev ilə görüşünü keçirməyi hədəfləmişdilər. Məqsəd bu görüş çərçivəsində Azərbaycanın dövlət başçısının məlum məsələdə tutduğu güzəştsiz mövqeyinə təsir edib, onu istədikləri istiqamətdə dəyişməkdən ibarət idi. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın fövqəldövlətinin rəhbəri ilə görüşdən unikal diplomatik manevr hesabına faktiki olaraq imtina etdi. Bununla da hələ 23 yaşında ikən SSRİ Xarici İşlər Nazirliyinin məşhur Beynəlxalq Münasibətlər İnstitutunda diplomatiya ixtisasının incəliklərini tədris etməsinin təsadüfi olmadığını bir daha sübut etdi. Son nəticədə, böyük dövlətlər arxasında xalqı dayanan Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsini nəzərə almaq məcburiyyətində qaldılar. Türkiyə-Ermənistan sərhədləri bugünə kimi bağlıdır. Onların açılması baglanmasına səbəb olan amillər aradan qaldırıldıqdan sonra mümkündür. Bu, hər iki qardaş dövlətin rəhbərləri olan cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın zamanın sınağından şərəflə çıxmış ortaq mövqeyidir.

Prezident İlham Əliyevin bütün diplomatik addımları milli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanmışdır və bir çox hallarda siyasi opponentlərin intellekti imkan vermir ki, onlara vaxtında düzgün adekvat reaksiya versinlər. Belə unikal və uzağagedən siyasi məqsəd daşıyan addımlardan birini Prezident İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Bu xəbəri eşidən kimi radikal siyasi ünsürlər hay-həşir qaldırdılar ki, mövcud iqtidar Azərbaycanı Avroatlantik məkana inteqrasiya xəttindən uzaqlaşdırır. Bu, az qala dövlətçiliyimizin itirilməsinə bərabərdir və s. Sonralar həmin ünsürlər öz aralarında etiraf etmək məcburiyyətində qalacaqlar ki, İlham Əliyevin bu siyasi gedişinin arxasında dayanan əsl mətləbi vaxtında dərk edə bilməyiblər. Mətləb isə ondan ibarət idi ki, mahir diplomat və dövlət xadimi olan İlham Əliyev Azərbaycanın dünyanın nəhəng universal beynəlxalq təşkilatı olan BMT TŞ-ya üzv olmasını əsas siyasi hədəf kimi müəyyən etmişdi. Bu hədəf xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı hesabına reallaşa bilərdi. Bu halda tərkibində 193 dövlətin olduğu BMT-dən sonra sayca ikinci mövqedə dayanan Qoşulmama Hərəkatına (QH) üzvlük həmin məqsədin reallaşması üçün əlavə və geniş imkanlar pəncərəsi aça bilərdi. Elə belə də oldu. 2011-ci il oktyabrın 24-də BMT TŞ-ya keçirilən seçkilərdə QH üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səs ilə iki il müddətinə BMT TŞ-nin qeyri-daimi üzvü seçildi. Azərbaycan Respublikası müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi boyük intellekt, iradə və qətiyyət sahibi olan Prezident İlham Əliyev idi.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbayca-



**Elman Nəsirov**
Milli Məclisin deputatı

nın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda, ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir. Bu baxımdan 2017-ci ilin fevral ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeri Gerasimov ilə ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri, general Cozef Danfordun, həmin ilin sentyabr ayında general Valeri Gerasimov ilə NATO Hərbi Komitəsinin rəhbəri, general Peti Pavelin, 2018-ci ilin aprel və dekabr aylarında general Gerasimov ilə NATO-nun Avropadakı Birləşmiş Hərbi Qüvvələrinin Baş Komandanı Kertis Skaparatti, 2019-cu ilin iyul ayında Rusiyanın eyni ali hərbi rəhbərliyi ilə NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters arasında və nəhayət, 2019-cu ilin noyabr ayında Rusiya müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimov və NATO-nun Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı ser Stüart Piç arasında görüşlərin Bakıda keçirilməsi təsadüfi sayılmamalıdır.

> "Müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və güclüsənsə, haqlısan məntiqi hökm sürür",- deyən Prezident İlham Əliyev böyük uzaqgörənlik nümayiş etdirərək ordu quruculuğu məsələlərini prioritet sahə kimi müəyyən etmiş və bu istiqamətdə möhtəşəm addımların atılmasını təmin etmişdir.

Məhz iti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin son 17 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı coxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə alsaq ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir, bu baxımdan bir sıra nüfuzlu ekspertlərin "müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək",- fikri təsadüfi sayılmamalıdır. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Dövlət başçısının qeyd etdiyi kimi, "neft kəmərlərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Eyni zamanda, ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı". Söhbət ilk növbədə "Cənub" qaz dəhlizindən gedir. Onun yaradılması istiqamətində ilk addım olaraq 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu, növbəti ildə isə TANAP-ın çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı. Bu prosesdə ən əsas halqalardan biri sərmayə qoyuluşu ilə bağlı idi. 2013-cü ildə bu məsələ də öz müsbət həllini tapdı. "Şahdəniz-2" layihəsinə investisiya qoyuluşuna dair qərar qəbul edildi. 2014-cü ildə isə "Cənub" qaz dəhlizinin Bakıda təməlqoyma mərasimi keçirildi. 2015-ci ildə Qarsda TANAP-ın təməlqoyma mərasimi oldu. 2016-cı ildə anoloji addım TAP layihəsi ilə bağlı atıldı. Nəhayət, 2018-ci il mayın 29-da "Cənub" qaz dəhlizinin, iyunun 12-də isə TANAP-ın rəsmi açılış mərasimləri oldu. 2019-cu il noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı oldu. TAP üzrə işlər özünün yekun mərhələsindədir.

Prezident İlham Əliyev "Cənub" qaz dəhlizi layihəsinin uğurunu təmin edən səbəblərdən bəhs edərkən xüsusi olaraq aşağıdakı amilləri ön plana çəkmişdir: "Birincisi, bu layihə enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabəti özündə ehtiva edir. İkincisi, bu layihədə istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni burada uduzan tərəf yoxdur. Üçüncüsü, siyasət və enerji bir-birindən ayrı olmalıdır. Enerji siyasi alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, "Cənub" qaz dəhlizi sazişində göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasət ayrılanda uğur əldə edilə bilər".

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı.

Son 17 il ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda çox böyük nəqliyyat layihələri icra olunmaqdadır. "Şərq-Qərb" nəqliyyat marşrutu artıq reallaşıb. 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Hazırda "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər görülməkdədir. Azərbaycan ərazisində bu dəhlizlə



bağlı bütün işlər yerinə yetirilmişdir. Bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün də imkanlar yaratmışdır. Artıq ölkəmizdən keçən "Şimal-Qərb" nəqliyyat dəhlizi və hələ ki, istismara verilməyən, lakin potensialı olan "Cənub-Qərb" nəqliyyat dəhlizi çox böyük layihələrdir. Xüsusilə 2019-cu ildə Azərbaycanın qlobal nəqliyyat qovşağı kimi statusu daha da möhkəmlənmişdir. Çindən gələn ilk qatar Bakı-Tbilisi-Qars dəmir yolundan keçərək Avropaya çatmışdır. Milli iqtisadiyyata təkan verəcək, daşınma xərclərini azaldacaq dəmir yolu sistemi müasirləşdirilib və bu proses davam etməkdədir.

Təsadüfi deyildir ki, Davos Dünya İqtisadi Forumunun 2019-cu il üçün qiymətləndirməsinə əsasən, Azərbaycan dəmir yollarının səmərəliliyinə görə dünyada 12-ci, hava yollarının səmərəliliyinə görə isə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu dünyadakı beşulduzlu 10 hava limanından biridir. Azərbaycan yolların keyfiyyətinə görə dünyada 27-ci, infrastrukturun keyfiyyətinə görə isə 34-cü yerdədir.

Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofobiya kimi təhlükəli meyillərin bir sira dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

"Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm dövlət siyasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir",- deyən Prezident İlham Əliyevin təşəbbüsü ilə "Bakı prosesi"nin əsası qoyulmuşdur. Bu təşəbbüs BMT çərçivəsində yüksək dəyərləndirilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtı ikiillik fasilə ilə iki müxtəlif mədəniyyətin daşıyıcılarının böyük idman bayramlarına - 2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarına və 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etmisdir.

2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün keçirilməsi və quruma sədrliyin Azərbaycana həvalə edilməsi, 25-26 oktyabr tarixlərində Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşünün keçirilməsi və Azərbaycana tərkibində BMT-yə üzv dövlətlərin 2/3-nin təmsil olunduğu bu nəhəng beynəlxalq quruma 3 il müddətinə sədrlik etmək hüququnun verilməsi, 14 noyabr tarixində Bakı şəhərinin Dünya Dini Liderlərinin II Bakı Sammitinə ev

sahibliyi etməsi, 2019-cu il oktyabrın 25-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə baş tutacaq Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququnu qazanması, həmin ildə Çin Xalq Respublikası ilə iqtisadi və siyasi münasibətlərini daha da inkişaf etdirərək Azərbaycanın "bir kəmər, bir yol" təşəbbüsündə "orta marşrut"un fəal və mühüm iştirakçısı kimi yerini möhkəmləndirməsi və digər bu kimi mühüm tədbirlər, heç şübhəsiz, müəllifi Prezident İlham Əliyevin olduğu Azərbaycanın müstəqil və milli maraqlara söykənən fəal xarici siyasət kursunun böyük uğurları kimi qiymətləndirilməlidir.

Bundan savayı, Prezident İlham Əliyevin müəyyən etdiyi dinamik xarici siyasət kursunun tələblərinə uyğun olaraq Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının dərinləşdirilməsi istiqamətində sanballı addımlar atılmışdır. Avropa İttifaqı ilə münasibətlərin yeni mərhələyə keçidini təmin edəcək genişmiqyaslı "Strateji tərəfdaşlıq" sazişinin hazırlanması prosesində Azərbaycan öz milli maraqlarından çıxış edir və danışıqlar prosesi sonuncu mərhələdədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə aparılan genişmiqyaslı islahatlar kursu beynəlxalq aləmdə də olduqca yüksək qiymətləndirilir. Məsələyə bu xüsusda yanaşdıqda ABŞ-ın kifayət qədər nüfuzlu "İrs" Fondunun 2020-ci ilin mart ayında təqdim etdiyi dünyanın 180 ölkəsi üzrə "İqtisadi azadlıq indeksi"ndə Azərbaycan mövqeyini 16 pillə yaxşılaşdıraraq 44-cü yerə sahib olmuşdur. Azərbaycan dünyada "iqtisadi azadlıq" indeksini ən çox təkmilləşdirən 11 ölkə sırasındadır.

Xalq ona görə Prezidentini sevir ki, o, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diqtəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır.

Bu gün müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. Noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. Noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid belə vermədən işğaldan azad edildi. Ordumuzun qazandığı tarixi zəfər heç bir halda təsadüfi olmayıb, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

> Ölkəmizdə qısa zaman ərzində 20-dən artıq hərbi zavodun işə salınması və müasir hərbi-sənaye kompleksinin formalaşması tarixi nailiyyət hesab olunmalıdır. 5-ci nəsil silahların dünyanın aparıcı silah ixracatçılarından alınması və bu sahədə də uğurlu şaxələndirmə siyasətinin tətbiq edilməsi ölkəmizə təkcə hərbi deyil, həm də siyasi dividentlər gətirmişdir.

"Müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və güclüsənsə, haqlısan məntiqi hökm sürür",- deyən Prezident İlham Əliyev böyük uzaqgörənlik nümayiş etdirərək ordu quruculuğu məsələlərini prioritet sahə kimi müəyyən etmiş və bu istiqamətdə möhtəşəm addımların atılmasını təmin etmişdir. Olkəmizin büdcə zərfində müdafiə xərcləri hər zaman üstün mövqeyə malik olmuşdur. 2003-cü ildən 2018-ci ilədək Azərbaycanın müdafiə büdcəsi 15 dəfə artmışdır. Əgər 2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 135 milyon dollara bərabər idisə, 10 il sonra 3,7 milyard dollara yüksəlmişdir. Cari ildə ölkəmizin müdafiə büdcəsi 3 milyard 853 milyon 600 min manat təşkil edir. Bu, 2019-cu ilin hərbi büdcəsi ilə müqayisədə 20,9%, yaxud 666 milyon manat çoxdur. 2021-ci ildə isə müdafiə xərcləri büdcənin 15,3%-ni təşkil edəcəkdir. Bu göstərici 3 milyard 954 milyon manata (2 milyard 326 milyon dollar) bərabər olacaqdır. Stokholm Beynəlxalq Sülh Problemlərinin Tədqiqi İnstitutunun 2019-cu il hesabatına görə, Azərbaycan ÜDM-də hərbi xərcləri 4% və ondan çox olan 10 dövlət sırasında yer almışdır. Təsadüfi deyildir ki, 2019-cu ildə Azərbaycanın hərbi büdcəsi 1,85 milyard dollar olmaqla Ermənistanın anoloji büdcəsini təxminən 3 dəfə (650 milyon dollar) üstələmişdir. 2019-cu ilin göstəricilərinə əsasən, dünyanın ən güclü orduları sırasında Azərbaycan 52-ci, Ermənistan isə 96-cı mövqedə olmuşdur. Hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yeri tutmuşdur. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdə, Ermənistan isə dəniz ölkəsi

olmadığından bu sahədə imkanları sıfra bərabər hesab olunmuşdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan isə 2 dəfədən də aşağı göstəriciyə (78) malikdir. Fərq göz qabağındadır. Əlavə şərhə ehtiyac yoxdur.

Ölkəmizdə qısa zaman ərzində 20-dən artıq hərbi zavodun işə salınması və müasir hərbi-sənaye kompleksinin formalaşması tarixi nailiyyət hesab olunmalıdır. 5-ci nəsil silahların dünyanın aparıcı silah ixracatçılarından alınması və bu sahədə də uğurlu şaxələndirmə siyasətinin tətbiq edilməsi ölkəmizə təkcə hərbi deyil, həm də siyasi dividentlər gətirmişdir. Ordumuzda döyüş ruhu və hərbi vətənpərvərlik hissinin ən yüksək səviyyəsi təmin edilmişdir. Ordumuz vətən qarşısında xilaskarlıq missiyasını həyata keçirdiyindən intəhasız motivasiyaya malik olduğu halda, düşmən ordusu öz işğalçı mahiyyəti səbəbindən bütün bunlardan məhrumdur.

Ali Baş Komandanımızın böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, qonşu dövlətlər olaraq, Rusiya, İran və Gürcüstanın işğalçının hüquqazidd addımlarını buxovlayan davranış nümayiş etdirməsi və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi Vətən müharibəsində Azərbaycanın tam qələbəsini təmin edən həlledici amillərdir. O qələbə ki şəhidlərimizin ruhunu şad etmişdir, o qələbə ki Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Ağdamı, Kəlbəcəri, Laçını, Hadrutu, Suqovuşanı, Şuşanı və bütövlükdə işğal altındakı bütün ərazilərimizi öz əbədi sahibinə -Azərbaycan xalqına qaytarmışdır.




Bu məqamda Rusiyanın tanınmış ictimai xadimi, Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksandr Duqinin fikirlərinə istinad etmək yerinə düşər: "Düşünürəm, hazırda İlham Əliyev dünyada bir nömrəli siyasətçidir. Son illər ərzində heç bir siyasi liderə İlham Əliyev qədər öz xalqı və dövlətinin milli maraqlarının müdafiəsi işinin öhdəsindən belə parlaq səviyyədə gəlmək nəsib olmamışdır". Sitatın sonu. Əlavə şərhə ehtiyac yoxdur.

***Yaşasın Heydər Əliyev siyasi kursu! Yaşasın xilaskar Ali Baş Komandanımız! Yaşasın müzəffər Azərbaycan Ordusu! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!***

# Müharibə cinayətləri törədənlərin cəzalandırılması qaçılmazdır

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuzun əks-hücum tədbirləri nəticəsində torpaqlarımızın 30 illik işğaldan azad edilməsi Azərbaycan tarixinin ən mühüm hadisəsi kimi yaddaşlara yazıldı.



**Nizami Səfərov**
Milli Məclisin deputatı

"Dəmir yumruq" əməliyyatı nəticəsində uzun illərdən bəri ikili standartlar mövqeyindən çıxış edən bir sıra dövlətlərin və bəzi beynəlxalq təşkilatların Dağlıq Qarabağ probleminin həllinin hərbi yolu olmaması barədə tezisi darmadağın edilərək BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri dövlətimiz tərəfindən icra olundu. Bir daha xatırlatmaq lazımdır ki, beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə görə əsas məsuliyyəti daşıyan Təhlükəsizlik Şurasının hər dörd qətnaməsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü birmənalı olaraq təsdiq edilirdi (30 aprel 1993-cü il tarixli 822 saylı qətnamənin preambulasının 7-ci bəndi, 29 iyul 1993-cü il tarixli 853 saylı qətnamənin preambulasının 8-ci bəndi, 10 oktyabr 1993-cü il tarixli 874 saylı qətnamənin preambulasının 5-ci bəndi, 2 noyabr 1993-cü il tarixli 884 saylı qətnamənin preambulasının 6-cı bəndi). Həmçinin bu qətnamələrdə beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazilərin əldə edilməsi üçün güc tətbiqinin yolverilməzliyi vurğulanaraq, işğalçı qüvvələrin Azərbaycan torpaqlarından "dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması" tələb edilmişdir. Dövlətimiz bu qətnamələrin icrası üçün böyük diplomatik səylər göstərsə də, təəssüf ki, təcavüzkar Ermənistan militarist siyasətini davam etdirərək, hərbi təxribatlar törətməyə üstünlük vermişdir. Əlbəttə ki, belə şəraitdə yeganə çıxış yolu beynəlxalq hüququn hamılıqla tanınan təməl prinsiplərinin hərbi yolla bərpa edilməsi idi və müzəffər Azərbaycan Ordusunun parlaq qələbəsi ölkəmizin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sülhü və tarixi ədaləti bərpa etdi.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, postmünaqişə dövrünün mühüm mərhələlərindən birini beynəlxalq cinayətlərə görə cəzasızlığın aradan qaldırılması təşkil edir. Azərbaycan Respublikasının həyata keçirdiyi hərbi əməliyyatlar tamamilə beynəlxalq hüquq çərçivəsində olduğu halda, Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq humanitar hüquq total şəkildə pozularaq, çoxsaylı müharibə cinayətləri törədilmişdir.

Müharibə cinayətləri - "jus in bello" "müharibə hüququ" kimi tanınan beynəlxalq humanitar hüququn kobud pozuntuları olaraq, sivil dövlətlər tərəfindən yekdilliklə qarşısı alınan və cəzalandırılan cinayət əməlləri sırasında xüsusi yer tutur. Bunu təsdiq etmək üçün təkcə bir fakta istinad etmək kifayətdir. Müasir beynəlxalq humanitar hüququn təməlini təşkil edən 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyasını - "Quruda döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" (I CK), "Dənizdəki silahlı qüvvələrdə yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların vəziyyətinin yaxşılaşdırılması haqqında" (II CK), "Hərbi əsirlərlə rəftar haqqında" (III CK), "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" (IV CK) BMT-nin bütün üzvləri də daxil olmaqla, 196 dövlət ratifikasiya etmişdir. Müharibə qurbanlarının müdafiəsi, müharibə üsulları və vasitələrinin məhdudlaşdırılması ilə bağlı universal beynəlxalq-hüquqi

yanaşmanın qəbul edilməsi silahlı münaqişələr dövründə humanitar standartların mütləq formada tətbiq edilməsinin vacibliyinin təzahürüdür.

Müharibə cinayətləri uzun müddət ərzində formalaşan beynəlxalq cinayətlərin müstəqil kateqoriyasıdır və bu əməllərin müharibə qanunlarının pozulmasının qismində kodifikasiyasının ilk cəhdi kimi Kolumbiya universitetinin professoru, alman əsilli Fransis Liber tərəfindən hazırlanmış və ABŞ-da 1861-1865-ci illərin vətəndaş müharibəsi dövründə (1863-cü ildə) "Səhra şəraitində Amerika Birləşmiş Ştatları ordularının idarə edilməsi təlimatları" kimi hökumət tərəfindən qəbul edilmişdir. Bu "Təlimatlar" tarixə məşhur "Liber Məcəlləsi" adı ilə daxil olmuşdur və burada "müharibə cinayətləri" termininden istifadə edilməsə də, sözün əsl mənasında, "Təlimatlar" müharibə qanunları və adətlərinin sistemləşdirilməsində mühüm rol oynamışdır. Ümumiyyətlə, "Liber Məcəlləsi" sonrakı dövrdə silahlı münaqişələr hüququn "Haaqa modeli" (hərbi əməliyyatların aparılmasını tənzimləyən qaydalar toplusu) və "Cenevrə modeli" (yaralılar, hərbi əsirlər, xəstələr, mülki əhalinin müdafiəsini tənzimləyən qaydalar toplusu) modifikasiyalarının formalaşmasında istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, bu iki üzvi bağlılığı olan hüquq sahəsi bu gün beynəlxalq humanitar hüquq kimi tanınan mürəkkəb vahid sistem təşkil etmişdir.

"Liber Məcəlləsi"nin qəbulundan sonrakı dövrdə beynəlxalq səviyyədə bir sıra mühüm konvensiyaların (məsələn, 6 iyul 1906-cı il tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Cenevrə Konvensiyası) qəbul edilməsinə baxmayaraq, yalniz İkinci Dünya müharibəsi dövründə törədilən vəhşiliklərdən sonra beynəlxalq birlik silahlı münaqişələr zamanı müharibə qanunları və adətlərinin pozulması hallarına "müharibə cinayəti" statusunu vermişdir.

Xatırlatmaq lazımdır ki, Nürnberq beynəlxalq hərbi tribunalının nizamnaməsinin 8-ci maddəsinin "b" bəndinə uyğun olaraq müharibə qanunlarının və adətlərinin pozulması, yəni mülki əhalinin, hərbi əsirlərin, dənizdəki şəxslərin, girovların qətlə yetirilməsi və ya onlara işgəncə verilməsi; ictimai və ya xüsusi mülkiyyətin qarət edilməsi; şəhərlərin və ya kəndlərin məhv edilməsi və s. əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutulması nəticəsində bir çox nasist canilərin cəzalandırılması mümkün olmuşdur.

**Müasir şəraitdə deportasiyalar, əhalinin qeyri-qanuni transferləri, işğal edilmiş ərazilərin məskunlaşdırılması beynəlxalq humanitar hüququn fundamental normaları və prinsipləri ilə bir araya sığmayan ən ağır müharibə cinayətidir.**

1949-cu il Cenevrə konvensiyalarının və sonradan 1977-ci il iyunun 8-də onlara əlavə protokolların qəbulu müasir dövrdə silahlı münaqişələrlə əlaqədar humanitar məsələlərin həlli mexanizminin hüquqi əsaslarını formalaşdırır. Burada ən önəmli məsələlərdən biri də müharıbə cinayətləri kimi tövsif edilən Cenevrə konvensiyalarının ciddi pozuntularının dairəsinin müəyyən olunmasıdır. Beynəlxalq silahlı münaqişələr zamanı törədilən müharibə cinayətləri beynəlxalq silahlı münaqişələrdə tətbiq olunan müharibə adətləri və qanunlarının pozulması kimi tövsif edilən bir çox əməlləri ehtiva edir. Bunların sırasına, o cümlədən mülki əhaliyə və ya hərbi əməliyyatlarda iştirak etməyən ayrı-ayrı mülki şəxslərə, mülki obyektlərə, yəni hərbi hədəf olmayan obyektlərə, müdafiə olunmayan və hərbi hədəf olmayan yaşayış məntəqələrinə, yaşayış binalarına qəsdən hücum edilməsi, qadağan olunmuş silahlardan istifadə edilməsi, işğalçı dövlət tərəfindən işğal edilmiş ərazilərin qanunsuz məskunlaşdırılması, xəyanətkarcasına mülki şəxslərin və ya kombatantların qətlə yetirilməsi, on beş yaşına çatmayan uşaqların silahlı qüvvələrin tərkibinə cəlb edilməsi və onların hərbi əməliyyatlarda fəal iştırakının təmin edilməsi və s.

Göründüyü kimi, bu əməllər Ermənistan tərəfindən kütləvi şəkildə törədilən cinayətlərdir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın mülki əhalisi, mülki infrastruktur obyektləri nəinki münaqişə zonasında, hətta ondan çox uzaqda yerləşən Gəncə, Bərdə və digər yaşayış məntəqələrimiz erməni sılahlı birləşmələri tərəfindən ballistik raketlərdən və qadağan olunmuş klaster (kasset) sursatlarından istifadə etməklə hücumlara məruz qalmışdır. Bu barbarlıq aktları nəticəsində 94 nəfər mülki şəxs qətlə yetirilmiş, 407 nəfər ağır xəsarət almış, 3326 yaşayış tikilisinə, 504 mülki obyektə, 120 çoxmənzilli binalara ziyan vurulmuşdur.

Ermənistanın törətdiyi müharibə cinayətlərinin, yuxarıda qeyd edildiyi kimi, çeşidli növləri var və bunların sırasında əvvəllər işğal altında olmuş və 44 günlük müharibədə ölkəmizin şanlı qələbəsindən sonra düşməndən tamamilə azad edilmiş ərazilərdə beynəlxalq hüquqa zidd məskunlaşmaların keçirilməsi xüsusi yer tutur.

Ümumiyyətlə, müasir şəraitdə deportasiyalar, əhalinin qeyri-qanuni transferləri, işğal edilmiş ərazilərin məskunlaşdırılması beynəlxalq humanitar hüququn fundamental normaları və prinsipləri ilə bir araya sığmayan ən ağır müharibə cinayətidir. Məsələ burasındadır ki, işğal olunmuş Azərbaycan ərazilərində ermənilər tərəfindən məskunlaşdırılmanın həyata keçirilməsi əhalinin demoqrafik

tərkibinin dəyişdirilməsi, işğaldan əvvəl mövcud olan status qvo-nun bərpasının və məcburi köçkünlərin geriyə dönməsinin qarşısının alınmasına xidmət edirdi. Ən mühüm məqamlardan biri də ondan ibarətdir ki, münaqişə tərəflərinin beynəlxalq müqavilələrdən irəli gələn hüquqi öhdəliklərindən asılı olmayaraq, işğal altında olan ərazilərə öz əhalisinin yerləşdirilməsinə qadağa hamılıqla tanınan beynəlxalq adət hüququnun normasıdır.

Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsinin xüsusiyyətlərinə görə burada baş verən hadisələrə 12 avqust 1949-cu il tarixli Cenevrə konvensiyaları birmənalı olaraq şamil edilir. Xatırlatmaq istərdim ki, "İşğal edilmiş Fələstin ərazisində divar inşasının hüquqi nəticələrinə dair" 9 iyul 2004-cü il tarixli Məsləhət Rəyində BMT-nin Beynəlxalq Məhkəməsi qeyd etmişdir ki, "IV Cenevrə Konvensiyası iki və ya daha çox Yüksək Razılığa gələn Tərəflər arasında yaranan silahlı münaqişə zamanı işğal olunmuş ərazilərə tətbiq edilir". Nəzərə almaq lazımdır ki, Dağlıq Qarabağda münaqişənin tərəfləri IV Cenevrə Konvensiyasının iştirakçılarıdır: Azərbaycan Respublikası 1993-cü il aprelin 21-də, Ermənistan isə 1993-cü il iyunun 7-də bu beynəlxalq hüquqi sənədə qoşulmuşdur.

Məlum olduğu kimi, "Mülki əhalinin müharibə dövründə müdafiəsi haqqında" IV Cenevrə Konvensiyanın 49-cu maddəsinin 6-cı bəndinə əsasən "işğalçı dövlət öz mülki əhalisinin bir hissəsini işğal etdiyi əraziyə deportasiya edə və ya köçürə bilməz". Bu maddəni diqqətə alan 8 iyun 1977-ci ildə Cenevrə Diplomatik Konfransında qəbul edilmiş "Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına Əlavə Protokolun (I Protokol)" 85-ci maddəsinin 4-cü hissəsinin "a" bəndinə əsasən "işğalçı dövlət tərəfindən işğal edilən əraziyə öz mülki əhalisinin bir hissəsinin köçürülməsi bu Protokolun ciddi pozuntusu (grave breach) sayılır", yəni bu əməllər müharibə cinayətinin tərkibini ehtiva edir. Bunun təsdiqini 1998-ci ilin 17 iyul tarixdə Roma Diplomatik Konfransında qəbul edilmiş və 1 iyul 2002-ci ildə qüvvəyə minmiş Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda tapmaq olar. Həmin Statutun 8-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinin "vii" yarımbəndində Cenevrə Konvensiyalarına Əlavə Protokolun (I Protokol) 85-ci maddəsində göstərilmiş əməlin törədilməsi beynəlxalq cinayət məsuliyyətinə səbəb olur.



Yuxarıda istinad etdiyim "İşğal edilmiş Fələstin ərazisində divar inşasının hüquqi nəticələrinə dair" Məsləhət Rəyində BMT-nin Beynəlxalq Məhkəməsi qeyd etmişdir ki, "Mülki əhalinin müharibə dövründə müdafiəsi haqqında" Cenevrə Konvensiyasının 49-cu maddəsinin 6-cı bəndi "nəinki İkinci Dünya müharibəsi dövründə həyata keçirilən deportasiya və ya əhalinin zorakılıqla köçürülməsinə bənzər hərəkətləri, həmçinin işğalçı dövlət tərəfindən işğal edilən əraziyə öz əhalisinin qruplarının köçürülməsinin təşkilini və ya bunun həvəsləndirilməsini qadağan edir".

Dağlıq Qarabağda işğalçı dövlət tərəfindən həyata keçirilən məskunlaşma siyasəti müharibə cinayəti olması ilə yanaşı, eyni zamanda, Ermənistanın beynəlxalq hüquq müqavilələri ilə öz üzərinə götürdüyü öhdəliklərə real münasibətinin göstəricisi olmuşdur. Belə ki, Ermənistan 12 avqust 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarının iştirakçısı olmasına baxmayaraq, təcrübədə həmin hüquqi aktların müddəalarını kobud surətdə pozmuşdur. Bu fakt öz növbəsində Ermənistanın 17 may 2005-ci ildə qoşulduğu 1969-cu il tarixli "Müqavilələr hüququ haqqında" Vyana Konvensiyasının kobud formada pozulmasına gətirib çıxarmışdır. Sonuncu konvensiyanın 26-cı maddəsində "pacta sunt servanda" prinsipini əks etdirən "qüvvədə olan hər bir müqavilə onun tərəfləri üçün məcburidir və onların tərəfindən vicdanla yerinə yetirilməlidir" müddəasına Ermənistan tərəfindən məhəl qoyulmaması, sivil dövlətlərin davranış qaydalarını müəyyən edən beynəlxalq hüquq müqavilələrinin bu dövlət üçün yalnız əhə-

miyyətsiz kağız parçası olmasının bariz nümunəsidir.

Ermənistan silahlı qüvvələrinin törətdikləri digər müharibə cinayətləri mülki əhaliyə, mülki objektlərə və xəstəxanalara zərbələr endirilməsidir. Belə davranış beynəlxalq humanitar hüquqda qəti qadağan edilir. "Mülki əhalinin müharibə dövründə müdafiəsi haqqında" IV Cenevrə Konvensiyasının 18-ci maddəsinə əsasən "mülki xəstəxanalar hücum obyekti ola bilməz". Müasir beynəlxalq hüququn ən parlaq kodifikasiya nümunələrindən olan Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsinin 8-ci maddəsinə uyğun olaraq "hospitallara, xəstələrin və yaralıların cəmləşdiyi yerlərə zərbələr endirilməsi" müharibə cinayətidir və fərdi cinayət məsuliyyətinə səbəb olur. Bu universal yanaşma birmənalı olaraq bütün dünyada milli qanunvericilikdə formalaşan yanaşmadır.



Ermənistanın törətdiyi müharibə cinayətləri sırasında qadağan edilmiş klaster (kasset) sursatlarından istifadə, hərbi əməliyyatlara muzdluların cəlb edilməsi xüsusi olaraq qeyd olunmalıdır.

2010-cu ildə qüvvəyə minmiş və 110 iştirakçısı olan "Klaster (kasset) sursatları haqqında" Dublin Konvensiyasına əsasən bu tip sursatların istehsalı, toplanması, tətbiqi qadağan olunur. Ermənistan klaster sursatlarının tətbiqini qadağan edən Dublin Konvensiyasının iştırakçısı olmasa da, 1 saylı Əlavə Protokolun 51-ci maddəsinin 4-cü hissəsinə uyğun olaraq, "mülki şəxslər və mülki obyektlərlə legitim hərbi hədəfləri fərqləndirməyən hücumlar qadağan olunur və belə hücumlar sırasına nəticələri məhdudlaşdırıla bilməyən müharibə üsulları və vasitələrinin tətbiqi daxil edilir". Bu müddəa birbaşa Ermənistan üçün beynəlxalq hüquqdan irəli gələn öhdəlik yaradır. Həmin Protokolun 85-ci maddəsinə uyğun olaraq mülki şəxslər və mülki obyektlərlə legitim hərbi hədəfləri fərqləndirməyən hücumların həyata keçirilməsi müharibə cinayəti kimi tövsif edilir. Həmçinin nəzərə almaq lazımdır ki, Beynəlxalq Cinayət Məhkəməsi Nizamnaməsinin 8-ci maddəsi qadağan edilən silah-sursat, texnika və müharibə aparma üsullarının tətbiqini müharibə cinayəti elan edir.

Bu ilin dekabrın 15-də "Human Rights Watch" "Ermənistan Azərbaycana qarşı klaster bombalarından istifadə edib" adlı hesabat yaymışdır. Bu sənəddə göstərilmişdir ki, Ermənistanın arsenalında "Toçka-U" və "İsgəndər" ballistik raketləri, "Smerç" və Çin istehsalı olan "WM-80" yaylım atəşi sistemləri var və altı həftəlik müharibə dövründə Ermənistanın silahlı qüvvələri və separatçı rejimin terrorçuları Azərbaycanın yaşayış məntəqələrinə dəfələrlə klaster sursatları atıb və bu əməllər özündə müharibə cinayətlərini ehtiva edir. Bir müddət əvvəl - dekabrın 2-də BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Mişel Baçelet Dağlıq Qarabağ münaqişəsi zonasında və onun xaricində, Bərdə şəhərinə klaster sursatları ilə erməni qoşunları tərəfindən endirilən zərbələrdən narahat olduğunu bildirmişdir və bunların müharibə cinayətləri kimi tövsif edilə biləcəyini vurğulamışdır.

Hazırda Ermənistan silahlı qüvvələri tərəfindən törədilən beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulması ilə əlaqədar müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının prokurorluq orqanlarında çoxsaylı cinayət işləri açılmışdır və müharibə canilərinin ədalət mühakiməsi qarşısında cavab vermələri üçün həm ölkədaxili, həm də beynəlxalq müstəvidə lazımi tədbirlər həyata keçirilir.

Hər bir halda beynəlxalq cinayətlərin törədilməsini gündəlik dövlət praktikasına çevirənlər bilməlidirlər ki, Birləşmiş Millətlər Təşkilatı 1968-ci il noyabrın 26-da "Müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə görə müddətlərin tətbiq edilməməsi haqqında" Konvensiya qəbul edərək, bu əməllərə görə məsuliyyəti qaçılmaz etmişdir və Azərbaycan dövlətinin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, dinc mülki əhaliyə qarşı amansızcasına cinayət törədənlər layiq olduqları cəzadan boyun qaçıra bilməyəcəklər.

## Vüqar Gülməmmədov:

# "Dövlət qurumlarının nəzarət tədbirləri üzrə hesabatlılığı cəmiyyət qarşısında da təmin edilməlidir"

Milli Məclisin dekabrın 11-də keçirilən plenar iclasında **Vüqar Tapdıq oğlu Gülməmmədov yenidən Azərbaycan Respublikası Hesablama Palatasının sədri** seçilib. "Milli Məclis" jurnalı Hesablama Palatasının yeni təyin edilmiş sədrindən müsahibə alıb.



**- Vüqar müəllim, siz bu yaxınlarda Milli Məclis tərəfindən Hesablama Palatasının sədri postuna yenidən təsdiq edildiniz və iclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri tərəfindən son illərdə Hesablama Palatasının fəaliyyətinin əsas nəticə göstəriciləri barədə məlumat verildi. Növbəti illərdə Hesablama Palatası hansı məsələləri prioritet olaraq müəyyənləşdirmişdir?**

- İlk olaraq, mənə göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, bu posta namizədliyimi dəstəkləyən Milli Məclisin Sədri Sahibə xanım Qafarovaya jurnalınız vasitəsilə bir daha minnətdarlığımı bildirmək, bütün millət vəkillərinə təşəkkür etmək istərdim. Bu etimadın və dəstəyin doğruldulması üçün tərəfimizdən qarşıdakı illər üçün bir sıra məsələlər və hədəflər müəyyənləşdirilmişdir. Hesablama Palatası dövlət maliyyəsi üzərində parlament nəzarətini təmin edən bir qurumdur və bu baxımdan dünyada əksər inkişaf etmiş ölkələrin ali audit orqanları kimi iki əsas məsələ diqqətdə saxlanılmalıdır:

1. Hesablama Palatasının dövlət maliyyə inzibatçılığı sistemində iştirakçılıq səviyyəsinin yüksəldilməsi;
2. Hesablama Palatasının parlamentlə birgə əməkdaşlığının genişləndirilməsi.

Hər iki istiqamət bir neçə ayrı-ayrı tədbirlərin tətbiqini tələb edir və istiqamətlərin sinxron olaraq icra olunması daha məhsuldar töhfələrə gətirib çıxara bilər.

Ali audit orqanlarının dövlət maliyyə inzibatçılığında yeri və rolu beynəlxalq standart və mütərəqqi təcrübə ilə müəyyən edilmişdir. Kənar dövlət maliyyə nəzarəti orqanının iştirakçılıq səviyyəsi ilk olaraq qanunvericiliklə təsbit olunmuş səlahiyyətləri, daha sonra isə nəzarətin birgə həyata keçirildiyi parlamentin tələbləri ilə sərhədlənir. Parlamentin dövlət hakimiyyətinin bir qolu kimi və parlament üzvlərinin vergi ödəyiciləri olan geniş seçici kütləsi qarşısında hesabatlı məsul şəxslər olaraq dövlət maliyyə sistemində oynadığı rol ali audit orqanının da bu istiqamətdə fəaliyyətini müəyyənləşdirir. Bu baxımdan dövlət büdcəsi və büdcədənkənar dövlət fondları üzərində parlament nəzarətinin əhatəsinin artırılması və bu nəzarətin gücləndirilməsi birbaşa olaraq Hesablama Palatasının da fəaliyyətinə baxışı dəyişdirir. Fəaliyyətimizi tənzimləyən qanun həmin tələblərin güzgüsüdür və bu baxımdan da növbəti illərin dövlətimiz üçün necə məsuliyyətli və xüsusi əhəmiyyətli illər olacağını qəbul edərək "Hesablama Palatası haqqında" Qanuna bir sıra əlavə və dəyişikliklərin edilməsi zərurəti yaranır və tezliklə təkliflərimizi hörmətli millət vəkillərinə təqdim edəcəyik.

Dövlət maliyyəsində parlament nəzarətinin təsiri Milli Məclis və Hesablama Palatasının addımlarının bir-birini necə tamamlaması və gücləndirməsindən asılıdır. Ali audit orqanı olaraq parlament tərəfindən qarşımızda qaldırılan sistem xarakterli tələblərin icrasının nəticəliliyi əvvəlki tədbirlər üzrə parlamentin atdığı addımlardan daha çox asılıdır. Bu baxımdan parlament tərəfindən Hesablama Palatasının gəldiyi nəticələrin izlənməsi, Hesablama Palatasının verdiyi təkliflər üzrə hökumətin reaksiyası üzrə parlament qarşısında hesabatlılıq bir tərəfdən inzibatçılığın hesabatlılıq və şəffaflıq prinsiplərinin möhkəmləndirilməsi ilə gücləndirilməsidirsə, ikinci bir tərəfdən bu, ali audit orqanının fəaliyyəti üzərində nəzarət və tələblərin genişlənməsini şərtləndirir.

- **Qeyd etdiyiniz məsələlər, belə desək, bir qədər makro səviyyədə müəyyənləşdirilmiş hədəflərdir. Bu hədəflərin reallaşdırılması məqsədi ilə atılacaq addımlar barədə danışaq.**

- Bəli, bu hədəflər dinamik xarakterli addımlar tələb edir. Məlumat üçün qeyd edim ki, 2020-ci il Hesablama Palatasının son üç ili əhatə edən strateji inkişaf planının başa çatdığı ildir və tərəfimizdən daha uzunmüddətli dövrü əhatə edən 2021-2025-ci illər üçün yeni plan hazırlanmış və təsdiq edilmişdir. Eyni zamanda, diqqətə çatdırım ki, bu plan INTOSAI-nin (Ali Audit İnstitutlarının Beynəlxalq Təşkilatı – red.) ali audit orqanlarında inkişaf təşəbbüslərini dəstəkləyən IDI (INTOSAI-nin İnkişaf Təşəbbüsü – red.) təşkilatının dəstəyi ilə və mütərəqqi təcrübələrdən yararlanmaqla tərtib edilmişdir. Növbəti 5 ili əhatə edən strateji inkişaf planında dövlət maliyyə inzibatçılığının gücləndirilməsində Hesablama Palatasının töhfəsinin artırılması və Hesablama Palatasının fəaliyyətinə bütün maraqlı tərəflərin inamının daha da gücləndirilməsi istiqamətində tədbirlər müəyyənləşdirilmişdir.

Addım-addım irəlilədiyimiz, bununla yanaşı hələ çox işlər görməli olacağımız digər istiqamət fəaliyyətimizin rəqəmsallaşdırılması ilə bağlıdır. Bu, müasir təcrübənin tətbiq edilməsi, mütərəqqi yanaşmalardan və vasitələrdən istifadə olunması ilə yanaşı, eyni zamanda, fəaliyyətimizdə hesabatlılıq və şəffaflıq prinsiplərinin tam reallaşdırılması məqsədini güdür. Artıq iki ildir audit fəaliyyətinin tam bir proses olaraq elektronlaşdırılmasını təmin edən proqram tətbiq etməkdəyik. Bu proqram Hesablama Palatasının fəaliyyəti üzərində qurulmuş yeni bir tətbiqi proqramdır və audit proseslərini kənardan idarə etməyə, iş planı üzrə həyata keçirilmiş tədbirlərin nəticələrinə nəzarət etməyə şərait yaradır. Fürsətdən istifadə edərək Hesablama Palatasının rəsmi internet səhifəsinin də bu yaxınlarda yeniləndiyini bildirmək istərdim.

Diqqətə çatdırım ki, dövlət maliyyəsi üzərində nəzarətin təmin edilməsi yalnız səlahiyyət və funksiyaların artırılmasını deyil, onların nəticəliliyi ilə bağlı məsələləri də diqqətdə saxlamağı tələb edir.

Fəaliyyətin nəticəliliyi isə təkcə çərçivənin genişliyi ilə ölçülmür. Bu, həm də atılan addımların keyfiyyətindən asılıdır. Hesablama Palatası fəaliyyətini beynəlxalq metodologiya əsasında qurmağa çalışır və bu işləri davam etdirəcəkdir. Biz INTOSAI tərəfindən qəbul edilmiş beynəlxalq standartların Azərbaycan dilinə tərcüməsini əsas standartlar üzrə tamamlamışıq. İndi isə bu sahədə metodoloji sənəd bazasının genişləndirilməsi və auditlərimizin bu standartlara uyğunlaşdırılması mərhələsindəyik. Həmin istiqamətdə yeni audit formalarının tətbiqi ilə yanaşı, mütərəqqi təcrübəyə uyğun auditor hesabatlarının tərtibi də həyata keçirilməkdədir və qarşıdakı illərdə bu, daha da genişləndiriləcəkdir.

Ümumiyyətlə, ölkəmizdə dövlət maliyyə nəzarəti sahəsində görüləcək kifayət qədər həllini gözləyən işlər var.

- **Hesablama Palatası dövlət maliyyə inzibatçılığının gücləndirilməsində öz təklif və tövsiyələri ilə aktiv şəkildə iştirak edən qurumdur. Ümumiyyətlə, dövlət vəsaitləri üzərində nəzarətin daha da gücləndirilməsi üçün hansı addımlar atılmalıdır?**

- Nəzarətin təkmilləşdirilməsi işləri davam etməlidir. Yalnız nəzarətin sayı deyil, keyfiyyəti də yüksəlməlidir. Müasir dünyada AAQ-ın dövlət layihə və proqramlarındakı məqsəd, nəticə və risklərin qiymətləndirilməsində rolu artır.

Müasir dünyada son illərdə müşahidə etdiyimiz siyasi-iqtisadi proseslər dövlət büdcəsi, dövlət əmlakı, təbii ehtiyatlar və digər maddi və qeyri-maddi resurslardan qənaətli və rasional istifadənin təmin edilməsini zərurətə çevirir. Eyni zamanda, biz hazırda tarixi bir dövr yaşayırıq, uzun illərdir işğal altında olan torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən qısa müddət ərzində azad edilməsi resurslarımızın səfərbər olunması ilə daha səmərəli istifadəsini təmin etmək tələbini daha da gücləndirir. Ölkə rəhbəri tərəfindən postpandemiya dövründə artımın təmin olunması və qeyri-neft sektorunun inkişafı ilə bağlı da konkret göstərişlər səsləndirilib. Bu baxımdan Hesablama Palatası mütərəqqi təcrübədən istifadə etməklə kənar nəzarətin gücləndirilməsini həyata keçirməyə çalışacaqdır və bu istiqamətdə parlamentlə sıx fəaliyyət

daha məhsuldar nəticələrə gətirib çıxarar.

Dövlət maliyyəsinin idarə edilməsi və inzibatçılığının gücləndirilməsi ilə bağlı, qeyd etdiyiniz kimi, Hesablama Palatası tərəfindən təkliflər mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanlarına təqdim edilməkdədir. Eyni zamanda, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası ilə bağlı hazırladığımız rəylərdə də bu istiqamətdə tövsiyələr əks olunur. Əgər ümumi bir yanaşma tətbiq etsək, Hesablama Palatasının tövsiyələrini aşağıdakı bir neçə istiqamət üzrə qruplaşdırmaq olar.

İlk olaraq, dövlətin maliyyə sisteminin tənzimlənməsi sahəsində mövcud olan qanunvericiliyin təkmilləşdirilməsi və sistemləşdirilməsi imkanlarını təqdim edən Büdcə Məcəlləsinin hazırlanması ilə bağlı təklifi səsləndirmək istərdim. Bu, maliyyə-büdcə prosesinin əsas prinsiplərini müəyyənləşdirməklə vahid yanaşmanı, həmçinin maliyyə nəzarətinin effektivliyini təmin etmək imkanlarını təqdim edər.

Mütərəqqi təcrübədə Büdcə Məcəlləsi, eyni zamanda, dövlət büdcəsi xərclərinin proqnozlaşdırılmasında əsaslılığın artırılmasını, vəsaitlərin icrası prosesində şəffaflığın və hesabatlılığın gücləndirilməsini, nəzarət mexanizmlərinin effektiv tətbiq edilməsi məqsədi ilə vəsaitlərin xərclənməsini tənzimləyən əsas hüquqi akt rolunu oynayır. Təbii ki, məcəllə vasitəsilə prosesin hər bir mərhələsi barədə çərçivələr müəyyənləşdirildikdən sonra müvafiq və zəruri normativ hüquqi aktlar bazasının formalaşdırılması, bu aktların mütəmadi olaraq yenilənməsi və təkmilləşdirilməsi diqqətdə saxlanmalıdır. Bu istiqamətdə xüsusilə dövlət satınalmalarında hesabatlılıq və şəffaflığın təmin edilməsi, rəqabətli metodlara üstünlük verilməsi və qanunvericiliyin pozulması ilə bağlı məsuliyyətlərin sərtləşdirilməsi xüsusilə vacibdir.

Digər bir məqam vəsaitlərin səmərəli, qənaətli və nəticəli istifadə edilməməsi, bu sahədə normativ hüquqi aktlara riayət olunmamasının maliyyə pozuntusu kimi müəyyənləşdirilməsi və məsuliyyət tədbirlərinin təsbiti ilə bağlıdır.

Dövlət əsaslı vəsait qoyuluşu (investisiyalar) xərcləri dövlət büdcəsində böyük çəkiyə malikdir və Vətən müharibəsindən sonra nəzərdə tutulan quruculuq işləri bu xərclərin daha da çoxalacağı və genişlənəcəyi ehtimalını artırır. Bu baxımdan, tikinti sahəsində icra edilən dövlət vəsaitlərinin səmərəli və nəticəli istifadəsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, iqtisadi artıma təsirinin böyük olması səbəbindən bu istiqamətdə vəsaitlərin həcminin əsaslı proqnozlaşdırılmasına şəraitin yaranması, investisiya layihələrinin nəticəliyinin yüksəldilməsi, bu istiqamətdə icra edilən vəsaitlərin üzərində nəzarətin təkmilləşdirilməsi, layihələrin səmərəliliyinin



artırılması ilə bağlı fəaliyyətin koordinasiyası, həmçinin çevik, əhatəli və təkmil hüquqi bazanın formalaşdırılması da günümüzün bir tələbidir.

Əlavə olaraq, Hesablama Palatası publik hüquqi şəxslərə dövlət büdcəsindən ayrılan vəsaitlərin proqnozlaşdırılmasının əsaslılığının yüksəldilməsini, vəsaitlərin nəticəli istifadəsinin və gəlir potensialının artırılması imkanlarının genişləndirilməsini də məqsədəmüvafiq hesab edir.

Son illərin təcrübəsi göstərir ki, büdcə açıqlığı və şəffaflığı daha çox informasiya tələb edir. Hesablama Palatasının rəyləri və hesabatları dövlət büdcəsi haqqında obyektiv informasiya mənbəyidir. Büdcənin layihələndirilməsi və icrası ilə bağlı obyektiv qiymətləndirmələrin hörmətli millət vəkillərinə təqdim edilməsini davam etdirəcəyik.

Sonda bir məqamı da bildirim ki, cari şəraitdə Milli Məclis tərəfindən dövlət vəsaitləri üzərindən tam nəzarətin təmin edilməsi məqsədi ilə qanunvericilik aktlarının təkmilləşdirilməsi zərurəti də mövcuddur. Diqqətə çatdırmaq istədim ki, büdcə hesabatlılığı və şəffaflığı ilə bağlı beynəlxalq reytinq hesabatlarında ölkənin mövqeyinin yüksəldilməsi bu prosesin hər bir mərhələsini əhatə edən qanunvericilik aktlarının müasir çağırışlar nöqteyi-nəzərindən təkmilləşdirilməsini tələb edir.

- **Vüqar müəllim, nəzarət fəaliyyəti birtərəfli proses deyil və dövlət vəsaitləri üzərində parlament nəzarətinin obyektləri olan qurumlar hansı addımları atmalıdır?**

- Əlbəttə, dövlət maliyyə inzibatçılığını tənzimləyən təkmil normativ hüquqi bazanı formalaşdırmaq, dəqiq və düzgün nəzarəti həyata keçirmək prosesin bir tərəfidir. Nəticələr üzrə konkret addımların atılması və nəzarət fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi həmin prosesdə xüsusilə vacib həlqədir.

Başa çatdırılmış hər bir nəzarət tədbiri üzrə qəbul edilmiş palata kollegiyasının qərarları müəyyən edilmiş çatışmamazlıq və nöqsanları, onların aradan qaldırılması üzrə tədbirləri əks etdirir. Qurumlar tərəfindən atılacaq addımlar da müvafiq qanunvericiliklə tənzimlənir. Belə ki, kollegiya qərarları üzrə tədbirlərin görülməsi və bu addımlar üçün müddət "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununda təsbit edilib. Qərarların icrasının gecikdirilməsi və ya icra edilməməsi ilə bağlı da Hesablama Palatasına güclü təsir vasitələri qanunvericilikdə əks olunub. Bu istiqamətdə daha effektiv nəticələrin əldə edilməsi məqsədi ilə iki məsələni vurğulamaq istərdik.

Bunlardan birincisi, yuxarıda da qeyd etdiyim kimi, parlamentin Hesablama Palatası tərəfindən həyata keçirilmiş auditlərin nəticələrinin izlənməsində, bu istiqamətdə müvafiq icra hakimiyyəti orqanları tərəfindən hesabatlılığın artırılmasında rolunun güclənməsidir. Bu, eyni zamanda, tərəfimizdən dövlət maliyyə inzibatçılığına dair irəli sürülmüş tövsiyələrlə də bağlı tətbiq oluna bilər.

Həmçinin qeyd edim ki, dövlət qurumlarının nəzarət tədbirləri üzrə hesabatlılığı cəmiyyət qarşısında da təmin edilməlidir. Bu, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən tərtib edilən reytinq hesabatlarında da nəzərə alınan vacib faktordur. Nəinki ali audit orqanı,




eyni zamanda, dövlət maliyyə nəzarəti sisteminin bütün digər həlqələri tərəfindən də həyata keçirilən nəzarət tədbirlərinin nəticələri və bu nəticələr üzrə görülmüş işlər barədə qurumların öz rəsmi internet səhifələrində və ya müvafiq hesabatlarında məlumat verməsi şəffaflıq və hesabatlılıq prinsiplərini təmin etmiş olur. İkinci bir tərəfdən isə bu, təftiş orqanlarının da fəaliyyətinə ictimai nəzarətə şərait yaradır. Belə yanaşma nəzarət tədbirləri və onun nəticələrinin ictimailəşməsi ilə dövlət vəsaitlərinin səmərəli, qənaətli və nəticəli istifadə olunmasında preventiv bir yanaşmadır. Diqqətə çatdırılmalıdır ki, bu yanaşmanın tətbiqi, həmçinin həmin məlumatların əks etdirilməməsi, düzgün və ya tam əks etdirilməməsi hallarında məsuliyyətin müəyyənləşdirilməsi məqsədi ilə qanunvericilik aktlarının təkmilləşdirilməsi zəruridir.



# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ VƏ YENİ SİYASİ REALLIQLAR

44 gün davam edən və Azərbaycanın tarixi qələbəsi ilə nəticələnən Vətən müharibəsi regionda tamamilə fərqli bir reallıq formalaşdırdı. Azərbaycan Prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi, müharibənin əsas nəticələrindən biri Cənubi Qafqazda yeni təhlükəsizlik formatının yaradılmasından ibarət oldu. İndi bir çox siyasi ekspertlər, təhlükəsizlik məsələləri üzrə mütəxəssislər bu yeni formatın yaranmasında Azərbaycanın fəal və düşünülmüş strateji yanaşmasının həlledici rol oynadığını xüsusi olaraq vurğulayır. Geosiyasi proseslər barədə az-çox məlumatı olan peşəkarlar haqlı olaraq qeyd edirlər ki, müharibənin indiki nəticələri Azərbaycanın yalnız iqtisadi, hərbi üstünlüyünün məntiqi davamı kimi qiymətləndirilmir, həm də fəal, ardıcıl, praqmatik xarici siyasət strategiyasının uğuru kimi xarakterizə olunur. Ərazisinin işğal altında qaldığı 30 ilə yaxın bir müddət ərzində Azərbaycan dövləti dünya ictimaiyyətini münaqişənin tarixi və siyasi səbəbləri, Ermənistanın təcavüzkar siyasətinin məğzi barədə maksimum məlumatlandırmağa müvəffəq olmuşdur.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin daha da təkmilləşdirərək yeni ştrixlər əlavə etdiyi xarici siyasət konsepsiyasının əsas hədəfi məhz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaqdan ibarət idi. Proseslərin ümumi təhlili göstərir ki, ötən müddət ərzində münaqi-

> **Məhz Prezident İlham Əliyevin strateji düşüncə tərzi, zəngin dünyagörüşü, diplomatik məharəti Azərbaycanı sevməyən qüvvələrin aparıcı rol oynadığı xarici informasiya məkanında üstünlüyün əldə olunmasını təmin etdi.**



şənin həllinə dair Azərbaycanın xarici siyasəti iki mühüm prinsipin - diplomatiyanın gücü və gücün diplomatiyasının harmoniyasını yaratmağa hesablanmışdı. Əslində, bunu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə diplomatik səylərin iki mərhələsi kimi də xarakterizə etmək olar. Prezident İlham Əliyevin irəli sürdüyü "hücum diplomatiyası" tezisi bu iki prinsipin, yaxud mərhələnin başlıca məğzini çox dəqiq şəkildə ifadə edən yeni postulat kimi ön plana çıxmışdı.

Azərbaycan ötən müddətdə bütün beynəlxalq platformalarda torpaqlarının işğal olunması, Ermənistanın Azərbaycana qarşı təcavüzü, azərbaycanlıların etnik təmizləmə və soyqırıma məruz qalması həqiqətini qəbul etdirə bilmişdi. Bəzi ölkələr bu faktları öz siyasi maraqları kontekstində rəsmi şəkildə etiraf etməkdən çəkinsə də, ümumilikdə dünya ictimaiyyətində münaqişənin meydana çıxma səbəbləri barədə aydın təsəvvür formalaşdırılmışdı. Bu, nəticə etibarı ilə "diplomatiyanın gücü" prinsipinin uğurlu tətbiqinin məntiqi sonluğu idi.

Prezident İlham Əliyevin irəli sürdüyü "hücum diplomatiyası" tezisi Azərbaycanın xarici siyasətinin yeni taktiki parametrlərini müəyyən etdi. Hədəflər dəyişmədən, dünyanın və regionun dəyişən reallıqlarına, habelə Azərbaycan və Ermənistanın istinad etdikləri iqtisadi, siyasi, hərbi güc balansı arasında fərqin əhəmiyyətli dərəcədə böyüməsinə əsaslanan bu yeni yanaşma mahiyyət etibarı ilə həm də mümkün hərbi əməliyyatlara dünya ictimai rəyini hazırlamağa hesablanmışdı. Ermənistan qoşunların təmas xəttində və iki ölkənin dövlət sərhədində törətdiyi ardıcıl hərbi təxribatlarla Azərbaycanı "gücün diplomatiyası" tezisindən çəkindirməyə çalışırdı. Lakin bu təşəbbüs əks effekt verdi, beynəlxalq ictimai rəydə Azərbaycanın yeni xarici siyasət taktikasının əsaslı olduğuna dair təsəvvürləri daha da gücləndirdi. Ermənistanın sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribat - Azərbaycan Ordusunun mövqelərini və dinc yaşayış məskənlərini atəşə tutması, rəsmi Yerevanın



**Ramin Məmmədov**
Milli Məclisin deputatı



**Prezident İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verərkən**

növbəti və həm də ən böyük siyasi səhvi oldu.

Müharibənin davam etdiyi 44 gün ərzində tarixin və beynəlxalq hüququn tamamilə Azərbaycanın tərəfində olması böyük güclərin, xüsusilə Ermənistanın himayədarı qismində çıxış etməkdən çəkinməyən dövlətlərin davamlı təzyiqlərinin uğursuz nəticələnməsini şərtləndirən mühüm amillərdən biri idi. Lakin buna nail olmaq üçün Azərbaycan çox uzun və çətin bir yol keçmişdi. Dünya ictimai rəyini münaqişənin real səbəblərinə inandırmaqla yanaşı, həm də onun indiki nəticələrinin (söhbət 27 sentyabradək olan nəticələrdən - status-kvodan gedir) bütün regionun gələcəyini təhdid etdiyinə dair təsəvvür yarada bilmişdi. Dünya güclərini siyasi təzyiqlərdən birbaşa açıq müdaxiləyə keçməkdən çəkindirən ən əsas məqam məhz bundan ibarət idi. Azərbaycan öz ərazisində suveren hüquqlarını təmin etmək, əhalisini qorumaq üçün hərbi təxribata cavab verməli olmuşdu. Prezident İlham Əliyevin uğurlu strategiyası artıq beynəlxalq aləmdə mövcud reallıqlara və hadisələrin hərbi məzmunlu mümkün inkişaf ssenarilərinə siyasi immunitet yaratmışdı.

**Vətən müharibəsindən sonra regionda yaranan yeni siyasi reallıqlarla Cənubi Qafqazda siyasi təsir imkanları uğrunda mübarizə aparan qlobal güclər belə hesablaşmağa məcburdur.**

Heç şübhəsiz ki, hərbi əməliyyatların gedişində xüsusi əhəmiyyət kəsb edən məqamlardan biri informasiya müharibəsi müstəvisində mübarizənin düzgün təşkil edilməsi ilə bağlı idi. Azərbaycan bu sahədə də fəaliyyətini uğurla qurmağa müvəffəq oldu. Mübaliğəsiz demək olar ki, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrində çıxışları Azərbaycanın informasiya müharibəsində qələbəsini təmin edən həlledici amil idi. Müharibə aparan, öz ərazi bütövlüyünü təmin etmək üçün beynəlxalq təzyiqlərə müqavimət göstərən, qarşı tərəfə dünyanın aparıcı güclərinin verdiyi açıq və gizli dəstəyin nəticələrini mümkün qədər

neytrallaşdırmağa çalışan bir ölkə üçün dövlət başçısının beynəlxalq media ilə təmaslarının nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini izah etməyə yəqin ki, ehtiyac yoxdur. Məhz Prezident İlham Əliyevin strateji düşüncə tərzi, zəngin dünyagörüşü, diplomatik məharəti Azərbaycanı sevməyən qüvvələrin aparıcı rol oynadığı xarici informasiya məkanında üstünlüyün əldə olunmasını təmin etdi. Həm də çox çətin, mürəkkəb şərtlərdə.

Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra nəinki öz ərazi bütövlüyünü bərpa etməyə nail oldu, həm də məqalənin əvvəlində qeyd etdiyimiz kimi, bütün regionda yeni siyasi reallıqlar yaratdı. Bu yeni reallıqla indi Cənubi Qafqazda siyasi təsir imkanları uğrunda mübarizə aparan qlobal güclər belə hesablaşmağa məcburdur. Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupunun ABŞ və Fransadan olan həmsədrlərini qəbul edərkən söylədiyi fikirlər əslində regionun mümkün siyasi perspektivlərinin təxmini konturları haqqında ilkin təsəvvür yaradır. Dövlət başçısının həmsədrlərin ünvanına söylədiyi haqlı tənqidlər Azərbaycan xalqının 30 illik səbrinin nəticəsiz qalmasından ümumxalq narazılığının ifadəsi olmaqla yanaşı, həm də yeni reallıqlarla barışmağa psixoloji hazırlıq üçün siyasi eyham kimi qiymətləndirilə bilər. Münaqişənin həll edilməsi Minsk qrupunun fəaliyyətinə ehtiyacın olmadığı anlamına gəlir. Eyni zamanda, bu qrupda təmsil olunan iki dövlətin Cənubi Qafqazda yaranan yeni təhlükəsizlik formatının iştirakçısı olmaq imkanını itirdiyini göstərir.

**Azərbaycan həmsədrlərin 30 il hər kəsi inandırmaq istədiyi "münaqişənin hərbi yolla həlli yoxdur" tezisini 44 gün ərzində darmadağın etdi.**

Azərbaycan həmsədrlərin 30 il hər kəsi inandırmaq istədiyi "münaqişənin hərbi yolla həlli yoxdur" tezisini 44 gün ərzində darmadağın etdi. Bu, artıq Cənubi Qafqazın tarixində yeni bir dövrün başlanması deməkdir. Bu yeni mərhələyə Azərbaycan güclü, sürətlə inkişaf edən, qüdrətli orduya malik qalib dövlət kimi, Ermənistan isə beynəlxalq ekspertlərin qiymətləndirmələrinə görə, hərbi potensialının 80 faizini itirmiş, öz sərhədlərinin təhlükəsizliyini təmin etməyə belə resursları çatmayan, heç bir iqtisadi perspektivi, gələcəyə ümidi olmayan məğlub ölkə kimi daxil olur. Regionda əsas söz sahibinin kim olacağı artıq hər kəsə məlumdur. Məlum olmayan yalnız Ermənistanın bu yeni dövrün reallıqlarını nə dərəcədə düzgün qiymətləndirəcəyidir. Bu, həm də Ermənistan üçün tarixi bir şansdır - yüzilliklər boyu özünü inandırdığı illüziyalardan əl çəkmək, əməkdaşlıq və inkişaf naminə, öz xalqının rifahı üçün keçmişə ilişib qalmamaq, gələcəyə doğru addımlamaq üçün bəlkə də sonuncu şans.



# Ermənilər Cənubi Qafqazda necə məskunlaşdılar?



**Anar İsgəndərov**
Milli Məclisin deputatı

Erməni ideoloqları iddia edirlər ki, guya dünyanın yaranışı onların adı ilə bağlıdır. Bu iddianın tədqiqatçıları tarixi həqiqətlərdən daha çox rəvayətlərə üstünlük verirlər. Ermənilərlə bağlı yazılan həqiqətlər isə başqa şey deyir. "Tarixin atası" Herodot yazır: "Fərat çayının yuxarı axarlarındakı ərazilərdə köçəri erməni tayfaları yaşayırdı", tarixçi Tatsit yazır: "Xəzərsahili xalqlar - hunlar, albanlar, kadusilər və başqalarının aralarında erməni adına rast gəlmədim", rus tarixçisi Dyakonov yazır: "Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb", erməni tarixçisi Pastermasyan isə yazır: "Ermənilər eramızdan əvvəl VII-VI əsrlərdə Qərbdən Şərqə gəlmişlər" və sair. Ermənilərin qədim tarixi ilə bağlı dəqiq mənbələr yoxdur. Məlum olan odur ki, uzun əsrlər boyu ermənilər Roma, İran-Sasani və Bizans imperiyalarının vassallığında olmuşlar. Bir sözlə, erməni tarixçilərinin ermənilərin yaranışı və formalaşması ilə bağlı yazdıqları uydurmalar o qədər çoxdur ki, onların təhlilinə heç bir lüzum görülmür.

Ermənilərin tarixən Cənubi Qafqaz torpaqlarında yaşaması ilə bağlı iddiaların da elmi əsası yoxdur. Fakt və hüquqi sənəd kimi 1805-ci il mayın 14-də Rusiya dövləti ilə Qarabağ xanlığı arasındakı bağlanmış "Kürəkçay" müqaviləsinə nəzər yetirmək kifayətdir. 11 maddədən ibarət olan müqavilənin heç bir bəndində ermənilərlə bağlı bir cümlə belə yazılmayıb. Əgər bu torpaqlar ermənilərə məxsus idisə, onların himayəçisi olan Rusiya hökuməti nə üçün ermənilərin adını bir dəfə də olsun bu müqavilədə xatırlatmır. Əksinə, müqavilənin birinci bəndindən başlamış bütün maddələrində bu torpaqların Azərbaycana məxsus olması təsdiq edilir.

Məlumdur ki, çar Rusiyası "Kürəkçay" müqaviləsinə görə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi. 1806-cı ilin yayında İran qoşunlarının Şuşaya yaxınlaşdığını eşidən İbrahimxəlil xan bütün ailə üzvləri ilə birlikdə (oğlu Mehdiqulu xandan başqa – müəllif) Xankəndinə köçdü. Ermənilər xanın guya İrana qaçmaq istədiyini mayor Lisaneviçə inandıra bildilər. Ermənilərin məlumatına inanan mayor Lisaneviç İbrahimxəlil xan başda olmaqla bütün ailə üzvlərini qətlə yetirdi. Bununla yanaşı, 1806-cı ilin sentyabrın 10-da imperator I Aleksandrın fərmanı ilə İbrahimxəlil xanın oğlu Mehdiqulu ağa Qarabağ xanı təyin olundu. Fərmanda deyilirdi: "İbrahimxəlil xana məxsus bütün hüquqlar Mehdiqulu xana keçir. Bütün əhali ona tabe olmalı, onun göstərişlərini yerinə yetirməli, xanın hakimiyyətini uca tutmalıdır". Fərmanda ermənilərlə bağlı heç bir fikir yoxdur. İmperator I Aleksandrın bu fərmanı da Qarabağın kimə məxsus olmasını sübut etmək üçün çox vacib sənəddir.

Məlumdur ki, II Rusiya-İran müharibəsi 1828-ci il fevralın 10-da "Türkmənçay" müqaviləsi ilə başa çatdı. Martın 21-də Rusiyaya ilhaq edilmiş iki Azərbaycan xanlığı - İrəvan və Naxçıvan xanlıqlarının "erməni vilayəti" adlandırılması haqqında çar fərmanı verildi. Gürcü knyazı, general-mayor Çavçavadze bu vilayətə rəis təyin olundu. Çavçavadzenin qızı Rusiyanın İrandakı səfiri və ermənilərin Cənubi Qafqaza köçürülməsi planının əsas müəlliflərindən biri olan Qriboyedovun həyat yoldaşı idi.

Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində birmənalı olaraq qeyd olunur ki, "Türkmənçay" sülh müqaviləsinə qədər Qarabağ xanlığında 12 min ailənin 2,5 min nəfəri erməni, Şamaxı xanlığında 24 min ailənin 1,5 min nəfəri erməni, Şəki xanlığında isə 15 min ailənin üçdə biri erməni idi. Ermənilərin Cənubi

Qafqaza, o cümlədən İrəvan, Naxçıvan və Qarabağa köçürülməsi üçün katolikos Nerses Aştaraketsi, polkovnik Lazarev və knyaz Arqutinski dəridən-qabıqdan çıxırdılar. Onu da qeyd etmək lazımdır ki, 1828-ci ildə erməni vilayəti adlandırılan bu qurum 1840-cı ildə ləğv olunmuş və 1849-cu ildə keçmiş İrəvan və Naxçıvan torpaqları əsasında İrəvan quberniyası təşkil edilmişdi.

"Türkmənçay" müqaviləsinin XV maddəsi İranda yaşayan ermənilərin köçürülməsinə həsr olunmuşdu. Düzdür, müqavilədə ermənilərin adı çəkilmir, lakin danışıqlarda bu məsələ tam razılaşdırılmışdı.

"Türkmənçay" müqaviləsindən ən çox qazanan ermənilər oldu. "Türkmənçay" sülhünə qədər vətənsiz olan və dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilər bu müqavilədən sonra rus çarizminin köməyi ilə özlərinə vətən tapdılar.

I Pyotrun 1724-cü il noyabrın 10-da verdiyi fərman ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsinin əsasını qoydu, 1828-ci il "Türkmənçay" müqaviləsi isə bu tarixi faciəni rəsmiləşdirdi.

XVII əsrin sonunda Avropadan dəstək ala bilməyən ermənilər Rusiyaya pənah gətirdilər. 1701-ci ildə İsrael Ori və arximandrit Minas Avropanın dövlət başçılarına təqdim edə bilmədikləri 36 maddəlik proqramı I Pyotra verdilər. İsrael Orinin təqdim etdiyi bu xəritədə İrəvan və Zəngəzur torpaqları qabarıq şəkildə təsvir edilmişdi. İsrael Ori I Pyotra yazırdı: "20-30 minlik imperator qoşunu tezliklə Şamaxıya çatmasa, biz batıb-qırılarıq, türklər İrəvanı tutarlar. İrəvan müsəlman torpaqlarının açarıdır. Məqsədimiz İrəvana sahib olmaqdır. İrəvanı ələ keçirə bilsək, türklər və iranlılar bizə heç nə edə bilməzlər".

1655-ci ildə İrəvana gəlmiş fransız Jan Batist Tavernyenin əsərində qeyd olunur ki, İrəvan şəhər qalasında yalnız müsəlmanlar yaşayırdı. 18 il sonra burada olmuş fransız səyyahı Jan Şardenin oncildliyinin birinci cildində göstərilir ki, İrəvan qalasını kiçik bir şəhər hesab etmək olar. Qalada 800 ev var. Burada yaşayanlar yalnız türklərdir.

"Türkmənçay" müqaviləsinə qədər erməni ideoloqları I Pyotrun fərmanını əsas götürərək Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmaq üçün müxtəlif planlar cızırdılar. Bir layihəyə görə gürcü çarı II İraklinin başçılığı ilə erməni-gürcü dövləti yaradılmalı və Rusiyanın tam himayəsinə verilməli idi. Digər bir layihəyə görə Azərbaycan torpaqlarında knyaz Potyomkinin başçılığı ilə erməni dövlətinin yaradılması nəzərdə tutulurdu. Çariça II Yekaterina bu məsələlərə böyük önəm verirdi. O, Azərbaycan torpaqlarının işğalını həyata keçirən general Zubova yazırdı: "Muğanı ələ keçir və orada bir qala tikdir. Adını Yekaterinasert (Yekaterinanın ürəyi – müəllif) qoy. Orada 2 min rus əsgərini məskunlaşdır. Onları geniş torpaq sahəsi, silahla təmin et, erməni və gürcü qızları ilə evləndir". Lakin 1796-cı ildə II Yekaterinanın qəfil ölümü bu planın gerçəkləşməsinə imkan vermədi.

Erməni tarixçisi V.Parsamyan yazır: "Bu bir inkaredilməz faktdır ki, Cənubi Qafqazın Rusiya imperiyasına birləşdirildiyi dövrə kimi



ПРОЭКТЪ ТРАКТАТА

Во имя Всемогущаго Бога.

Мы, т. е. Ибрагим ханъ Шушинскiй и Карабагскiй и Всероссiйскихъ войскъ ген. отъ-инфантерiи, Кавказской инспекцiи по инфантерiи инспекторъ и проч. кн. Павелъ Цицiановъ по полной мочи и власти, данной мнѣ отъ Е. И. В. всемилостивѣйшаго моего великаго Г. И. Александра Павловича, приступивъ съ помощiю Божiею къ дѣлу о вступленiи Ибрагим хана Шушинскаго и Карабагскаго со всѣмъ его семействомъ, потомствомъ и владѣнiями въ вѣчное подданство Всероссiйской Имперiи и нынѣ счастливо царствующаго великаго Г. И. Александра Павловича и Его высокихъ преемниковъ, заключили, постановили и подписали на слѣдующихъ артикулахъ

Артикулъ первый

Я, Ибрагим ханъ Шушинскiй и Карабагскiй, именемъ моимъ, наслѣдниковъ и преемниковъ моихъ торжественно навсегда отрицаюсь отъ всякаго вассальства или, подъ какимъ бы то титуломъ не было, отъ всякой зависимости отъ Персiи или иной державы и симъ объявляю предъ лицемъ всего свѣта, что я не признаю надъ собою и преемниками моими иного самодержавия, кромѣ верховной власти Е. И. В. Всероссiйскаго великаго Г. И. и Его высокихъ наслѣдниковъ и преемниковъ престола Всероссiйскаго Императорскаго, обѣщевая тому престолу вѣрность, яко вѣрноподданный рабъ онаго,—въ чемъ и долженъ дать присягу по обычаю на святомъ Коранѣ

Артикулъ вторый

[illegible]

Утвержденiе Е. И. В. на настоящiй трактатъ Высочайшею Его грамотою, утвержденною государственною печатью, долженствуетъ быть доставлено въ 6 мѣсяцовъ отъ подписанiя сего или и скорѣе, буде возможно

Въ достовѣрие чего нижеподписавшiеся подписали сiи артикулы и приложили къ нимъ свои печати, въ лагерѣ Елисаветопольской округи, при р. Куракѣ, въ лѣто отъ Р. Х. 1805 г. (по магомет же исчисленiю 1220), мая мѣсяца (савара) 14 го дня

**1437.** *Отношенiе кн. Цицiанова къ кн. Чарторыйскому, отъ 22-го мая 1805 года, № 328*

Имѣя честь подносить чрезъ посредство в. с. Е. И. В. двѣ всеподданнѣйшiя реляцiи о вступленiи въ вѣчное подданство Всероссiйской Имперiи Ибрагим-хана Карабагскаго со всѣмъ его семействомъ и владѣнiемъ, съ представленiемъ при оной ключей Шушинской крѣпости, трактата съ симъ ханомъ, 14-го числа сего мѣсяца заключеннаго, и присяги имъ на вѣрность учиненной, такъ равно и о присоединенiи къ Всероссiйской Имперiи Шекинскаго владѣнiя, которое владѣющiй нынѣ Селим ханъ 21-го числа, по силѣ совершившагося съ нимъ трактата и учиненной присягѣ на вѣрность Е. И. В., при той же реляцiи приложенныхъ, повергъ въ подданство Е. И. В. и съ нимъ себя самого со всѣмъ своимъ семействомъ,—долгомъ ставлю присовокупить, что ручательство, данное послѣднимъ въ отдачѣ сына своего въ аманаты по истеченiи двухъ лѣтъ и въ трактатѣ упомянутое, приложено въ спискѣ для того, чтобы въ случаѣ неустойки можно было уличить подлинникомъ того акта.—Изложа во всепод-

89

14 may 1805-ci il. "Kürəkçay" müqaviləsi



Qraf İ.F.Paskeviç və vəliəhd şahzadə Abbas Mirzə arasında "Türkmənçay" sülh müqavləsinin imzalanması. 10 fevral 1828-ci il

ermənilər bu ərazidə cəm halında yaşamamışlar".

Beləliklə, ermənilər köçürüldükləri Şimali Azərbaycan torpaqlarında bir millət kimi formalaşaraq, imkanları və havadarları artdıqca Azərbaycana və Osmanlı dövlətinə qarşı ərazi iddiaları ilə çıxış etməyə başladılar.

"Türkmənçay" müqaviləsinədək İrəvan xanlığında 22500, Naxçıvan xanlığında 2150, Ordubad mahalında isə 1880 nəfər erməni yaşadığı halda, 1916-cı ildə bu ərazidə ermənilərin sayı 669871 nəfərə çatdırıldı. Azərbaycanlıların sayı isə 1897-ci ildə 313176 nəfər, 1916-cı ildə isə 373582 nəfər olmuşdur. 1828-ci il məlumatına görə İrəvan xanlığı ərazisində torpaqların 96,63%-i azərbaycanlılara, cəmi 3,37%-i ermənilərə məxsus idi. 1826-1828-ci illər Rusiya–İran müharibəsində təkcə İrəvan xanlığı ərazisində yaşayan azərbaycanlıların 420 kəndi yerlə yeksan edilmişdir. 1828-1871-ci illər arasında ermənilər azərbaycanlı əhali yaşayan 146 kəndi zəbt edərək özününküləşdirmişdilər. Rus tarixçisi Şavrov yazır: "1828-1830-cu illərdə İran ərazisindən 40 min, Osmanlı ərazisindən isə 84 min erməni ailəsini Yelizavetpol (indiki Gəncə şəhəri – müəllif) və İrəvan quberniyasının ən münbit torpaqlarına köçürtdük". Şavrova görə rəsmi köçən əhali ilə yanaşı, 10 minlərlə erməni ailəsi qeyri-rəsmi Yelizavetpol quberniyasının dağlıq hissəsinə və Göyçə (Sevan) gölünün sahillərinə köçürüldü. Şavrovun məlumatına görə XX əsrin əvvəllərində Cənubi Qafqazda 1 milyon 300 min erməni yaşayırdı, onun 1 milyonu bu əraziyə gəlmə idi.

Ermənilərin Cənubi Qafqaz ərazisində məskunlaşmasına toxunan erməni tarixçisi B.İşxanyan yazır: "Ermənilər Qafqazın müxtəlif ərazilərində yalnız son əsrlərdə yaşamışlar".

1939-cu ildə fransız dilindən rus dilinə tərcümə olunmuş "XIX əsrin tarixi" əsərində professorlar Laviss və Rambo yazırlar: "XIX əsrin ortalarında ermənilər Qafqaza gəlmələr hesab olunurdu".

1886-cı ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasında 326 kəndin 149-da azərbaycanlılar, 91 kəndində kürdlər, cəmi 81 kəndində isə ermənilər yaşayırdı. 1891-ci ildə İrəvan quberniyasında 661,6 min nəfər əhali yaşayırdı. Bu əhalinin 270,4 mini (41%) azərbaycanlı idi. 1893-cü ildə bu ərazidə azərbaycanlı əhalinin sayı 276 min, 1897-ci ildə isə 313 min nəfər idi.

Rus tarixçisi S.Qlinka ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürülməsində Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Paskeviç İrəvanskinin sevimlisi erməni polkovniki Lazarevin xidmətlərini xüsusi qeyd edir: "1827-ci ilin avqustunda Paskeviç qalib ordunun komandanı kimi Təbrizə daxil oldu. Təbriz və onun ətrafındakı əyalətlərdə erməni əhalisinin Rusiya tərəfə cəlb olunmasında polkovnik Lazarevin yaxından köməyini nəzərə alaraq Paskeviç onu Təbriz şəhərinə komendant təyin etdi. Lazarevin yanına gələn ermənilər ondan xahiş edib bildirirdilər ki, əlahəzrət imperatora çatdırın ki, onun səltənətində yaşamağa və ölməyə şad olardıq". Xoy şəhərindən olan ermənilər daha qabağa gedərək bildirirdilər: "Biz İranın çörəyini yeməkdənsə, Rusiyanın ot-ələfini yeməyə hazırıq".

Polkovnik Lazarev İranda yaşayan erməni əhalisinə müraciətində

deyirdi: “Özünüzə seçəcəyiniz yerlərdə - İrəvanda, Naxçıvanda və Qarabağda dövlət hesabına əkilib becəriləcək bol məhsullu torpaq alacaqsınız. Siz hər cür vergilərdən 6 il müddətinə azad olunursunuz. “Türkmənçay” müqaviləsinə görə 5 il müddətində İrandakı əmlakınızın satılması üçün burada vəkil qoya bilərsiniz. Orada (Azərbaycan torpaqlarında – müəllif) xristianlarla məskunlaşmış yeni vətən tapacaqsınız”. Ermənilərin köçürülməsinə rəhbərlik edən Lazarev özü də etiraf edir ki, bu torpaqlar çar Rusiyası tərəfindən ermənilərə verilən yeni vətəndir. Polkovnik Lazarev qraf Paskeviçə göndərdiyi hesabatda yazırdı: “1828-ci il fevralın 26-da fəaliyyətə başladığım gündən əlahəzrətdən on dörd min manat qızıl pul və 400 min manat gümüş pul almışam. Təkcə Naxçıvan şöbəsinə verdiyim 2 min manatdan çox qızıl pula 8249 xristian ailəsi köçürmüşəm”.




1806-cı ildən sonra İrəvan xanlığı ərazisində 500 azərbaycanlı ailəsi doğma yurdlarını tərk edərək Qarsa qaçmağa məcbur edilmişdi.

Şopenin hesablamalarına görə İrəvan xanlığı ruslar tərəfindən işğal olunana qədər burada 2984 azərbaycanlı ailəsi yaşayırdı. İşğaldan sonra əyalətdəki azərbaycanlı ailələrin sayı 3,5 dəfə azalaraq cəmi 847 ailə qalmışdı. İki-üç il ərzində əyalətdən 2137 azərbaycanlı ailəsi qonşu İrana və Osmanlı ərazisinə köçməyə məcbur olmuşdu. 1832-ci ildə İrəvan şəhərində müsəlmanların sayı 7331 nəfərə enmişdi. 1854-cü ildə isə burada 3163 nəfər azərbaycanlı qalmışdı. Erməniləri dilə tutaraq İrəvan və Naxçıvan vilayətlərinə köçürmək, bu yolla həmin vilayətlərdə demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişməklə Cənubi Qafqazı müstəmləkə halına salmaq çarizmin bufer zonası yaratmaq siyasətinin konkret təzahürü idi. 1828-1829-cu illər rus-türk müharibəsindən dərhal sonra İrandan 23098, Osmanlıdan 20324 erməni köçürülərək əvvəllər azərbaycanlılar yaşayan kəndlərdə məskunlaşdırıldı.

XIX əsrin birinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələrində başlanmış qaçqınlıq və köçkünlük çar Rusiyasının müstəmləkəçilik siyasətinin, milli ədavətin, aramsız müharibələrin bilavasitə nəticəsi idi. İrəvan xanlığı Rusiyaya qatılandan sonra buradan 2137 ailə, Qazaxdan 1817-1831-ci illərdə 2306 ailə, Qubadan 1796-1810-cu illərdə 10334 ailə, Şəmşəddildən 1804-1817-ci illərdə 11478 ailə, Borçalıdan 1804-1807-ci illərdə 15354 ailə, Naxçıvandan 1400 ailə didərgin salınmışdı. 1805-1813-cü illərdə təkcə Qarabağı məcburi tərk etmiş azərbaycanlı ailələrin sayı 4845 nəfərdən çox idi.

Osmanlı ərazisində müstəqil dövlət yaratmaq arzusunu reallaşdıra bilməyən erməni ideoloqları Cənubi Qafqazı öz maraq dairələrinə daxil etdilər. Belə ki, yüz minlərlə erməni Osmanlı ərazisindən Azərbaycan torpaqlarına köçərək erməni məsələsini Rusiyanın himayəsi altında daha tez həll etməyə qərar verdi. Belə ki, əgər 1812-1826-cı illərdə Cənubi Qafqazda 51530 nəfər, yəni bütün əhalinin 9,37 faizi qədər erməni yaşayırdısa, 1897-ci ildəki siyahıyaalmaya görə ermənilərin sayı artaraq 784346 nəfərə çatmışdı. Rəsmi mənbələrin birində qeyd olunur ki, Rusiyanın tərkibinə daxil edilən İrəvan və Naxçıvan əyalətlərində 1829-1832-ci illərdə əhalinin tərkibində kəskin dəyişikliklər hiss olunmağa başladı. Bu əyalətlərdə yaşayan müsəlman əhalisinin böyük bir hissəsi İran və Türkiyəyə köçməyə məcbur oldu. Köçən müsəlman əhalisinin evlərində isə İrandan 35 min, Türkiyədən 22 min erməni əhalisi yerləşdirildi. Beləliklə, rus istilasına qədər İrəvan əyalətində müsəlmanların sayı 49875 nəfər, köhnədən yaşayan ermənilərin sayı 20073 nəfər, köçürülən ermənilərin sayı isə 45200 nəfər oldu. Naxçıvan əyalətində isə müsəlmanlar 17138 nəfər, köhnədən yaşayan ermənilər 2690 nəfər, köçürülən ermənilər 10670 nəfər, Ordubad dairəsində müsəlmanlar 7247 nəfər, yerli ermənilər 2398 nəfər, köçürülən ermənilər isə 1340 nəfər olmuşdur. Ermənilər Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında azərbaycanlı əhalini öz torpaqlarından sıxışdırıb çıxarmaqla, boşaldılmış torpaqlara erməniləri yerləşdirərək öz mənfur planlarını həyata keçirməyə çalışırdılar. XX əsrin əvvəllərində bu proses daha da sürətləndirildi. M.S. Ordubadi yazırdı: “1905-1906-cı illərdə ermənilər təkcə İrəvan və Yelizavetpol quberniyalarında 200-dən çox müsəlman kəndini dağıdıb yerlə yeksan etmişdilər”.

200 ildən artıqdır ki, ermənilər saxta tarix yaratmaqla “Böyük Ermənistan“ dövlətinin yaradılmasına cəhd göstərirlər. Nə yalançı tarix, nə də havadarları onlara kiminsə torpağını pay verə bilməz.

2020-ci ilin 44 günlük Vətən müharibəsi göstərdi ki, Cənubu Qafqaza köçürülən və gəlmə hesab edilən ermənilər onlara vaxı ilə verilən “vətən”lə kifayətlənməlidirlər. Əks təqdirdə 1918-ci ilə kimi mövcud olmayan Ermənistan həmin tarixi bir də yaşaya bilər.

# Tədqiqat universitetləri: perspektivlər və imkanlar



**Etibar Əliyev**
Milli Məclisin deputatı

Dünya universitetləri bir neçə missiya yerinə yetirirlər: birincisi, təhsil, ikincisi, tədqiqatlar. Üçüncü missiya qloballaşma şəraitində universitetlərin vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsidir. Bunu ictimai missiya da adlandırmaq olar. Bura innovativ ideyaların və yaradıcı təşəbbüslərin irəli sürüldüyü funksiyanı da əlavə etsək, yanılmarıq. Biz universitetlərin təhsil missiyasını həmişə önə çəkməyə çalışmışıq. Lakin son zamanlar "təhsildən elmə" paradiqması çərçivəsində universitetlərdə elmi tədqiqatların kəmiyyət və keyfiyyət meyarlarına diqqət artıb. Yaşadığımız əsrdə universitetlərin üzərinə insan kapitalının inkişafı kimi mühüm vəzifə düşür. Bunun həyata keçirilməsi üçün ali məktəblər tədqiqatlara üstünlük verməlidirlər.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə ali təhsil müəssisələrinin "təhsil-tədqiqat-innovasiya" formatında inkişafı nəzərdə tutulur.

"Tədqiqat universiteti" (research university) anlayışı ilk dəfə ABŞ-da elmi dövriyyəyə buraxılıb və tədqiqat işlərinin intensiv aparıldığı bir neçə universitetdə tətbiqini tapıb. İlk tədqiqat universiteti isə 1809-cu ildə Vilhelm fon Humbolt tərəfindən Berlində yaradılıb. Klassik tədqiqat universitetinin mahiyyəti tədris prosesini fundamental elmi tədqiqatlara inteqrasiya etməkdir. 2012-ci ilə qədər ABŞ-da 260, Almaniyada 70, Böyük Britaniyada 73 tədqiqat universiteti formalaşıb. Sual olunur: tədqiqat universitetlərinin tədris proqramlarının strukturu necə olmalıdır? Bu sual ətrafında xeyli məqalələr yazılıb, diskussiyalar aparılıb. Bolonya razılaşması əldə olunduqdan sonra təhsil prosesinin strukturunun 4+2 (bakalavriat+magistratura) və doktorantura formulu ilə ifadə olunması geniş vüsət almağa başladı.

Universiteti ali təhsil müəssisəsi kimi digər təhsil müəssisələrindən fərqləndirən əsas cəhət tədrislə yanaşı, tədqiqatların aparılmasıdır. Tədqiqat prosesinə təhsil alanlar (bakalavr və magistrlər) cəlb edilməyənə qədər ciddi nailiyyət mümkünsüz görünür.

Bakalavriat ali təhsilin birinci pilləsidir və bu pillənin məzunlarının magistraturaya daxil olması



icbari (məcburi) deyil. ABŞ universitetləri bakalavriat çərçivəsində icbari ixtisaslaşma proqramının əleyhinədir. Bu pillədə geniş ümumi təhsil verilir. Bura ixtisaslaşmanın ayrı-ayrı elementlərindən ibarət nəzəri və təcrübi fənlər daxil edilir. Nəzəri və tətbiqi sahələrdə daha dərin ixtisaslaşma magistratura və doktorantura pillələrində həyata keçirilir. İnkişaf etmiş bir çox ölkələrin bakalavriat pilləsində təhsilin ideologiyası ondan ibarətdir ki, tələbələr zəngin ümumi təhsil almaq üçün müxtəlif istiqamətlərdə kursları dinləməlidirlər. Məsələn, ümumi humanitar təhsil proqramları böyük populyarlıq təşkil edir. Tələbə konkret ixtisası seçir və bir neçə icbari kursları dinləyir. İcbari kurslara tələbat ali məktəblərdə bir-birindən fərqlənir. Lakin hər yerdə ixtisaslaşma vacibdir və bunun çərçivəsində müəyyən miqdarda kurs dinlənilməlidir. Məsələn, iqtisadiyyat sahəsi üzrə ixtisaslaşmaq üçün kafedralarda tələb olunan 8 semestrlik kursu keçməklə yanaşı, statistika kursu da keçilməlidir. Lakin bu cür təhsildən sonra tələbə iqtisadçı ola bilməz, o, sadəcə iqtisadiyyat sahəsində ümumi humanitar təhsil almış olur. Konkret elmi biliklərə yiyələnmək üçün isə o, ya magistratura, ya da doktorantura pillələrində ixtisaslaşmalı, ya da konkret bilikləri təcrübədə qazanmalıdır.

Bəs bakalavriat pilləsində tələbələr nəyi necə öyrənməli və professor-müəllim heyətinin qarşısında duran problemlər nədən ibarət olmalıdır?

Hər bir müəllim ayrı-ayrı tələbələrə müxtəlif maraqlara və ixtisaslara yönəlik kifayət qədər universal kurs hazırlamalıdır. Bu, həm də hər bir tələbəyə öz akademik proqramını sərbəst təyin etməyə imkan verir. Məsələn, bizə elə gəlir ki, "Kvant mexanikasına giriş" kursunu dinləyən tələbələr fizik olmaq istəyənlərdir. Lakin hazırda kvant fizikasının anlayışlarının müxtəlif elm sahələrində istifadə olunması digər

Hər bir müəllim ayrı-ayrı tələbələrə müxtəlif maraqlara və ixtisaslara yönəlik kifayət qədər universal kurs hazırlamalıdır. Bu, həm də hər bir tələbəyə öz akademik proqramını sərbəst təyin etməyə imkan verir. Məsələn, bizə elə gəlir ki, "Kvant mexanikasına giriş" kursunu dinləyən tələbələr fizik olmaq istəyənlərdir. Lakin hazırda kvant fizikasının anlayışlarının müxtəlif elm sahələrində istifadə olunması digər ixtisaslarda təhsil alan tələbələri də bu kursa cəlb edə bilər.





ixtisaslarda təhsil alan tələbələri də bu kursa cəlb edə bilər. Bu mənada professor üçün kursun təşkili çətinlik yaradır, çünki bu kurs həm mütəxəssis olmaq istəyənlər, həm də hamı üçün maraqlı olmalıdır. Bu çətinliklər bütün bakalavriat pilləsi boyu yarana bilər. Məsələn, iqtisadçı tələbələr üçün riyaziyyatdan vahid hazırlıq standartları yoxdur. Bu mənada bir çox tələbələr riyazi formulların tətbiqini bacarmırlar. Nəticədə, əksər hallarda müəllimlər orta və zəif hazırlıqlı tələbələrə yönəlik kurslara üstünlük verirlər. Böyük ispan filosofu Xose Orteqa-i-Qasset "Universitetin missiyası" əsərində yazırdı: "Tələbəyə onun oxuya bilmək bacarığına və ona həyatda lazım olanlara əsaslanmaq lazımdır. Orta tələbəyə əsaslanmaq və onu yalnız vacib və mütləq zəruri olan ilə təmin etmək gərəkdir: başqa sözlə desək, tələbəyə zamanın zirvəsindən həyat üçün tələb olunanı öyrətmək və onun bu materialı asanlıqla və bütünlüklə mənimsəməsinin qayğısına qalmaq lazımdır". İspan filosofunun istinad etdiyi orta tələbə indiki orta tələbədən fərqlənir. Bu, şübhəsiz ki, informasiya cəmiyyətinin təşəkkül tapmasından sonra özünü göstərməyə başladı.

Bütün hallarda ali məktəb müəllimləri kursun məzmunu haqqında düşünülmüş, praqmatik qərarlar qəbul etməlidirlər. Dərhal qeyd edilməlidir ki, hər bir müəllim üçün azad seçim imkanı istisna deyil. O, istənilən dərsliyi seçməkdə və kursun planını istənilən formada tərtib etməkdə azaddır. Qərb təhsil sistemində hər bir müəllimə öz kursunu, hər bir universitetə isə öz proqramını tərtib etməkdə geniş imkanlar yaradılır.

Qərb ölkələrində və ABŞ-da universitetlər və professorlar arasında intensiv rəqabətin yaranması təhsilin yüksək səviyyədə standartlaşdırılmasına gətirib çıxardı. Texniki fənlərin tədrisində həm anlayışlar, həm müasir texnologiyaların strukturu, həm də abstrakt təfəkkür formalaşdırılmalıdır. Burada yeni işlənmiş dərsliklər, proqramın müasirliyi və müəllimlərin təqdimatları önəmli rol oynayır.

Dünyanın ali təhsil sistemləri çərçivəsində tədqiqat universitetləri peşəkarların, alimlərin, tədqiqatçıların hazırlanmasında, həmçinin milli innovasiya sisteminin dəstəklənməsi üçün yeni biliklərin istehsalında mühüm əhəmiyyət kəsb edir.

Tanınmış universitetlərdə hesab edirlər ki, tədqiqat professorların işinin ayrılmaz tərkib hissəsi olmalıdır. Yalnız elmlə aktiv şəkildə məşğul olan professor öz sahəsində son tədqiqatlardan məlumatlı olur və bu səbəbdən dərs dediyi materialı daha dərindən bilir.

Digər tərəfdən hesab edirlər ki, dərs demək elmi tədqiqatlar üçün olduqca vacibdir. Yəni tələbələrə mürəkkəb materialları izah etməyə cəhd etmək lektoru problematikanı və elmi paradiqmaları daha yaxşı və dərindən dərk etməyə məcbur edir. Buna görə də dərs demək və tədqiqat aparmaq bir-birilərini yaxşı tamamlayırlar, lakin buna başqa komponent də əlavə olunur: onların sosial mahiyyəti.

Azərbaycanda rəqabət qabiliyyətli insan kapitalının hazırlanması məqsədi ilə ali təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsi üçün magistratura proqramlarının təkmilləşdirilməsi olduqca böyük önəm kəsb etməlidir. Bu proqramlar bakalavriat proqramlarından fərqli olaraq çoxçeşidlidir, yəni təkcə ixtisaslaşma ilə bağlı deyil, proqramların tiplərindən də asılıdır. İlk növbədə magistratura



proqramlarını akademik və tətbiqi istiqamətlərə bölmək lazımdır. Axırıncını çox vaxt “peşəkar proqramlar” adlandırırlar.

“Akademik” magistratura seçilmiş istiqamətlər üzrə ixtisaslaşmış və dərinləşdirilmiş proqramlar üzrə hazırlıqlar tələb edir. Bura həm də mürəkkəblik dərəcəsinin yüksəldilməsi ilə müşahidə olunan nəzəri və tətbiqi biliklər korpusu da daxildir. Belə magistratura artıq populyar olmur, elmə həvəsi olan-



lar doktorantura pilləsinə meyil edirlər.

“Peşəkar” magistraturalarda konkret ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Məsələn, hüquqşünaslar, həkimlər, mühəndislər, arxitektorlar və digərləri. Belə proqramlar üzrə təhsil 2-3 il davam edir. Konkret desək, Amerika təcrübəsində magistratura praktik olaraq bakalavr kursunu davam etdirmir. Universitet sistemi inkişaf etmiş bu ölkədə fənlərarası proqramlara böyük üstünlük verilir. Bu proqramlar o mənada fənlərarası hesab olunur ki, tələbələrə geniş seçim imkanı verilir, bu da onu göstərir ki, amerikalı tələbələr digər ixtisas və fənlərarası sahələrdə ikinci diplomu qazanmaqda real imkanlar əldə edirlər.

Əvvəllər Amerika təhsil sisteminin 3 pilləli olmasından söhbət açılırdı: bakalavr-magistr-doktor. De-fakto bu, artıq belə deyil. Bu ölkədə sistem ikipilləli təhsil üzərində bərqərar edilib. Bakalavr təhsilindən sonra tələbə magistr dərəcəsi almaq üçün ya ixtisaslaşmış məktəblərə (biznes, hüquqşünaslıq, tibb) daxil olur, ya da doktorluq proqramına. Magistr dərəcəsi elmi ixtisaslaşma kimi praktik olaraq sıradan çıxıb. Kim elmlə məşğul olmaq istəyirsə, doktorantura təhsilini seçir. Peşəkar fəaliyyətlə məşğul olmaq istəyənlər isə 2-3 il müddətində uyğun magistr dərəcəsini alırlar.

Bəs konkret elm sahələri üzrə tədqiqatçılar necə yetişməlidir? Bu mənada Almaniya təcrübəsi olduqca maraqlıdır. Almaniyanın əksər universitetlərində riyaziyyat ixtisasını seçənlərdən bu fənni dərindən bilmək tələb olunur. Riyaziyyat ixtisası üzrə daxil olan abituriyentlər bakalavr və diplom proqramı arasında seçim edirlər. Bakalavriat üçün 6 semestr nəzərdə tutulur. Bakalavr dərəcəsindən sonra tələbələrin magistraturada təhsillərini davam etdirmək imkanları var. Bakalavr pilləsinin tədris proqramı sırf riyaziyyata həsr olunub. 9 semestrlik təhsildən sonra diplom işi müdafiə olunur. Bu pillədə öyrənilən əlavə fənlər bunlardır: informatika, fəlsəfə, fizika. Hər iki proqramda birinci semestrdə öyrətmə əsas fənlər sayılan xətti cəbr və analizə həsr olunur. Mühazirə və praktik dərslərdə tələbələr riyazi problemləri həll edir və analizlə məşğul olurlar. İnformatika da əsas hazırlıqlardan sayılır. Proqramlaşdırma riyaziyyatın dilinin kompüter texnologiyalarına tətbiqinə imkanlar yaradır. Növbəti semestrlərdə tələbələrə həndəsə, stoxastika və ehtimal nəzəriyyəsi tədris edilir. Yəni tədris iki bərabər hissəyə bölünür: nəzəri və praktik riyaziyyat. Birinci, riyazi struktura, ikinci, riyazi metodların tətbiqi problemlərinin həllinə həsr olunur.

**Bütün hallarda ali məktəb müəllimləri kursun məzmunu haqqında düşünülmüş, praqmatik qərarlar qəbul etməlidirlər. Dərhal qeyd edilməlidir ki, hər bir müəllim üçün azad seçim imkanı istisna deyil. O, istənilən dərsliyi seçməkdə və kursun planını istənilən formada tərtib etməkdə azaddır. Qərb təhsil sistemində hər bir müəllimə öz kursunu, hər bir universitetə isə öz proqramını tərtib etməkdə geniş imkanlar yaradılır.**

Riyaziyyatın peşəkar sahələrə tətbiqi müxtəlifdir. Tədris zamanı tələbələr problemləri məntiqi və analitik metodlarla həll etməyi öyrənirlər. Buna görə də istənilən hesablamaları bacarmalıdırlar. Riyaziyyat ixtisasına yiyələnmiş məzunlar bu bacarıqları sənaye və iqtisadi sahələrdə, həm də xidmət sahələrində istifadə edə bilirlər.

Tədqiqat universitetləri yaratmaq üçün qabaqcıl təcrübələr dərindən öyrənilməli və təhlillər aparılmalıdır. Universitetlərimizin tanınmış reytinq cədvəllərində yer almaları üçün tədqiqatların spektri genişləndirilməlidir. Bu proses yeni nəsil mütəxəssislərin hazırlığından daha çox asılıdır.

# Azərbaycanda peyvəndlərin tətbiqi dövlət hesabına və könüllülük prinsipi əsasında həyata keçiriləcək



MİLLİ MƏCLİSİN DEPUTATI **SOLTAN MƏMMƏDOVUN** "MİLLİ MƏCLİS" JURNALINA MÜSAHİBƏSİ

**- Soltan müəllim, koronavirusla mübarizə sahəsində görülən tədbirlərin nəticələri barədə nə deyə bilərsiz? Virusun yayılma dinamikasının azalmasında bu tədbirlər nə dərəcədə effektli-dir?**

- Azərbaycan dövləti pandemiyanın yayılmağa başladığı ilk günlərdən kifayət qədər ciddi kompleks tədbirlər həyata keçirdi. Əhalinin maarifləndirilməsi, səhiyyə sisteminin pandemiya şərtlərinə mümkün qədər qısa vaxt ərzində uyğunlaşdırılması, virusun yayılma sürətinin azalmasına nail olmaq üçün həyata keçirilən məhdudlaşdırıcı tədbirlər birinci dalğanı daha az itki ilə keçməyə imkan yaratdı. Eyni zamanda, sərt karantin rejimi dövründə əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də dövlət tərəfindən bütün mümkün zəruri addımlar atıldı. İqtisadiyyatın daha az itkiyə məruz qalmasını təmin etməyə yönəlmiş qərarlar qəbul olundu. Bu ilin əvvəllində Azərbaycanda COVID- 19 testlərini aparmaq imkanına malik cəmi 6 laboratoriya fəaliyyət göstərirdi. Qısa müddətdə ölkədə yeni laboratoriyaların yaradılması mümkün oldu. İndi Azərbaycanda belə laboratoriyaların sayı 40-dan çoxdur. Qeyd edim ki, Azərbaycanda istifadə edilən reaktivlər dünyanın inkişaf etmiş ölkələrindən alınıb və ən yüksək standartlara cavab verir. Koronavirusa yoluxmuş vətəndaşlar ümumilikdə 46 dövlət xəstəxanasında müalicə alırlar.

COVID-19 yeni tip virus olduğundan onun əhaliyə, insanların sağlamlığına vurduğu zərbələri tam şəkildə və qısa müddətdə aradan qaldırmaq, təbii ki, mümkün deyil. Hələ ki, heç bir ölkə buna nail ola bilməyib. Bu baxımdan, payızda ikinci dalğanın başlanacağı əvvəlcədən proqnozlaşdırılırdı. Mövsümün dəyişməsi, soyuq fəsillərdə virusun aktivliyinin artması Azərbaycanda son həftələrdə COVID-19-un daha sürətlə yayılmasını şərtləndirən əsas amildir. Şübhəsiz ki, şəxsi gigiyena, fiziki məsafənin saxlanılması, tibbi qoruyucu vasitələrdən istifadə səviyyəsi də bu artıma təsir göstərir. Nəzərə almaq lazımdır ki, özünüqoruma tədbirləri insanların vərdiş etmədiyi yeni davranış qaydalarını diktə edir. Bu isə təbii olaraq, hər şeydən öncə psixoloji diskomfort yaradır. Yəni qoruyucu tədbirlərə, məhdudiyyətlərə qarşı bəzi hallarda hətta narazılıq kimi özünü büruzə verən ictimai etinasızlığın çox təbii əsasları var. Vətəndaşlarımız alışmadığı davranış qaydaları əsasında yaşamalı olurlar və bir çox hallarda bu qaydalara riayət etməməklə, sanki pandemiyaya öz daxili etirazlarını bu cür ifadə edirlər. Bu, təkcə Azərbaycanda deyil, bütün dünyada mövcud olan problemdir. Ona görə də virusun yayılmasında insanların davranışı kifayət qədər ciddi rol oynayır. Lakin hesab edirəm ki, dövlət tərəfindən həyata keçirilən tədbirlər, sərtləşdirilmiş karantin rejiminin tətbiqi, eyni zamanda, səhiyyə sahəsində görülən ardıcıl işlər vəziyyətdən minimum itki ilə çıxmağımıza imkan yaradacaq. Qarşıdakı 2-3 ayda, əlbəttə ki, müəyyən çətinliklər olacaq. Əsas məsələ təsdiq olunmuş peyvəndin tətbiqinə başlamaq, beləliklə də, virusun yayılmasının qarşısını almaqdır.

**- COVID-19-a qarşı pevəndin tətbiqi ilə bağlı hansı yeniliklər var? Azərbaycanda bu prosesin nə vaxt başlaması gözlənilir?**

- Peyvəndin hazırlanması ilə dünyanın müxtəlif şirkətləri məşğul olur. Məlumatlara görə, 30 vaksin klinik sınaqlar fazasına daxil olub ki, onlardan da 7-si üzərində artıq üçüncü klinik fazada sınaq keçirilir. Araşdırmalar hələ ki, tam başa çatmadığından mütəxəssislər tapılan peyvəndlərin effektivliyi və təhlükəsizliyi haqqında qəti və yekun fikir söyləməyə tələsmirlər. İndiyə olan məlumatlara görə, Almaniya və ABŞ şirkətlərinin birgə

hazırladığı, Rusiyanın təqdim etdiyi və Britaniyada hazırlanan vaksinlər haqqında məlumatlar var. Bununla yanaşı, Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronaVac" vaksini məlumdur. Bu vaksinlər içərisində saxlanma temperaturu daha sadə olan məhz "CoronaVac" vaksinidir. Vaksinin 95-97 faiz effektivliyi təsdiq olunub ki, bu da kifayət qədər yüksək göstəricidir. Bu vaksin inaktiv üsulla hazırlandığından daha təhlükəsiz hesab edilir.

Məlum olduğu kimi, vaksinlərin hazırlanması zamanı infeksiyaya səbəb olan törədicilər 2 metodla - attenuasiya, yəni törədicinin zəifləndilməsi və inaktivləşdirmə, yəni törədicinin öldürülməsi üsulu ilə zərərsizləşdirilir. Azərbaycanda indiyə qədər müxtəlif xəstəliklərə qarşı tətbiq olunan vaksinlər məhz inaktiv vaksinlərdir.  Bu tip vaksinlərin uzun müddət ərzində ölkəmizdə tətbiq edilməsi, onların daha təhlükəsiz olduğunu söyləməyə əsas verir.

COVID-19-a qarşı vaksinlərin əldə olunması və tətbiqi istiqamətində müvafiq dövlət qurumları tərəfindən iş aparılır. Artıq Azərbaycan Prezidenti cənab İlham Əliyev MDB dövlət başçılarının videokonfrans formatında keçirilən sammitindəki çıxışında ölkəmizdə koronavirusa qarşı vaksinasiya proqramına gələn ilin əvvəlindən başlanmasının planlaşdırıldığını açıqlayıb.




COVID-19-a qarşı vaksinlərin əldə olunması və tətbiqi istiqamətində müvafiq dövlət qurumları tərəfindən iş aparılır. Artıq Azərbaycan Prezidenti cənab İlham Əliyev MDB dövlət başçılarının videokonfrans formatında keçirilən sammitindəki çıxışında ölkəmizdə koronavirusa qarşı vaksinasiya proqramına gələn ilin əvvəlindən başlanmasının planlaşdırıldığını açıqlayıb

**- Peyvəndlərin tətbiqi xəstəliyin tamamilə aradan qaldırılmasına və insanların normal həyata qayıtmasına təminat verirmi?**

- Bu, əslində COVID-19 və bu kimi digər pandemiyalara qarşı mübarizənin ən effektiv yoludur. Ümumiyyətlə, tibbdə peyvəndlərin tətbiqi yoluxucu xəstəliklərdən qorunmanın ən effektiv yolu kimi qəbul edilir. Azərbaycanda vaxtilə müxtəlif yoluxucu xəstəliklər, o cümlədən  qızılca, parotit, məxmərək, difteriya, poliomielit və digər xəstəliklər əhali arasında çoxsaylı ölümlərə səbəb olurdu. Lakin məhz peyvəndlərin uğurla, geniş şəkildə tətbiqi, təqvimə uyğun vaxtında aparılmas nəticəsində poliomielit xəstəliyi tamamilə aradan qalxıb, Azərbaycan poliomielitdən azad ölkələr sırasına daxil olub. Eyni zamanda, difteriya, məxmərək, parotit, qızılca xəstəlikləri demək olar ki, qeydə alınmır.

Həm Ümummilli liderimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə, həm də ölkə Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bu sahəyə xüsusi diqqət və dəstək göstərilir. Bu baxımdan, şübhəsiz ki, kütləvi peyvəndləmə xəstəliyin yayılmasının əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına səbəb olacaq. Ona görə də, bütün vətəndaşlarımız bu prosesə ciddi yanaşmalı, xəstəliyin qarşısının alınması və bu virusun həyatımızdan çıxması üçün peyvəndin tətbiqinə dəstək verməlidirlər. Lakin bu, bir neçə günə yekunlaşdırıla biləcək proses deyil. Peyvəndlərin tətbiqi bir neçə mərhələdə aparılacaq. Artıq müvafiq qurumlar da bununla bağlı ictimaiyyətə açıqlama verib ki, ilkin mərhələdə xüsusi risk qrupları - tibb işçilərinə, yaşı 65-dən yuxarı olan vətəndaşlara peyvənd vurulacaq. Daha sonra isə digər vətəndaşlar da mərhələli şəkildə bu imkandan faydalana biləcəklər. Azərbaycanda peyvəndlərin tətbiqi dövlət hesabına və könüllülük prinsipi əsasında həyata keçiriləcək. Lakin şübhəsiz ki, kollektiv immunitet yaranana kimi məhdudlaşdırıcı tədbirlər, tibbi qoruyucu vasitələrdən istifadə, fiziki məsafənin qorunması hələ bir müddət aktual olacaq.

Hesab edirəm ki, dövlətimizin və cəmiyyətimizin birliyi, həmrəyliyi sayəsində biz mümkün olan ən qısa vaxtda bu çətin mərhələni də uğurla keçə biləcəyik. Azərbaycan dövlətinin həyata keçirdiyi bütün tədbirlərin əsas hədəfində vətəndaşların mənafelərinin, insanlarımızın sağlamlığının və rifahının təmin olunması dayanır. Dövlətlə vətəndaş arasında qarşılıqlı etimad mövcuddur. Bu etimad bütün problemləri həll etməyə imkan verir.


AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ